

# ÜMUMİ TARİX



Metodik vəsait





7





# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

SEVİL BƏHRƏMOVA, LEYLA HÜSEYNOVA,
HƏCƏR ƏLİŞOVA

# ÜMUMİ TARİX 7

***Ümumtəhsil məktəblərinin
7-ci sinfi üçün Ümumi tarix
fənni üzrə dərsliyin***

**METODİK VƏSAİTİ**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

«ASPOLİQRAF»
BAKI–2018

# KİTABIN İÇİNDƏKİLƏR

Metodik vəsait haqqında ....................................................................4
Peşəkarlığı artırmaq üçün tövsiyə ....................................................................14
Şagirdlərin öyrənməsini təminetmə ....................................................................16
VII sinif «Ümumi tarix» fənni üzrə məzmun standartları ....................................18
Məzmun standartlarının şərhi ....................................................................20
«Ümumi tarix» fənni üzrə fəndaxili və fənlərarası inteqrasiya ...........................23
Düzgün seçilmiş strategiya ....................................................................25
Şagirdlərin qruplara bölünməsi üsulları ....................................................................35
Planlaşdırmanın aparılmasına dair tövsiyələr ....................................................................36
Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr ..............................40
İllik planlaşdırma ....................................................................44
Mövzuların reallaşdırılması üçün metodik tövsiyələr ....................................48

## FEODALİZM ŞƏRQDƏN BAŞLADI

Mövzu 1. Xalqların böyük köçü ....................................................................48
Mövzu 2. Göytürk xaqanlığı və onun varisləri ....................................................................50
Mövzu 3. Avarlar, xəzərlər və bulqarlar ....................................................................52
Mövzu 4. Böyük İpək yolunun başlandığı ölkə ....................................................................54
Mövzu 5. İran və Qafqaz ....................................................................56
Mövzu 6. Ərəb xilafəti ....................................................................58
Mövzu 7. Xilafətin parçalanması ....................................................................60
Mövzu 8. Türk və Qafqaz xalqlarının xəzinəsi. İslamın töhfələri ....................62
Mövzu 9. Səlcuq imperatorluğu ....................................................................64
Mövzu 10. Hindistan VI–XVI əsrlərdə ....................................................................66
Mövzu 11. Çingiz xan və onun davamçıları ....................................................................68
Mövzu 12. Osmanlı imperatoruğu XIII–XVI əsrlərdə ....................................................70
Mövzu 13. Şərqin böyük fatehi – Əmir Teymur ....................................................72
Mövzu 14. Şərqin nadir inciləri ....................................................................74

## FEODALİZM AVROPADA

Mövzu 15. Frank imperiyası ....................................................................76
Mövzu 16. Bizans. Slavyanlar ....................................................................78
Mövzu 17. «Dənizlər kraliçası» və digər şəhər-respublikalar ..........................80
Mövzu 18. Xaç yürüşləri. Qranada əmirliyinin süqutu ....................................82
Mövzu 19. Yüzillik müharibə ....................................................................84
Mövzu 20. Dumanlı Albion orta əsrlərdə ....................................................................86

Mövzu 21. Kilsənin yolları necə ayrıldı........................................................88
Mövzu 22. Avropalılar sərvət axtarışında....................................................90
Mövzu 23. Hollandiya Respublikası necə yarandı? ........................................92
Mövzu 24. Avropa və Amerika xalqlarının mədəniyyəti ..............................94
Dərs nümunələri ..........................................................................................96
«Ümumi tarix» fənn kurikulumunun məzmunu.........................................102
Tarix dərslərində əyanilik ..........................................................................106
Tarix təlimində texniki vasitələrdən istifadə..............................................118
Test nümunələri ..........................................................................................120
«Ümumi tarix» fənni üzrə resurslar ............................................................123
İstifadə olunmuş ədəbiyyat ........................................................................126

## METODİK VƏSAİT HAQQINDA

***Hörmətli müəllimlər!***

Sizə təqdim olunan bu vəsait dərslik komplektinin tərkib hissəsidir. Ölkəmizdə aparılan təhsil islahatı yeni yanaşmalarla özünü göstərməkdədir. Dünyanın bir çox ölkələrinin təcrübəsi əsasında formalaşdırılaraq təhsilin inkişafına xidmət edən bu yeniliklər dərslərin tədrisində də reallaşdırılır. Şagird təkcə mövzunu öyrənmir, mövzunu araşdırarkən müəyyən bacarıqlara yiyələnir. Təfəkkürün inkişafına xidmət edən bu yanaşma artıq 7 ildir ki, Azərbaycan məktəblərində öz tətbiqini tapmaqdadır. Dərslik komplektinə dərslik və müəllim üçün vəsait daxildir. Sizə təqdim olunan dərslik komplekti Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün hazırlanmış VII sinif fənn proqramı (kurikulumu) əsasında tərtib edilmişdir.

Dərslik anlayışı hər birimizə aydındır. Onun funksiyasını bu və ya digər formada hər birimiz bilirik. Bəs metodik vəsait nə üçündür? Yəqin ki, çoxlarınız bu haqda bilirsiniz. Müəllim üçün nəzərdə tutulan bu vəsait dərsliklə işin təşkilinə xidmət edir. Bu vəsait tövsiyə xarekteri daşıyır, sizlərə istiqamət vermək funksiyasını öz üzərinə götürür. Bildiyiniz kimi, kurikulum islahatına görə dərs sinifdə reallaşdırılmalı, yeni biliklər öz əksini bacarıqlar formasında üzə çıxarmalıdır.

Ənənəvi təhsil sisteminin tətbiqi zamanı biz yeni mövzu haqqında danışıb, müəyyən izahlar verirdik. Bu prosesdən sonra şagirdlərə yeni mövzunu evdə öyrənməyi tapşırırdıq. Növbəti dərs isə bu mövzunun şagirdlərdən soruşulması ilə başlanılırdı. Artıq dərs anlayışına baxışlar dəyişib. Dərs təkcə 45 dəqiqədə reallaşan mövzu deyildir. Dərs şagirdlərin bilik və bacarıqlarının üzə çıxarılmasına xidmət edir. Bu zaman bacarıqlar düzgün şəkildə şagirdin psixoloji durumundan tutmuş, yaş xüsusiyyətinə qədər nəzərə alınmaqla üzə çıxarılmalıdır. Sinfin zəif və güclü şagirdləri nəzərə alınmalı, onların potensial imkanlarını ortaya qoymaqdan ötrü seçilən tapşırıqlar məq-

sədyönlü olmalıdır. Bəzən güclü şagird çox asan suala rahatlıqla cavab verir. Yaxud da çox zəif şagirdi olduqca mürəkkəb tapşırıqla üz-üzə qoymuş oluruq. İlk baxışdan normal hal hesab olunsa da, pedaqoji və psixoloji baxımdan bu, düzgün deyildir. Bu zaman şagirdin dərsə marağı sönür, fəallaşma azalır. Zəif şagird çox çətin tapşırığı reallaşdıra bilmədiyi üçün həvəsdən düşür, qorxu və uğursuzluq hissi daim onu təqib edir. Dərs onun üçün maraqsız olur. Eyni hiss güclü şagirddə də ola bilər. O asanlıqla həll etdiyi sual və tapşırıqdan fəallaşa bilmir. Təfəkkürünü inkişaf etdirə bilmədiyinə görə dərsə marağı azalır. Məhz buna görə müəllim əsl bələdçi olmalıdır. O, böyük ustalıqla şagirdlərə düzgün yanaşmalı, eyni zamanda onlarda dərsə maraq yaratsın deyə keçiləcək mövzunu düzgün istiqamətləndirməlidir. Müəllim məqsədə çatmaq üçün düzgün araşdırma bacarığı aşılamağı planlaşdırmalı, qoyduğu tədqiqat sualı ilə şagirdlərin işləmə imkanına şərait yaratmalıdır.

Bildiyiniz kimi, müasir tarix dərslikləri illüstrasiya, xəritə və sxemlərlə zəngindir. Eyni zamanda sual və tapşırıqlar da dərsin fəal-interaktiv şəraitdə keçməsi üçün nəzərdə tutulub. VII sinif «Ümumi tarix» dərsliyi də interaktivliyi təmin etmək məqsədilə hazırlanmışdır. Dərslikdə verilən mövzular şagirddə maraq yaratmaq üçün motivasiya ilə başlayır. Motivasiya məqsədilə verilmiş ilk hissə suallarla əhatə olunaraq şagirdlərin düşünməsinə şərait yaradır. Əgər şagird düşünürsə və cavab tapmağa çalışırsa, bu, ilk müsbət addımdır. Mövzular müəyyən hissələrdə sual və tapşırıqlarla tamamlanmışdır. Bu, mövzuların tam mənimsənilməsindən ötrü nəzərdə tutulmuşdur.

Şagird müstəqil düşüncəyə sahibdir. Onun şəxsiyyət kimi yetişməsi və formalaşması dərs mühitində reallaşır. Hazırlanmış dərslik buna xidmət edir. Dərslikdə «Ümumi tarix» fənn kurikulumunun məzmununa daxil olan standartlar 2 bölmədə birləşən 24 mövzuda reallaşdırılmışdır. Standartların reallaşdırıldığı bütün mövzularda şagirdlərin yaş xüsusiyyətləri maksimum səviyyədə nəzərə alınmış, mövzuların sadə dildə və lakonik yazılmasına çalışılmışdır. Bu məqsədlə çoxlu sayda sxemlərdən, şəkillərdən, tapşırıqlardan istifadə olunmuş, yeni sözlərin, terminlərin izahına, maraqlı məlumatlara yer ayrılmışdır. Təlim materiallarının düzülməsində sadədən mürəkkəbə prinsipi əsas götürülərək məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmışdır.

Hər bir mövzunun sonunda verilmiş tapşırıqlar şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına yönəldilmişdir. Dərslik əsas vasitə hesab olunsa da, əlavə bilik və bacarıqların əldə edilməsi üçün yardımçı rol oynayacaqdır. Verilən sual və tapşırıqlar sizlərə standartları reallaşdırmaqda köməklik göstərəcəkdir.

Müəllim üçün vəsait dərslikdəki materialların şagirdyönümlü və nəticəyönümlü şəkildə reallaşdırılmasına yardımçı olacaqdır. Dərsliklə yaxından tanış olan müəllim işinin səmərəli alınması üçün onunla düzgün işləməyi bacarmalıdır. Bu baxımdan dərslik qruplaşdırılmışdır.

# FEODALİZM ŞƏRQDƏN BAŞLADI

## 1. XALQLARIN BÖYÜK KÖÇÜ

A

Sən VI sinifdən bilirsən ki, Qərbi Roma imperiyasının süqut etməsi ilə Qədim dünya tarixi başa çatmışdır. Bəs necə oldu ki, qüdrətli Roma imperiyası zəiflədi və parçalandı? Yadındadırsa, Roma papası hunların başçısı olan böyük türk hökmdarı Atilladan Romanı dağıtmamağı xahiş etmiş, Atilla da bu xahişi yerinə yetirmişdi.



*Hunlar*
*qərb hunları*
*Atilla*
*Katalaun döyüşü*
*Ağ hunlar*
*Eftallılar dövləti*
*Ağsuvar xan*



*Bəs sonrakı hadisələr necə inkişaf etdi? «Xalqların böyük köçü»nün başlanmasına səbəb olan hunlar tarixdə nə kimi rol oynadılar?*

B

C

***«Xalqların böyük köçü»nün başlanması.*** Avrasiya materikində türk tayfalarının yaşadığı torpaqlar kontinental iqlimə malik ərazilərdir. Burada çöl və səhralar zaman keçdikcə böyüyür. Bu isə otlaq sahələrinin azalmasına səbəb olur.

Erkən orta əsrlərdə də əsas məşğuliyyəti maldarlıq olan türk tayfaları qərbə yürüş etdilər. Həmin tayfaları ümumilikdə *hunlar* adlandırırdılar. Bu köçün siyasi və sosial səbəbləri də var idi. Böyük Hun imperiyasının dağılması əsas siyasi səbəb idi. Əhalinin artımı və tayfalar arasında siyasi çəkişmələr də hunların köç etməsinə böyük təsir göstərdi. Tarixə «Xalqların böyük köçü»nün başlanğıcı kimi düşmüş bu yürüş eramızın IV əsrindən başlayaraq VII əsrə qədər davam etmişdir.

***Hunların köç etməsinin əsas səbəbləri***

| | |
|---|---|
| iqtisadi → | otlaq sahələrinin azalması |
| siyasi → | tayfalar arasında çəkişmələr |
| sosial → | əhalinin sayının artması |

E



7

Hunların böyük bir qismi İdil çayından (Volqa) qərbə doğru yayıldı. Onların təsiri altında alanlar, qotlar və digər tayfalar da Mərkəzi və Qərbi Avropaya köç etdilər. Avropada quldarlıq quruluşu feodal münasibətləri ilə əvəz olundu.

B

**?** «Xalqların böyük köçü»nün başlanması nə üçün hunlarla əlaqələndirilir?

F

Hal-hazırda «hun» sözü dövlət adında işlənir. Macarıstanın ingilis dilində adı Hunqaridir (Hungary). Bu da hunlar ölkəsinin sakinləri mənasını verir.

Hunların digər bir hissəsi Ön Asiya istiqamətində hərəkət edərək Qafqaz dağlarını aşdı. Dərbənd keçidi vasitəsilə Azərbaycana, mənbələrdə deyildiyi kimi, «Odlar ölkəsinə» gəldi və bizim xalqımızın tərkibinə daxil oldu. Böyük bir hun birliyi isə ***Qərbi Türküstan**** ətrafına köçdü.

***Qərbi Hun dövlətinin meydana gəlməsi.*** Qərbə doğru hərəkət edən hunlar Don sahilində alanları məğlub etdilər. Sonra onlar Don çayını keçib Azovətrafı əraziləri, Şimali Qafqazı ələ keçirdilər. Krımda hunlar ostqot tayfaları ilə

D




*Qərbi Hun imperatorluğu (IV əsrin 70-ci illəri)*

---

***Qərbi Türküstan** – indiki Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan, Qazaxıstan və Əfqanıstanın bir hissəsi*



8

üzləşdilər. IV əsrin 70-ci illərində Balamirin başçılığı ilə hunlar Ostqot dövlətinin varlığına son qoydular. Dunay (Tuna) çayının sahillərinə gələn hunlar burada məskunlaşmış digər qot tayfalarını da məğlub edərək Pannoniyada (indiki Macarıstan ərazisinin qərbi) yerləşdilər. Bununla da Cənub-Şərqi Avropanın bir hissəsi hunların tabeliyinə keçdi. Beləliklə, hunlar Avropada öz dövlətlərini yaratdılar. Dövlətin əsasını Balamir qoymuşdur.

C



D

*Hökmdar Atillanın Macarıstanın Budapeşt şəhərində qoyulmuş heykəli*

Avropa mənbələrində Atillanın şəxsiyyəti haqqında yazılır ki, Atilla möhkəm iradə və xarakterə, iti ağıla malik idi. O, düşməninə qarşı amansız, silahdaşları ilə münasibətdə alicənab və xeyirxah olmuşdur.

F

Bu dövlətdə mühüm qərarlar tayfa başçılarının toplantısında verilirdi. *Atillanın** hakimiyyəti dövründə (434—453-cü illər) Hun dövləti qüdrətli imperatorluğa çevrildi. İmperatorluğun sərhədləri şərqdə Volqa çayından qərbdə Reyn çayına, cənubda Balkan yarımadasından şimalda Baltik sahillərinə qədər böyük bir ərazini əhatə edirdi. Bu imperatorluğun ərazisinə müasir Rumıniya, Macarıstan, Avstriya, Çexiya, Slovakiya, Cənubi Rusiya və Almaniyanın bir hissəsi daxil idi.

Atillanın ordusunda hunlarla yanaşı, bir çox tayfa və xalqların döyüşçüləri vuruşurdular. Hər bir tayfanın Atillanın yanında nümayəndəsi var idi. Qərb dövlətlərində yaşayan əhali bu sərkərdəni *«Tanrı qırmancı Atilla»* adlandırırdı.

? «Tanrı qırmancı» anlayışını açıqla. Atillaya bu ad nə üçün verilmişdi? B

***Bizansla münasibətlər.*** Bizans Qərbi Hun imperatorluğu ilə 434-cü ildə bağlanmış barışığın şərtlərini pozur, illik xəracı əskik ödəyir və gecikdirir, qaçqınları himayə edirdi. 447-ci ildə Atilla yenicə təşkil olunmuş ordusu ilə Bizansa yürüş etdi. Yolu

---

**Bir sıra mənbələrdə «Attila» yazılmışdır.*



9



Qərb hunlarının bayrağı

üzərindəki bütün şəhərləri ələ keçirdi və Konstantinopolu mühasirəyə aldı. Bizans imperatoru ölkəni xilas etmək üçün təcili olaraq Atillanın yanına elçi göndərdi, Atillanın tələb etdiyi bütün şərtlərə əməl edəcəyini bildirdi. Elçilər çox ağır şərtlərlə sülh müqaviləsi imzaladılar.

***Katalaun döyüşü.*** Atillanın əsas məqsədlərindən biri Qərbi Roma imperiyasını tabe etmək idi.

451-ci ildə Atillanın 200 minlik ordusu ***Qalliyaya**** doğru irəliləməyə başladı. Hunlar ***Orleana**** çatdılar. Döyüş *Katalaun* ərazisində baş verdi. Qot tarixçisi həmin döyüşü geniş şəkildə təsvir edərək göstərir ki, həmin iyul günündə Katalaun düzənliyində 160 mindən çox hun və romalı həlak oldu. Bu döyüşdə Atilla Qərbi Roma imperiyasını tabe edə bilmədi. 452-ci ildə o, Roma üzərinə yenidən yürüş etdi. Romalılar papa I Leonun başçılığı ilə onun yanına böyük bir elçi heyətini göndərdilər. Papa bildirdi ki, romalılar onun bütün şərtlərini qəbul edir.



Atilla Katalaun döyüşündə

Atilla İtaliyadan zəfərlə qayıtdıqdan sonra İrana – Sasanilər dövləti üzərinə yürüş edib Sasaniləri özündən asılı vəziyyətə salmaq istəyirdi. Lakin o, 453-cü ildə qəflətən vəfat etdi. Atillanın ölümündən sonra ölkədə hakimiyyət onun oğlanları arasında bölündü. Bundan sonra Qərbi Hun imperatorluğu tədricən zəifləməyə

***Qalliya** – müasir Fransanın və bir neçə Qərbi Avropa ölkəsinin ərazisini əhatə edən qədim vilayət*

***Orlean** – Fransada şəhər*



10




D

*Ağ Hun imperatorluğu (IV əsrin sonu – V əsr)*

başladı və ***470-ci ildə*** süqut etdi. Tabe etdiyi xalqların çıxışları da Qərbi Hun dövlətinin süqutunun səbəblərindən biri idi.

***Ağ Hun imperatorluğu.*** Qərbi Türküstan ətrafına köçən hunlar IV əsrin sonlarında burada Ağ Hun dövlətini yaratdılar. Başqa türk tayfalarından fərqli olaraq, Ağ hunlar oturaq həyata daha tez keçmişdilər. Onlar əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olurdular. Ağ hunlar ticarət yollarının üzərində çoxlu şəhərlər salmışdılar. Böyük İpək yolu Ağ Hun dövlətinin ərazisindən keçirdi. Bu yolun bir hissəsi Ağ hunların nəzarəti altında idi. Ağ Hun dövləti öz ərazisini getdikcə genişləndirirdi. Onun torpaqlarına Mərkəzi Asiyanın ən qədim vilayətlərindən biri olan Xarəzm, Əfqanıstan, Şimal-Qərbi Hindistanın bir hissəsi daxil idi. V əsrdə



*Ağsuvar xan*



*Mihiraqula xan*

D


11



Ağ Hun dövlətinin bayrağı

hakimiyyətdə olan Eftal xanın adı ilə bu dövlət Eftallılar dövləti kimi də tanınırdı. Ölkənin paytaxtı Sakala (hazırda Pakistanda yerləşən Siyalkot) şəhəri idi.

Ağ hunların qərb qonşusu və əsas rəqibi Sasani—İran imperiyası idi. 430-cu ildə Ağsuvar xanın hakimiyyəti dövründə Ağ hunlar Sasanilərə sarsıdıcı zərbələr endirdilər. Sasanilər Ağ Hun imperatorluğundan asılı vəziyyətə salındı.

*Mihiraqula xanın* hakimiyyəti dövründə Ağ Hun imperatorluğu öz qüdrətinin ən yüksək zirvəsinə çatdı. Bu dövlət yaxşı silahlanmış və yüksək təlim görmüş nizami orduya malik idi. Ağ hunların döyüş filləri də var idi. Onlar Hindistan üzərinə aramsız yürüşlər edirdilər. Nəhayət, Şimal-Qərbi Hindistan tamamilə Ağ hunlara tabe oldu. Zaman keçdikcə geniş ərazilərə malik olan imperatorluğu idarə etmək çətinləşirdi.

**?** Xarəzm haqqında əlavə məlumat toplayıb müzakirə edin.

VI əsrin ortalarından başlayaraq Ağ Hun dövləti zəifləməyə başladı. Ayrı-ayrı bölgələrdə mərkəzi hakimiyyətə qarşı çıxışlar artdı. Müstəqil xaqanlıqlar meydana gəldi. Bu zaman meydana gəlmiş yeni bir türk dövləti — *Göytürk dövləti* ilə toqquşmalar başlandı. ***567-ci ildə*** Göytürk xaqanı İstəmi xanla Sasani şahı Xosrov Ənuşirəvanın birləşmiş qüvvələri Ağ hunlar üzərinə yürüşə keçdilər. Hunlar məğlub oldular. Nəticədə Ağ Hun imperatorluğu dağıldı. Onun torpaqları Göytürklərlə Sasanilər arasında bölüşdürüldü. Ağ Hun imperatorluğu dağıldıqdan sonra Xarəzm Göytürklərin tabeliyinə keçdi.

1. *Mətndə adı çəkilən coğrafi yerləri dəftərinə qeyd et və onların yerini xəritədə göstər.*
2. *Atilla və Ağsuvar xanı müqayisə et.*
3. *Ağ Hun və Qərbi Hun imperatorluqlarını müqayisə et.*
4. *«Xalqların böyük köçü» haqqında təqdimat hazırla.*


**12**

**A. Motivasiya.** Bu mərhələ şagirdlərin fəallaşdırılmasına, araşdırılacaq mövzuya marağın artırılmasına imkan açır. Şagird dərslikdəki A blokuna daxil olan materiallarla tanış olarkən motivləşir, sanki mexanizm kimi işə salınır.

**B. Araşdırma məqsədilə verilmiş sual və tapşırıqlar.** Maraq yaradılan hadisələrin araşdırılmasına yönəlmiş tədqiqat xarakterli sual və tapşırıqlardan ibarətdir. Bu məqsədlə hər hansı bir hadisənin başvermə səbəbləri araşdırılaraq, şagirdlərin müzakirəsinə verilməsi nəzərdə tutulur. Standartda nəzərdə tutulan əsas bilik və bacarıqların hansı səviyyədə reallaşdırılmasını müəyyənləşdirməyə xidmət edir. Bu tapşırıqlardan tədqiqatın aparılması mərhələsində, ev tapşırıqlarının verilməsində istifadə etmək olar.

**C. Yeni biliklər.** Mövzu ilə bağlı izahatlar, dərsin əsas məzmunu dərsliyin bu hissəsində verilir.

**D. Xəritə və şəkillər.** Xəritənin köməyi ilə baş vermiş dəyişiklikləri, eləcə də ölkələrin ərazilərini müəyyən etməkdə yardımçıdır. Dövrün şəxsiyyətlərinin şəkilləri və bu kimi digər şəkillər mövzu haqqında tam təsəvvürün formalaşması üçün imkanlar açan vasitədir.

**E. Sxem, cədvəl və illüstrasiya.** Tarix dərslərində ən maraqlı məqamlardan biridir. Şagird öyrəndiyi dövr və hadisəni sxem, cədvəl və illüstrasiyanın köməyi ilə tam təsvir edir.

**F. Mənbələr və məlumatlar.** Müxtəlif hadisə və proseslərə aid mənbələr, yazılmış məlumatlar nəzərdə tutulur.

**G. Mövzunun sonunda verilən tapşırıqlar**

Müəllim üçün hazırlanmış metodik vəsaitdə dərslərin reallaşdırılması, planlaşma, düzgün strategiya, standartlardan çıxan məqsəd, məqsədəuyğun meyarlar öz əksini tapmışdır. Siz bütün bunlarla yanaşı, standartların şərti ilə tanış olacaq, inteqrasiya imkanları haqqında məlumatlanacaqsınız.

Hər bir mövzunun tədrisi, onun tətbiqi imkanları metodik vəsaitdə tövsiyələr şəklində öz əksini tapır. Bu vəsait bir növ sizə istiqamət vermək üçün tərtib olunduğundan işinizin səmərəli təşkili üçün yardımçı rol oynayacaqdır.

Metodik vəsaitdə verilmiş dərs nümunələri, hər bir mövzunun reallaşdırılmasının izahı tövsiyə məqsədi daşıyır. Unutmayın ki, vəsaitdə təqdim olunan heç bir dərs nümunəsi mütləq deyildir. Siz işinizdə sərbəst olsanız da bu tövsiyələr əsasında daha səmərəli dərslər qurmaq imkanına malik olacaqsınız.

VII sinif «Ümumi tarix» fənn kurikulumunun standartlarını nəzərə almaqla şagirdlərinizə bilik və bacarıq verməkdə yaradıcı imkanlarınızdan səmərəli istifadə edin. Mövzuların tədrisi zamanı sinfinizin və məktəbinizin real şəraitinə uyğun strategiya müəyyənləşdirsəniz fəaliyyətiniz daha məqsədyönlü olar. Ümid edirik ki, səmərəli və məqsədyönlü fəaliyyətiniz üçün hazırlanmış bu metodik vəsait bir mayak rolu oynayacaqdır.

Müəllim üçün metodik vəsaitə daxil edilən materiallar:
- Peşəkarlığı artırmaq üçün tövsiyələr;
- Şagirdlərin öyrənməsini təmin etmə;
- VII sinif «Ümumi tarix» fənni üzrə məzmun standartları;
- Standartların şərhi;
- Tarix dərslərində inteqrasiya imkanları;
- Düzgün seçilmiş strategiya;
- Şagirdlərin qruplara bölünməsi üsulları;
- Planlaşdırılmanın aparılmasına dair tövsiyələr;
- Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr;
- Tematik planlaşdırma;
- Mövzuların reallaşdırılması üçün metodik tövsiyələr;
- Gündəlik açıq dərs nümunələri;
- Test nümunələri;
- İstifadə edilmiş və müəllimin istifadə edə biləcəyi mənbələr.

## PEŞƏKARLIĞI ARTIRMAQ ÜÇÜN TÖVSİYƏ

Müasir dövrdə bütün sahələrdə inkişaf nəzərəçarpacaq qədər görünməkdədir. Bu inkişaf təhsil sahəsində də öz əksini tapmaqdadır. Yeniliklərin qəbulu və tətbiqi, düzgün strategiya və planlaşdırma, nəticəyə gedən yolun düzgün qiymətləndirilməsi müəllimin qarşısına yeni öhdəliklər və tələblər qoyur. Müəllim birtərəfli inkişaf etmir, şagirdlərlə birgə daim axtarışdadır. O özünün peşəkar inkişafı üçün müəyyən addımlar atmalı, düzgün planlaşdırmalar aparmalıdır. Bunun üçün öz üzərində çalışmalı, araşdırmalar etməli, özü-özünə hesabat verməlidir. Bunun üçün digər müəllimlərlə daim əməkdaşlıq etmək, fikirlərinizi həmkarlarınızla bölüşmək zəruridir. Hədəfə çatmaq üçün görəcəyiniz işləri müəyyənləşdirib, səmərə verəcək amilləri əvvəlcədən qeyd edin. Dərs zamanı tətbiq etmək istədiyiniz yenilikləri mütəxəssis və müəllimlərlə bölüşün. İlk növbədə, tədris etdiyiniz fənnin reallaşdırılması üçün seçilmiş mövzuları mükəmməl bilməyiniz vacibdir. Yaxşı bilmədiyiniz mövzu yaxşı tədris oluna bilməz. Müəllim mütləq sinifdən-sinfə keçən şagirdlərin inkişaf etməsini və bu inkişaf üçün qoyulan tələbləri bilməli və dərsləri onların səviyyəsinə uyğun tədris etməlidir. Fənlərarası əlaqələr qurmaq üçün digər fənn müəllimləri ilə əməkdaşlıq etmək çox vacibdir. Mövzuları bilməklə yanaşı, şagirdləri istiqamətləndirməyi bacarmaq da şərtdir. Pedaqoji yanaşmalar bütün fənlər üçün eyni dərəcədə keçərli deyildir. Hər bir fənnin spesifik xüsusiyyətləri vardır. Riyaziyyat müəlliminin pedaqoji yanaşması tarix müəlliminin yanaşması ilə eyni ola bilməz. Tarixdə mövzu və müzakirələr əsasdır. Müəllim dərsin gedişində düzgün sual qoyma bacarığına malik olmalı, şagirddən istədiyini almaq üçün ona aydın olan fikirlər səsləndirməli, tapşırıqlar verib, təfəkkürünü inkişaf etdirməlidir.

Peşəkarlığınızla seçilmək, düzgün tədris və təhsil mühiti yaratmaq istəyirsinizsə, yeni islahatı, yəni kurikulumu, onun qiymətləndirilməsini daha dəqiq reallaşdırmaq imkanına sahib olmalısınız. Öz üzərinizdə çalışıb özünüinkişafla məşğul olarkən şagirdlərin tələblərini, eləcə də maraqlarını nəzərə almağı unutmayın. Çünki daha emosional müasir gənclik əhatəli biliklərə malikdir. Çünki İnternetə çıxış imkanları olan, daim yeni informasiya əldə edən bugünkü şagird fərqli dərs görmək istəyir. Yorucu və cansıxıcı dərslər onu stimuldan salır. Bu baxımdan dərsin gedişi cəlbedici, araşdırıcı olarsa, bu zaman müəyyən bacarıqlar nümayiş etdirən şagird sizin peşəkarlığınızdan razı qalar.

Əgər işinizin səmərəli olmasını istəyirsinizsə, məqsədinizə çatmaqdan ötrü düzgün standartlar seçməyə diqqət yetirin. Düzgün seçilməyən standart məqsədin reallaşdırılmasına maneə olur, nəticələr arzuolunmaz alınır. Yaxud da məqsədin standarta uyğun qoyulmaması dərsin səmərəsizliyindən xəbər verir. Standart və ona uyğun qoyulan məqsəd sonda şagirdin məqsədəuyğun meyarlarla qiymətləndirilməsinə gətirib çıxarır. Bu gün hansı məqsədi reallaşdırdın və necə qiymətləndirdin. Qiymətləndirmə dərsin bütün mərhələlərində ola bilər. Əsas odur ki, şagirddə formalaşdırılan bacarığın səviyyəsi müəyyən edilsin. Başqa sözlə, şagird bu gün nə əldə etdi və nəyə nail oldu.

Siz öz üzərinizdə çalışdıqca işinizi təhlil etmək bacarığına da malik olmalısınız. Bir növ bu özünüqiymətləndirmədir. Mən bu gün nə etdim? Nəyi əldə etdim? Şagirdlər hansı bilik və bacarıqlara yiyələndilər? Keçən gündən fərqli olan nə idi? Nələri etməli idim? Nələri etdim? Nələri etmədim? Sonrakı dərslərdə nələri etməliyəm? Bu kimi suallara cavab tapmağa çalışmanız özünüzü və dərsinizi təhlil etməkdə yardımçınız ola bilər. Aradakı boşluqları doldurmaq üçün başqalarının təcrübəsindən istifadə etmək, problemlərin aradan qaldırılması istiqamətində onlarla müzakirələr aparıb məsləhətləşmək lazımdır. Dərs mühiti 45 dəqiqələrlə yekunlaşmır. Digər fənn müəllimləri ilə əməkdaşlıq da yetərli deyil. Siz valideynlə əməkdaşlığı da iş planınıza daxil etməlisiniz. Şagird valideynlə daim təmasda olduğundan problemləri olan şagirdlərin valideynlərini iş prosesinə cəlb edir. Şagirdin inkişafı üçün birgə əməkdaşlıq planları qurun. Lazım gələrsə bir psixoloq kimi araşdırma aparın. Əsas odur ki, dərsinizin keyfiyyətinin yüksəldilməsindən ötrü irəliləyişə nail olasınız. Təbii ki, bu, səmərəli şəkildə reallaşdırılmalıdır.

Müxtəlif resurslarla, maraqlı motivasiya ilə, eləcə də tədqiqat işi ilə əhatə olunmuş hər dərs keyfiyyətdən xəbər vermir. Siz dərs mühitinin sağlam şəkildə idarə olunmasını təşkil etməyə çalışmalısınız. Bəzən maraqlı görüntülü slaydlar, gözəl tərtibatlı iş vərəqi və s. də hər hansı bir dərsin səmərəli olmasına şərait yaratmır. Müəllimin verdiyi tapşırıqlar, qrup bölgüsü, fərdi iş və s. tam bir qarmaqarışıq halında ortaya çıxır. Dərsin sonunda şagird heç bir nəticəyə nail olmadan sinfi tərk edir. Bu baxımdan planlaşmanın düzgün aparılması ilə yanaşı, düzgün idarəçilik bacarığınız sizə yardımçı ola bilər.

Çalışın dərsi başlayarkən tətbiq etdiyiniz müəyyən qaydalar vərdişə çevrilsin. Qrup bölgüsü, müzakirə və s. məqamlarda səs-küyün minimum səviyyədə olması

üçün «qızıl qaydalar» qoymağı unutmayın. Hətta bu qaydaların qrupun qiymətləndirilməsinə təsirini də vurğulayın. Şagirdlərin üzərinə bəzi məsuliyyətlər qoyun. Sinfin idarə olunmasında onlardan istifadə etmək olduqca səmərə verir. Şagird ona güvənən müəllimin etimadını doğrultmağa çalışır. Yaş xüsusiyyətinə görə daim özünü təsdiq etməyə səy göstərən şagirdə etimad göstərsəniz bu, işinizdə keyfiyyət göstəricisi ola bilər.

Bütün bunlarla yanaşı, diqqəti daim bütün sinfə yönəltməlisiniz. Göz təması sizin əsas silahınızdır. Şagird ona baxan nəzərləri hiss edir, kənarda qalmadığını duyur və özünütəsdiqə çalışır.

Sakit və anlaşılan səs tonu işinizi daha da rahatlaşdırar. Dərsin gedişi zamanı lazım gələrsə, partalar arasında gəzişin. Yönləndirici suallar verməklə və açar sözlərdən istifadə etməklə şagirdlərə dərsi mənimsəməkdə yardımçı olun. Şagirdin daim ağır yük altında qalması dərsin səmərəsini itirə bilər. Hər bir şagirdə dərslərin gedişi zamanı adları ilə müraciət etməyə çalışın. Qaydaları pozanlar olarsa, dostlarının düzgün olmayan davranışını şagirdlər özləri müəyyən etsinlər və bu, qiymətləndirmə zamanı nəzərə alınsın. Amma hər hansı bir səhv hərəkətin üzərində dəqiqələrlə dayanıb dərsin gedişinə mane olmayın. Sizin səhv hərəkət barədə uzun-uzadı oxuduğunuz «mühazirə» şagirdlərə yorucu görünə bilər. Bu baxımdan qaydaları tez-tez xatırlatmanız daha səmərəli nəticə verə bilər.

Vaxtdan düzgün və səmərəli istifadə etməyə çalışın. Vaxtın səmərəlilik dəyərini bütün sinif qiymətləndirməlidir. Təkcə özünüzü düşünməyin. Bəzən belə hallar da olur: mən əla dərs keçdim, hər şeyi dedim, tapşırıqlar verdim, refleksiya etdim və s. Bu o demək deyil ki, dərs çox səmərəli oldu. Siz dərsin səmərəliliyinə şagirdlərin gözü ilə baxın. Bu gün şagird nə qazandı? Onda hansı bilik və bacarıqlar formalaşdı və s.

Siz daim öz üzərinizdə çalışsanız, yeniliklərdən xəbərdar olsanız, təcrübələrinizi bölüşsəniz, başqalarının təcrübəsindən istifadə etsəniz, peşəkarlığınız artar. Sizin işinizin peşəkarı olmağınız isə yetişən bir nəslin inkişafı deməkdir.

## ŞAGİRDLƏRİN ÖYRƏNMƏSİNİ TƏMİNETMƏ

Təhsil istiqamətində atılan bütün addımlar şagirdlərin inkişafı, onların gələcəkdə şəxsiyyət kimi yetişməsi naminədir. Şagird şəxsiyyət kimi həyata inamlı atılmalı, müəyyən bilik və bacarıqlara sahiblənməlidir. Bu baxımdan siz müəllimlərin üzərinə çox böyük öhdəliklər düşür. Apardığınız planlaşmalar çalışdığınız məktəbin imkanlarına və sinifdəki şagirdlərin yaş xüsusiyyətlərinə uyğunlaşdırılmalıdır. Onların öyrənmə tərzlərinin nəzərə alınması vacib məqamlardan biridir. Yəqin ki, hər biriniz dərs dediyiniz siniflərdə müxtəlif xarakterə və təfəkkürə malik şagirdlərlə qarşılaşırsınız. Onların müxtəlif xüsusiyyətləri müxtəlif öyrənmə tərzindən xəbər verir. Bəs necə etməliyik ki, dərs müxtəlif öyrənmə tərzinə malik olan şagirdlərin maraqlarına uyğun reallaşsın? Kurikulumun tələblərindən biri fəal-interaktiv təlimin reallaşdırılmasıdır. Bu işin həyata keçirilməsində müxtəlif təlim

üsul və formaları köməyimizə çatır. Bəzən müəllimlər özlərinin öyrənmə üsulunu şagirdlərə tətbiq edirlər. Bu tətbiqetmə çox zaman səmərə vermir. Əldə olunan nəticə yetərsiz olur. Siz şagirdlərinizin xüsusiyyətlərini və öyrənmə tərzlərini müəyyən etməklə onları lazımi istiqamətə yönləndirə bilərsiniz. Müxtəlif öyrənmə tərzləri vardır ki, bunlardan bəziləri ilə tanış olmanızı tövsiyə edirik.

***Əyani öyrənmə tərzi*** – bəzi şagirdlər əyaniliyə üstünlük verir, gözlə görünən hər şeyi daha yaxşı qavrayır və tapşırıqların tətbiqi onlara asan gəlir. Müxtəlif şəkillər, xəritələr, miniatürlər, sxemlər, portretlər, diaqramlar, nümayişlər, paylama materialları, filmlər, flipçartlar və s. sizə bu işdə yardımçı olacaq. Belə şagirdlər çox zaman verilən tapşırığı özü oxumağa üstünlük verir. Yaxud da kiminsə icrasını reallaşdırdığı tapşırığına baxmaqla o, dərsi rahatlıqla mənimsəyir.

***Eşidərək öyrənmə tərzi*** – bu cür şagirdlər dinləyərək qavramağa malik olanlardır. Onların istənilən tapşırığı icra etmələri üçün müəllimin təlimatına qulaq asmaları vacibdir. Dərsin təhlili, tapşırıqların təqdimatı, müzakirələr belə şagirdlərin dərsi öyrənməsi üçün vasitə hesab edilir.

Siz müxtəlif öyrənmə tərzinə malik olan şagirdləri müəyyənləşdirməkdən ötrü şagirdlərlə diqqətli olmalı və müşahidələr aparmalısınız. Bəzi məqamları da diqqətdən qaçırmamaq tövsiyə olunur. Məsələn, əyani öyrənmə tərzinə malik olan şagirdlər sürətlə danışır, səbirsiz olur, başqalarının sözünü kəsirlər. Onlar danışarkən obrazlı danışır, hadisələri tam təsvir edərək sanki əyanilik yaradırlar. Həmçinin belə şagirdlər görüntülü dərs prosesini maraqla izləyir, tapşırıqların icrası zamanı əyaniliyə üstünlük verirlər.

Bu cür xüsusiyyətlərə diqqət yetirsəniz siz şagirdlərinizdən kimlərin əyani öyrənənlər olduqlarını seçə bilərsiniz. İşinizi bu meyarlar əsasında qursanız həm peşəkarlığınız artar, həm də keçdiyiniz dərsin keyfiyyəti yüksələr.

## VII SİNİF «ÜMUMİ TARİX» FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

***VII sinfin sonunda şagird:***

- tarixi faktları davametmə müddətinə görə fərqləndirir, onların xronoloji ardıcıllığını və sinxronluğunu müəyyənləşdirir;
- xalqların və dövlətlərin ərazi məkanında baş verən dəyişiklikləri xəritə əsasında izah edir;
- erkən feodal dövlətlərin idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini müqayisə edir;
- dövlət və mədəniyyətlərin inkişafında tarixi şəxsiyyətlərin rolunu izah edir;
- erkən orta əsrlərdə mədəniyyətlərin inkişaf istiqamətlərini və xüsusiyyətlərini izah edir.

### *Məzmun xətləri üzrə əsas və alt standartlar*

**1. Tarixi zaman**

***Şagird:***

1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

**2. Tarixi məkan**

***Şagird:***

2.1. Məkanda baş verən tarixi hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

**3. Dövlət**

***Şagird:***

3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.

3.1.1. Feodal dövlətlərin (Çin, Sasanilər, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqo-

yunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**4. Şəxsiyyət**

***Şagird:***

4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Atilla, Xlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**5. Mədəniyyət**

***Şagird:***

5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.

5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

## MƏZMUN STANDARTLARININ ŞƏRHİ

| Standartlar | Şərhi | Açar sözlər |
|---|---|---|
| **1. Tarixi zaman** | | |
| **1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir** | | |
| 1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir. | Mühüm tarixi faktları mənbələrin köməyi ilə digər tarixi faktlardan ayıraraq, cəmiyyətin, eləcə də xalqların həyatında mühüm olan faktların tarixini, müddətini müəyyənləşdirərək davametmə müddətinə görə birini digərindən əsaslı surətdə fərqləndirmə. | Tarixi fakt, fərqləndirmə, müəyyənləşdirmə. |
| 1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir. | Ayrı-ayrı ölkələrdə baş vermiş müxtəlif hadisələrin zamanını müəyyən edərək onların yaranma ilini dəqiqləşdirmə. Baş vermiş tarixi fakt və hadisələrin sinxronluğunu, yəni eyniliyini müəyyənləşdirilməsi. | Sinxron, təzahür, zaman. |
| 1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir. | Zamanın ardıcıl düzülüşünə nəzarət edərək tarixi faktların, hadisə və proseslərin əvvəldən sona, yəni keçmişdən bu günümüzədək düzülməsi. Məsələn, eramızdan əvvəl baş vermiş hadisədən başladıqda, davamlı olaraq eramıza keçid edib sıralama, yaxud da düzərək sistemləşdirilməsi. | Xronologiya, fakt, zaman ardıcıllığı, düzgün düzülüş, sistemləşdirmə. |
| **2. Tarixi məkan** | | |
| **2.1. Məkanda baş verən tarixi hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir** | | |
| 2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir. | Quldarlıq münasibətlərinin sona yetməsi, yeni torpaq mülkiyyəti formasının yaranması, mülkün sahibinin feodal, bu quruluşun feodalizm adlandırılması. Feodal münasibətlərinin yaranmasını və inkişafını, dövlətlərin və xalqların həyatında baş verən dəyişiklikləri ərazilər baxımından, yəni sərhədlərin, eləcə də yerləşmə məkanının dəyişilməsi ilə əlaqələndirilməsi. | Feodal, mülk, geosiyasi, məkan, feodalizm, sərhəd, yerləşmə məkanı. |
| 2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir. | Yaranmış olan dövlətlərin və xalqların həyatında baş vermiş dəyişikliklər, müharibə və işğallar zamanı dövlətlərin ərazisinin dəyişməsini xəritələrdə göstərərək digər mənbələrdəki məlumatlarla əsaslandırır. Xalqların köçü, yaxud köçürmə və sürgünlər zamanı xalqların yer dəyişməsinin, məkan baxımından dəyişikliklərin xəritələrdəki məlumatlar əsasında təhlil edilməsi. | Xalqların köçü, köçürmə siyasəti, müharibə, işğal. |

| Standartlar | Şərhi | Açar sözlər |
|---|---|---|
| **3. Dövlət** | | |
| **3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir** | | |
| 3.1.1. Feodal dövlətlərin (Çin, Sasanilər, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir. | Adları nəzərdə tutulan feodal dövlətlərin, Çin, Sasanilər, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya kimi dövlətlərin yaranma şəraiti, idarəçilik sistemi, baş verən yeni dəyişikliklər, sosial-iqtisadi münasibətlərin, eləcə də siyasi münasibətlərin tənzimlənməsi, qarşılıqlı əlaqəsinin şərh edilməsi. | İdarəçilik, sosial-iqtisadi, siyasi münasibətlər, feodal dövlətlər. |
| 3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır. | Feodal dövlətlərin yaranmasının və formalaşmasının, idarəçilik sisteminin, torpaq quruluşunun oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramların hazırlanması. | Oxşar və fərqli cəhətlər, feodalizm, torpaq quruluşu, diaqram, cədvəl. |
| **4. Şəxsiyyət** | | |
| **4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir** | | |
| 4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Atilla, Xlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir. | Yaranmış dövlətlərin və mövcud olmuş xalqların həyatında tarixi şəxsiyyətlərin rolu, məsələn, Atillanın və Bumın xaqanın Türk xalqları tarixindəki izi, Məhəmməd peyğəmbərin İslam dini ideyası altında bəşər tarixində kəskin dini-ideoloji dəyişiklik etməsi, eləcə də ərəb qəbilələrini bir dövlət halında birləşdirməsi, həmçinin digər tarixi şəxsiyyətlərin, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan və başqalarının tarixdəki rolunun izah edilməsi. | Şəxsiyyət, ideologiya, tarixdəki iz və rol, İslam dini, bəşər tarixi. |

| Standartlar | Şərhi | Açar sözlər |
|---|---|---|
| 4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır. | Dövlətlərin yaranması və inkişafı, həmçinin elm və mədəniyyət tarixində iz qoymuş tarixi şəxsiyyətlər barədə müxtəlif mənbələrdən məlumat toplanılması və təqdimatların hazırlanması. | Tarixdə iz, tarixi şəxsiyyətlər, inkişaf, məşhur, təqdimat. |
| **5. Mədəniyyət** | | |
| **5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir** | | |
| 5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir. | Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini müəyyən edərək Şərq mədəniyyətinin daha qədim olması, şumer, türk və islam mədəniyyətindən qaynaqlanması. Şərq mədəniyyətinin fərqli cəhətləri, Şərqin elm və mədəniyyətin beşiyi olması, eləcə də Avropa mədəniyyətinin özünəməxsus keyfiyyətləri, yunan-Roma mədəniyyəti, xristian dini-ideoloji baxışları əsasında formalaşan mədəniyyətin inkişaf xüsusiyyətlərinin araşdırılaraq izah edilməsi. | Şumer, türk, İslam, memarlıq, elm, mədəniyyət, yunan-Roma mədəniyyəti, xristian mədəniyyəti. |
| 5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir. | Şərqin qədim mədəniyyət mərkəzi olduğunu izah edərək şərq mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələri, memarlıq və incəsənət, elm, İslam mədəniyyəti və bu kimi keyfiyyətlərin müəyyən edilməsi. | Elm, incəsənət, memarlıq, İslam, şərq mədəniyyəti. |
| 5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır. | Müxtəlif mədəniyyətlər haqqında, həmçinin şərq və qərb mədəniyyətlərinin inkişafı ilə bağlı materialları araşdıraraq, yazılı və maddi mənbələrə, eləcə də digər informasiyalara istinad edilərək materialların toplanılması. | Yazılı və maddi mənbələr, şərq və qərb mədəniyyəti, inkişaf. |

## «ÜMUMİ TARİX» FƏNNİ ÜZRƏ FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYA

Fəal-interaktiv dərsdən danışarkən inteqrasiya imkanlarından istifadə etməmək düzgün olmaz. Bu baxımdan inteqrasiya imkanlarından yetərincə istifadə etmək, onu məqsədəuyğun reallaşdırmaq lazımdır. «Ümumi təhsil pilləsində dövlət standartları və proqramları (kurikulumlar)» sənədi və onun əsasında hazırlanmış «Ümumi tarix» kurikulumu fəndaxili və fənlərarası əlaqələrin geniş tətbiqini nəzərdə tutmuşdur. Müəllimin planlaşma apararkən inteqrasiya imkanlarını nəzərdən qaçırmaması əsas şərtdir. Bəzən inteqrasiya imkanları planlaşma zamanı yanlış şəkildə ifadə olunur. Yaxud planlaşmada öz əksini tapsa da, sinifdə reallaşmamış qalır. Məsələn, müəllim dərsə hazırlaşarkən gündəlik plan nümunəsini hazırlayır. Plana görə reallaşdıracağı standarta mövzu müəyyən edir. Sonra üsul, forma və inteqrasiya imkanlarını müəyyənləşdirir. Bu zaman çox vaxt olur ki, müəllim yalnız fənn kurikulumunda yerləşdirilən inteqrasiya cədvəlindəki inteqrasiya olunacaq fənlərin adını yazmaqla kifayətlənir. 6–7 fənnin adını inteqrasiya cədvəlində olduğu kimi yazır. Lakin dərs prosesində bir dəfə də olsun bu imkandan istifadə etmir. Bəs yazılan bu inteqrasiyalar nəyi ifadə edir? Dərs prosesində fənlərarası inteqrasiyanın reallaşdırılması necə həyata keçirilir? Yaxud bu proses necə baş verməlidir? Təbii ki, bu istiqamətdə müxtəlif suallar yarana bilər. Əslində, inteqrasiya imkanlarından istifadə dərsin səmərəli həyata keçirilməsində bir vasitədir. Şagird bir dərsdə digər fənlərə inteqrasiya etmiş olur.

Ənənəvi təlim zamanı inteqrasiya cox zaman biliklərin əlaqələndirilməsi formasında həyata keçirilirdi. Müəllim dərsi izah edərkən bir fənnin mövzusunu digər fəndə keçilən mövzu ilə əlaqələndirir, ondan sitatlar gətirir, yaxud da şagirdlərdən bu barədə bildiklərini soruşurdu. Kurikulum islahatında imkanlar bir qədər fərqlidir.

«Ümumi tarix» fənn kurikulumunda inteqrativlik fəndaxili əlaqələr (üfüqi inteqrasiya) və fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrasiya pillələr üzrə məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Sizin seçdiyiniz standartın reallaşdırılmasında ona uyğun digər fənnin standartının reallaşdırılması nəzərdə tutulur. Bu zaman müəllim dərsin gedişində hansı inteqrasiya imkanını reallaşdıra biləcəksə, gündəlik planlaşma zamanı onu qeyd etsə, daha düzgün olar. Siz inteqrasiya imkanında sərbəstsiniz. Bizim tövsiyə etdiyimiz inteqrasiya imkanlarından fərqli inteqrasiyalar reallaşdıra bilərsiniz. Bu zaman siz digər fənlərin standartları ilə yaxından tanış olmalı, uyğun olanını seçməlisiniz. Unutmayın ki, inteqrativ standartlar şagirdin sinfinə uyğun olmalıdır. Məsələn, siz standartları araşdırarkən VII sinif üçün 10-cu sinfin standartını inteqrasiya kimi seçə bilməzsiniz. Yəni yaş xüsusiyyətləri mütləq öz əksini tapmalıdır.

VII sinif «Ümumi tarix» fənni üzrə aşağıdakı inteqrasiya cədvəli köməyinizə çata bilər:

| Standart | İnteqrasiya imkanları |
|---|---|
| 1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir. | Az-t. 1.1.1., 1.1.2.; B. 1.1.1.; İnf. 1.1.1.; C. 1.1.1. |
| 1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir. | Az-t. 1.1.2. |
| 1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir. | Az-t. 1.1.1., 1.1.2., 1.2.1. |
| 2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir. | Az-d. 1.2.2.; X-d. 2.1.3.; Az-t. 2.1.1. |
| 2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir. | İnf. 3.2.3.; C. 3.1.1.; Az-t. 2.1.2. |
| 3.1.1. Feodal dövlətlərin (Çin, Sasanilər, Qafqaz, Ağ Hun, Qərbi Hun, Göytürk, Uyğur, Xəzər, Avar, Bulqar, Hindistan, Ərəb xilafəti, Frank, Bizans, Slavyan dövlətləri, Oğuz, Səlcuq, Samani, Qaraxanlı, Qəznəvi, Xarəzmşahlar, Monqol, Osmanlı, Qızıl Ordu, Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Böyük Moğol, Rusiya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya) yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir. | H-b. 2.1.1., 2.1.2., 2.2.1.; Az-t. 3.1.2., 3.1.3. |
| 3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır. | İnf. 2.1.2.; Az-t. 3.1.3. |
| 4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Atilla, Xlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir. | Mus. 1.1.1.; Az-d. 2.2.3.; Az-t. 4.1.1. |
| 4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır. | Az-t. 4.1.2.; İnf. 3.2.3.; T-i. 1.3.1. |
| 5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir. | İnf. 3.2.1., 3.2.3.; X-d.2.1.3.; Az-t. 5.1.1. |
| 5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir. | Az-t. 5.1.2.; X-d. 2.1.3. |
| 5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır. | Az-t. 5.1.3.; Az-d. 3.1.2.; Ə. 3.1.2. |

*İnteqrasiya olunmuş fənlərin tam adı*

Azərbaycan tarixi – Az-t.
Azərbaycan dili – Az-d.
Ədəbiyyat – Ə.
İnformatika – İnf.
Xarici dil – X-d.
Təsviri incəsənət – T-i.
Musiqi – Mus.
Kimya – K.
Biologiya – B.
Coğrafiya – C.
Həyat bilgisi – H-b.

# DÜZGÜN SEÇİLMİŞ STRATEGİYA

Şagirdlərdə bilik və bacarıqları formalaşdırmaq üçün müxtəlif vasitələrdən istifadə etmək lazım gəlir. Bu vasitələrdən biri də təlim forma və üsullarının düzgün seçilməsidir. Dərsin gedişində düzgün tətbiq olunan üsul, eləcə də forma keyfiyyətin yüksəldilməsi üçündür. Dövr öz sözünü deyir. Artıq şagirdlər bütün dərs boyu müəllimin mühazirəsini dinləmək istəmir. Ənənəvi dərs onlar üçün maraqsız görünür. Şagirdlərin nəyi isə axtarıb tapmaq, araşdırmaq istəyi təlim mühitinə münasibəti dəyişməyə imkan verir. Fəal dərs şagird üçün maraq kəsb edir. O, əməkdaşlığa can atır, bəzən özünü fərdi göstərməyə çalışır, qrup lideri olmaq istəyi isə onun təkmilləşməsinə kömək edir. Müəllimin strategiyasında əsas hədəf məqsədə çatmaqdır. Bununla yanaşı, şagirdin maraqlarını unutmamaq vacib şərtdir. Dərs şagirdlərlə birgə əməkdaşlıqda səmərəli nəticə verir. Şagird müəllimin məqsədlərinin önündə durmalı, hər hansı bir standartın reallaşdırılması onun imkanları daxilində qurulmalıdır. Təlimə rəng qatmaq istəyən müəllim müxtəlif formalardan istifadə etməlidir. O, dərsi maraqlı keçməli, şagirdin şəxsiyyət kimi formalaşmasını istiqamətləndirməlidir.

Bəzən yeni islahatdan xəbərsiz olanlar belə bir ifadə işlədirlər: Kurikulum islahatına görə ancaq qruplarda iş aparmaq lazımdır. Əslində, bu fikir yanlışdır. Qruplarda daim iş aparmaq şagirdləri və müəllimləri yora bilər. Kurikulum islahatı şagirdin inkişafına, şəxsiyyət kimi formalaşmasına, ən əsası isə nəticəyə çatmağa xidmət edir. Bu işdə fəal-interaktiv dərs ən real köməkçidir.

Bildiyiniz kimi, təlimin 4 forması var: kollektivlə iş, qruplarla iş, cütlərlə iş və fərdi iş forması. Standartları reallaşdırarkən daha səmərəli formalardan istifadə etmək müəllimlərin öz ixtiyarındadır. Hər 4 forma özünəməxsus üstünlükləri ilə şagirdlərin mövzunu mənimsəməsinə kömək edir. İşin səmərəli təşkili üçün təlim formalarından istifadə əsasdır. Bu formalar həm də şagirdlərə müəyyən vərdişlər aşılayır. Təlim formalarının formalaşdırdığı vərdişlərə nəzər salaq:

***Kollektivlə iş*** – Bu iş zamanı şagirdlərlə kollektiv iş aparılır. Bütün sinif hər hansı bir problemin həllində birgə çalışır. Bu iş forması kollektiv fəaliyyətə alışmaq bacarığının əsasını qoyur.

***Qruplarla iş*** – Hər hansı araşdırılmasına ehtiyac olan problem qrupların bölgüsü ilə reallaşdırılır. Qruplarda iş səmərəli təşkil olunur, şagirdlər bu zaman müzakirələr aparır, fikir mübadiləsi edir, birgə əmək nəticəsində ortaq qərarlara əsaslanan işlər görürlər. Qrup işi zamanı tətbiq olunan qaydalar isə onların nizam-intizama riayət etməsinin bünövrəsini qoyur. Əməkdaşlığa əsaslanan bu forma işgüzar səs-küyə səbəb olsa da, olduqca səmərəli təlim formalarından biridir.

***Cütlərlə iş*** – Cütlərlə iş ənənəvi təhsil sistemində az da olsa, tətbiq olunurdu. Amma bu davamlı deyildi. Hər kəs bu iş formasını reallaşdırmağa məcbur deyildi. Adətən, ibtidai siniflərdə tətbiq olunan bu forma yuxarı siniflərə qalxdıqca unudulurdu. Hazırkı təlim strategiyası cütlərlə işin tətbiqini də tövsiyə edir. Bu təlim

formasının əhatə dairəsi məhdud olsa da, şagirdlərlə daha yaxından ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə imkan yaradır.

***Fərdi iş*** – Ənənəvi təlimin qalığı hesab olunan bu forma çox vaxt məhdud şəkildə reallaşdırılır. Amma tövsiyə olunur ki, bu iş formasından da davamlı istifadə olunsun. Şagirdin şəxsi keyfiyyətini, yəni bilik və bacarığını ortaya qoyduğu bu iş formasının tətbiqi zamanı onun sərbəst düşünməsinə imkan yaranır. Bu zaman şagird daha obyektiv şəkildə qiymətləndirilir. Bəzən şagird digər təlim formalarında özünü göstərə bilmir. Bu zaman fərdi iş vasitəsi onun özünütəsdiqi üçün şərait yaradır.

Nəzərə almaq lazımdır ki, bütün təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalıdır. Formaları seçərkən də kor-koranə, məqsədsiz müəyyənləşdirmək olmaz.

Təlim formalarının seçilməsi ilə yanaşı, işin səmərəli təşkili üçün təlim üsulları da müəyyən olunmalıdır. Fəal təlim üsulları da təlim strategiyasının bir hissəsidir. Düzgün seçilmiş strategiya hədəfə çatmaq üçün əlverişli yoldur. Tarix fənni özünəməxsus fəndir. Bu baxımdan, bu fənnə uyğun üsulların seçilib tətbiq olunması zəruri şərtlərdən biridir. Bəzən müzakirə tələb olunan hər hansı bir mövzuya auksion üsulu seçilir və nəticə uğursuz olur. Üsullar seçilərkən diqqətli olmaq lazımdır. Standart, məqsəd, eləcə də sinfin xüsusiyyəti nəzərə alınmalıdır. Bəzən özümüzün səmərəli hesab etdiyimiz üsul nəticəsiz ola bilər. Yaxud da Nuranə müəllimin «Xalqların böyük köçü» mövzusuna müəyyən etdiyi akvarium üsulu, Aynur müəllimin keçdiyi «İslam mədəniyyəti» mövzusunda səmərəsiz ola bilər. Əlbəttə, siz müəllim olmaqla yanaşı, həm psixoloq, həm də strateqsiniz. VII sinif şagirdlərinin problemlərin həllini müstəqil həlletmə bacarıqlarını, təlim prosesində tədqiqatçılığa meyillərini, yeni biliklərə yiyələnmək səylərini, yaradıcı düşünmə qabiliyyətlərini nəzərə alaraq fəal təlim üsullarından istifadə məqsədəuyğun hesab olunur.

«Ümumi tarix» fənninin tədrisində, əsasən, klaster, beyin həmləsi, akvarium, ziqzaq, müzakirə, karusel, BİBÖ, qərarlar ağacı, anlayışın çıxarılması, Venn diaqramı, söz assosiasiyası, fasiləli oxu, insert, debat və s. təlim üsullarından geniş istifadə etmək olar.

## Beyin həmləsi

Adından göründüyü kimi, bu üsulun tətbiqi birbaşa beyinə təsir etməkdir. Bu baxımdan çox vaxt beyin həmləsi əqli hücum üsulu da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq məqsədilə istifadə olunan bu üsul, demək olar ki, bütün dərslərin reallaşdırılmasında öz əksini tapır. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirirlər.

Nümunə: – Necə oldu ki, Roma imperiyası zəifləyib parçalandı? Bu sualı verməklə şagirdlərə beyin həmləsini tətbiq etmək olar.

**BİBÖ – Bilirəm/İstəyirəm bilim/Öyrəndim**

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:
1. Problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/İstəyirəm bilim/Öyrəndim.
3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.
4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.
5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı şagirdlərin öyrəndikləri üçüncü sütunda qeyd edilir.

Məsələn: «Böyük İpək yolunun başlandığı ölkə» mövzusunu tədris edərkən motivasiya mərhələsində BİBÖ üsulundan istifadə edə bilərsiniz.

Sual belə ola bilər: Çin haqqında nə bilirsiniz?

| **Bilirəm** | **İstəyirəm bilim** | **Öyrəndim** |
|---|---|---|
| 1. Qədim Çin dövləti e.ə. III əsrdə yaranıb. 2. Çində Xan sülaləsi üsyanlar nəticəsində devrildi. | 1. Çinin Xan sülaləsi devrildikdən sonra aqibəti necə oldu? 2. Çində yenidən dövlətçilik yarandımı? | Bu sütun dərsin sonunda – tədqiqatın nəticələri əldə olunduqdan sonra yazılmalıdır. |

***Anlayışın çıxarılması***. Bu üsul oyun-tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə dairəvi kart asır, onun arxasında şagirdlərdən tələb olunan anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışın xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır, yaxud yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq, gizlədilmiş anlayışı tapırlar.

Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın düzgün cavabını hamıya açıqlayır.

Məsələn: «Hindistan» mövzusunun tədrisi zamanı dərsin motivasiya mərhələsində bu üsuldan istifadə edilə bilər.




**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Müzakirə zamanı əsas vəzifə problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən şagirdlərə müzakirə qaydaları əvvəlcədən xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Prosesi inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı «bəli» və ya «xeyr» olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid: «Nə baş verdi? Nə üçün baş verdi? Bu, başqa cür ola bilərdimi? Siz bu vəziyyətdə nə edərdiniz? Bu, düz idimi? Nə üçün?» kimi suallardan istifadə olunur.

Məsələn: «Xalqların böyük köçü» mövzusunun tədrisi zamanı bu üsuldan istifadə edilə bilər.

**Venn diaqramı**



Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

Venn diaqramından istifadə aşağıdakı mərhələlər üzrə aparılır:

1. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır).
3. I və II dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı, dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
5. Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

Məsələn: «Teymurilər dövləti» mövzusunun tədrisi zamanı Venn diaqramından istifadə oluna bilər. Bu zaman Teymurilər dövlətini Monqol dövləti ilə müqayisə edə bilərsiniz. Yaxud da Çingiz xanla Əmir Teymuru şəxsiyyət kimi müqayisə etmək olar.




**Ziqzaq**

Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Bildiyimiz kimi, tarixi faktlar və döyüş səhnələri çox vaxt sözlərlə təsvir olunur. Yəni riyaziyyat, kimya, fizika və s. bu kimi fənlərə nisbətdə tarix dərslərində mətnlər böyükdür. Mətnin qısa müddətdə mənimsənilməsi üçün bu üsuldan istifadə etmək yerinə düşər.

Şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.

Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qrupuna verilir.

Ekspert qrupundakı şagirdlər əvvəlcə verilən hissəni oxuyub məzmununu qavramalı, sonra isə hər bir şagird əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır.

Müəllim informasiyanın dəqiqliyinə əmin olmaq üçün suallar verə bilər. Məsələn: «Avarlar, xəzərlər və bulqarlar» kimi genişhəcmli mövzuların öyrənilməsi zamanı bu üsuldan istifadə etmək tövsiyə olunur.

**Karusel**

Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində, müəllimin köməyi ilə qruplara ötürülür. Kağızlar «Karusel» kimi digər qruplardan keçərək axırda əvvəlki qrupa qayıdır. Müəllim kağızları yazı lövhəsinə yapışdırandan sonra bütün sinif cavabları müzakirə edir. Məsələn: «Osmanlı dövləti» mövzusunun tədrisində bu üsuldan istifadə etmək məqsədəuyğundur. Bu üsulun tətbiqi şagirdlərdə fəallıq yaratmaqla yanaşı, tez düşünüb cavab vermək bacarığını formalaşdırır.

**Qərarlar ağacı**

- Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.
- Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. 4–6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, fikirlərini «+» və ya «-» işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.
- Qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

| Problem | | | |
|---|---|---|---|
| Problemin həlli yollarının mənfi və müsbət tərəfləri | Problemin həlli yolları | | |
| | 1-ci həll yolu | 2-ci həll yolu | 3-cü həll yolu |
| + | | | |
| - | | | |
| Qərar: | | | |

**Akvarium**

Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Tarix fənninin tədrisində akvarium üsulu bir neçə variantda keçirilə bilər. Akvarium üsulunun keçirilməsinin 1-ci variantı:

Şagirdlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s.) müəyyən edilir. Şagirdlər 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın qaydalara uyğun aparıldığını müşahidə edir.

Müəyyən olunmuş mövzu üzrə birinci qrupun apardığı diskussiya 10–15 dəqiqədən sonra dayandırılır. «Xarici dairənin» iştirakçıları diskussiyanın gedişini qiymətləndirəndən sonra qruplar yerini dəyişir. Bu və ya digər problemin müzakirəsi beləcə davam etdirilir.

Akvarium üsulunun keçirilməsinin digər bir nümunəsi:

«Daxili dairə»nin iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edirlər. Birinci variantdan fərqli olaraq, iştirakçılar bu zaman yalnız problemin «lehinə» olan dəlilləri söyləyirlər. Məsələn, tarixdə Yüzillik müharibə adı almış Fransa və İngiltərə arasında olan müharibə akvarium üsulu ilə müzakirəyə qoyula bilər.

Digər qrupun üzvləri «xarici dairə»də stullarda əyləşib, dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 15–20 dəqiqədən sonra diskussiya dayandırılır. «Xarici» və «daxili» dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar.

Akvarium üsulunun keçirilməsi zamanı qrupların vahid fikrə gəlməsi önəmli deyil.

**Rollar üzrə oyun**

Tarix fənninin tədrisində rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözü ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən nail olmaq istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini, oyunda iştirak edəcək obrazları əvvəlcədən müəyyənləşdirir və ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar bölüşdürüldükdən sonra digər şagirdlərdən kimin aparıcı, kimin müşahidəçi olacağını planlaşdırır. Hazırlaşmaq üçün şagirdlərə vaxt verir. Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir. Məsələn, şagirdlərə tapşırılır ki, «Ankara döyüşü»nü rollaşdırsınlar. Yaxud da «Atillanın Romanı bağışlaması» səhnəsi şagirdlərə təqdim olunur. Təklif olunur ki, bu mətni oxuyub onu rollaşdırsınlar. Şagirdlərin tarixi şəxsiyyətlərin rollarını ifa etmək çox xoşlarına gəlir. Uşaqlar üçün maraqlı və yaddaqalan hadisə olan bu üsulu tətbiq etmək əməkdaşlığı və tolerantlığı inkişaf etdirir. Bununla yanaşı, qarşılıqlı ünsiyyətə imkanlar açır.

**Layihələrin hazırlanması**

Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə fəaliyyət proqramlarını qurmağa, habelə vaxtlarını qrafik üzrə planlaşdırmağa kömək edir. Tarix fənninin tədrisi zamanı istifadə olunan bu üsul şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait ya-

radır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir. Layihələrin hazırlanması tarix fənninin tədrisində ən uğurlu üsullardan biridir. Şagirdlərdə araşdırma bacarığı formalaşır. Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir.

Problem konkret olmalıdır. Məsələn, «Monqol dövlətinin işğalçılıq siyasəti»ni araşdırmağı təklif etmək olar. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başaçatma müddətini, istifadə olunacaq əyani vəsaitlərin (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.) əldəetmə yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdir. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

Bu üsulun tətbiqində məqsəd şagirdlərdə elmi-tədqiqat vərdişlərinin formalaşdırılmasıdır. Hadisələri daha dərindən anlayan şagird bu üsulun tətbiqi zamanı yaradıcı vərdişlərə də yiyələnmiş olur.

**Təqdimatlar**

Təqdimat tarix fənni üçün çox əlverişli metoddur. Bu, kiçik summativ qiymətləndirmələr üçün də məqbul sayıla bilər. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və sair) və müxtəlif xarakterli ola bilər. Təqdimat həm fərdi, həm də qrup şəklində tapşırıla bilər. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan hər biri öz işini yüksək səviyyədə görməyə çalışır. Bu üsul şagird özünüqiymətləndirməsində də səmərəli nəticə verir. Nəzərə almaq lazımdır ki, bu iş daha çox əmək tələb etdiyindən ona verilən vaxt da adekvat olmalıdır. Şagirdlərə müxtəlif mövzularla bağlı təqdimatlar hazırlamağı tapşırmaq olar. Məsələn, Frank dövləti, slavyanlar, feodalizm quruluşu və s. haqqında.

**Debat**

Bu üsul, demək olar ki, müzakirələr əsasında qurulur. Bu üsulun tətbiqi zamanı hər kəsin iştirakı vacibdir. Debat digər müzakirələrdən fərqli olaraq, müzakirə aparılan şəxsi yox, üçüncü tərəfi inandırmaq üzərində qurulur. Bu zaman tutarlı faktlar, arqumentlər göstərmək vacibdir. Üçüncü tərəfin «bəli, bu tərəf məni inandırdı» fikri təsdiq kimi götürülür. Tarixdə debat çıxarılacaq mövzular çoxdur. Hər hansı hadisənin müzakirəsi debat şəklində aparılarsa, bu zaman gətirilən arqumentlər, mənbələr daha əsaslandırılmış formada olmalıdır. Düşünə bilərsiniz ki, bu üsulun tətbiqi şagirdlərə nə verir? Əslində, debatlar şagirdlərin sərbəst düşüncə tərzini formalaşdırır. Onlar mövzunu araşdırmağa çalışır, əsas anlayışları izah edir, dəlillər yığmaq üçün müxtəlif mənbələri araşdırırlar. Bu zaman mənbələr üzərində işləmək bacarığı da formalaşır. Debatlarda natiqlik istedadını üzə çıxarmağa çalışan şagirdlər qərarlar vermək imkanlarına da sahib olurlar.

Debat zamanı rollaşdırma həyata keçirilir:

I qrup Təsdiqləyici mövqedədir. Mövzunu olduğu kimi qəbul edir. Deyilmiş fikirlərin düzgün olduğunu təsdiqləyir.

II qrup Təkzibedicidir. O, birinci qrupun fikirlərini təkzib edir və öz arqumetlərini gətirir.

III qrup isə Hakim mövqedə duranlardır ki, iki qrupdan hansı daha dəqiq, dolğun və inandırıcı fakt gətirərsə, o zaman onun fikrini təsdiqləyir. Təbii ki, hakim mövqedə olanın üzərinə bunu müəyyən etmək üçün böyük məsuliyyət düşür. Debat zamanı hər bir qrupa 7–8 dəqiqəlik vaxt ayrılması kifayətdir. Debat üçün mövzu maraqlı olmalıdır. Bir qədər münaqişəli mövzu seçmək bu üsulun tətbiqi üçün daha çox səmərəlidir.

**Müzakirə xəritələri**

Bu üsulun tarix dərsində istifadəsi yerinə düşər. Bir növ debat üçün hazırlıq hesab olunan bu üsul aparılan müzakirə zamanı şagirdlərin tarixi proseslərə yanaşma mövqelərini aşkar etmək üçün yararlıdır. Bu üsulun tətbiqi zamanı aşağıdakı şərtlərə əməl edilməlidir:

- Mövzunu müəyyənləşdirmək. Məsələn, Osmanlı–Səfəvi münasibətləri.
- Mövzuya dair problemləri üzə çıxarmaq və ziddiyyətli suallar qoymaq.
- Şagirdlərin hər birinin mövqeyinin müəyyənləşdirilməsi.
- Uyğun mövqedə olan şagirdlərin cütlərdə birləşdirilməsi. Onların «lehinə» və «əleyhinə» siyahı tərtib edilməsi.
- Hər bir cüt başqa cütlə birləşdikdən sonra siyahıdakı bəndlərə əlavələrin edilməsi.
- Sinfin bu arqumentlər ətrafında düşünməsi və «lehinə» və yaxud «əleyhinə» qərarların qəbul edilməsi.
- Qərarların qəbul edilməsi və ümumiləşdirmənin aparılması.

Bu üsulu cütlərlə və bütün siniflə aparmaq daha düzgün olar.

**Klassik dialoq (Sokrat dialoqu)**

Klassik dialoq, demək olar ki, debatlarla eyni alqoritmlə aparılır. Belə dialoqun aparılması problemin həlli üçün səmərəli yolların müəyyən edilməsidir. Debat kimi burada da xüsusi sxemdən istifadə olunur. Bunu aşağıdakı kimi təsvir etmək olar:



Debatdan fərqli olaraq, klassik dialoqda iddiaçı və digər tərəfin məqsədi üçüncü tərəfi inandırmaq deyil, problemin həlli üçün dəlillər göstərməkdir. «Orta əsr şəhərləri» mövzusunun tədrisi zamanı bu üsuldan da istifadə etmək olar. Burada şəhərlərin yaranmasına ticarətin inkişafını əsas səbəb götürməklə şagirdləri dialoqa cəlb etmək dərsin maraqlı keçməsinə şərait yaradar.

**Esse**

Şagirdlər müstəqil düşüncəyə malik olduqlarını hər hansı bir problem haqqında esse yazaraq həyata keçirə bilərlər. Esse hazırlayan şagird problem üzrə öz fikirlərini mənbə və faktlara əsaslanaraq yazmalıdır. Ümumiləşdirilmələr aparmalı, yekun nəticəyə gəlməlidir. Essedə yaradıcılıq tətbiq edərək ev tapşırığını daha mükəmməl yerinə yetirmək olar. Məsələn, şagirdlərə «Xaç yürüşləri» mövzusuna aid esse yazmaq tapşırıla bilər.

**Fasiləli oxu üsulu**

Bu üsulun tətbiqi zamanı şagirdlər əvvəlcə mətnlə tanış olur. Məsələn, İngiltərə mövzusunun mətnini şagirdlər növbə ilə oxuyurlar. Mətn oxunarkən fasilələr edilir, müəyyən izahlar aparılır. Bu zaman şagirdlərin biliklərinin möhkəmlənməsindən ötrü mətnin müəyyən hissələrinə qoyulmuş suallar da müzakirə edilməlidir.

# ŞAGİRDLƏRİN QRUPLARA BÖLÜNMƏSİ ÜSULLARI

Fəal təlim deyəndə ən çox qrup işləri yada düşür. Bu üsulun tətbiqi zamanı təbii ki, şagirdlər qruplara bölünməlidir. Bu işi müəllim görsə daha yaxşı olar. Lazım gələrsə şagirdlərin iştirakı ilə də qrup bölgüsü aparmaq olar. İstədiyi nəticəni əldə etməsi üçün qrup bölgüsünün müəllimin özü tərəfindən aparılması məsləhətdir. Çünki şagirdlər özləri sərbəst qruplaşarsa, hər kəs özünün münasibət qurduğu şagirdlə qruplaşmağa cəhd edəcək. Bu zaman isə qruplarda ya yüksək olanlar, ya təlim nəticələri aşağı olanlar, ya da dostlar bir araya gələcək.

Şagirdləri qruplara bölmək üçün aşağıdakı üsullardan istifadə etmək olar:

**«Say».** Şagirdlərdən 1-dən 5-ə kimi saymaq xahiş olunur. Yəni sinfin şagirdləri sayılır. 1, 2, 3, 4, 5. Yenidən davam edilir: 1, 2, 3, 4, 5. Bu qayda ilə sinif şagirdlərinin hamısı sayılır. Bundan sonra eyni rəqəmli iştirakçılar (bütün «birlər», bütün «ikilər» və s. ) bir qrupda birləşirlər.

**«Püşkatma».** Müəllim şagirdlərin adlarını balaca vərəqlərə yazır, vərəqləri qatlayıb, paketə qoyur, qarışdırır və paketdən çıxararaq şagirdlərin sayına görə hər stolun üstünə düzür. Kağızlar açılır və şagirdlərin adları oxunur. Həmin qayda ilə şagirdlər paketdən müxtəlif rəngli vərəqləri çıxara bilərlər. Rənglərin sayı və hər rəngdən olan vərəqlərin sayı qrupların sayına görə planlaşdırılır.

**«Sosiometrik metod».** Qrupların sayına görə bir neçə iştirakçı lövhənin qarşısına çağırılır. Hər iştirakçı özünə bir nəfər qrup yoldaşı seçir. Bu qayda ilə hər gələn şagird öz qrupuna növbəti 1 nəfəri cəlb edir.

Bu bölgüdən sonra siz tarixi şəxsiyyətlərin adlarını qrupların sayına uyğun yazaraq bir qutuya qoyun. Şagirdlərdən xahiş edin ki, onlar səssizliyə riayət edərək qutudan çıxarılan şəxsiyyətlərin adlarına uyğun qruplaşsınlar. Öncədən partaların üzərinə şəxsiyyətlərin adı yazılan vərəq qoymaq vacibdir ki, qruplar harada əyləşəcəklərini bilsinlər. Məsələn, «Türk və Qafqaz xalqlarının xəzinəsi. İslamın töhfələri» mövzusunu keçərkən mədəniyyətə töhfələr verən şəxsiyyətlərin adlarını yazmaq olar. Ümumiyyətlə, qrupların adları da mövzuya uyğunlaşdırılsa, daha yaxşı olar.

# PLANLAŞDIRMANIN APARILMASINA DAİR TÖVSİYƏLƏR

Hər birimizin həyatında planlaşma əsasdır. Planlaşma aparmadan heç bir səmərəli işə nail ola bilmərik. Bütün sahələrdə olduğu kimi, tədrisdə də planlaşma vacibdir. Kurikulum islahatının həyata keçirilməsi zamanı hər bir müəllim planlaşmaya böyük diqqət ayırmalı, müsbət nəticələr əldə etmək üçün dəqiq plan tutmalıdır.

Bildiyimiz kimi, planlaşdırmanın 2 növü vardır: gündəlik və perspektiv.

Müəllim dərsə hazırlaşarkən, ilk növbədə, sinif üzrə təlim nəticələrini və alt standartları nəzərə almalıdır. Hər bir standartın reallaşdırılması üçün mövzular vasitəsilə şagirdlərdə bilik və bacarıqlar formalaşdırılır. Siz gündəlik plan nümunəsini hazırlayarkən nəticədə standarta uyğun məqsədlərə nail olacağınızı da unutmayın. Məqsədlər şagirdyönümlü olmalı, şagirdə ünvanlanmalıdır. Tədris zamanı tətbiq ediləcək forma və üsullar da düzgün müəyyən edilməlidir. Seçdiyiniz üsullar korkoranə yazılarsa, dərs müddətində onların tətbiqini reallaşdırmaq olmaz. Bəzən müəllimlər gündəlik plan nümunəsində müxtəlif forma və üsulların adlarını yazsalar da, onları dərsin gedişində reallaşdırmırlar. Buna görə də bəzən yazılı şəkildə hazırladıqları planda nəticəyə dərsin sonunda nail ola bilmirlər. Standartlar əsasında dərsin reallaşdırılması zamanı inkişafetdirici məqsədlər müəyyənləşdirilməlidir. Bu məqsədlərin həyata keçirilməsi zamanı seçilmiş resurslar və inteqrasiya imkanları mütləq nəzərə alınmalıdır. Yalnız bundan sonra dərsin mərhələləri başlanır. Fəal dərsdə dərsin aşağıdakı mərhələləri vardır:

***I mərhələ: motivasiya, problemin qoyulması***

Fənnin tədrisi prosesində hər bir tədqiqat problemin müəyyənləşdirilməsi ilə başlayır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə, tədqiqat sualının formalaşdırılması lazım gəlir. Çünki tədqiqat sualı yeni biliklərin formalaşmasında bələdçi kimi çıxış edir. Bu mərhələdə şagirdlər düşünməyə, idraki fəallığa sövq edildiyindən, o həm də motivasiya adlandırılır.

Dərsdə motivasiyanın uğurlu alınması üçün aşağıdakı şərtlərə əməl edilməsi tövsiyə olunur:

1. Motivasiya üçün seçilən material qeyri-adi, maraqlı olmalı;
2. Fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməli;
3. Müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələri irəli sürərkən onları həvəsləndirməli;
4. Tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməli;
5. Müxtəlif audiovizual vasitələrlə şagirdlərin diqqətini çəkərək maraq oyatmalı;
6. Motivasiya mürəkkəb olmamalı, dərsin çox hissəsini aparmamalı;
7. Motivasiya tədqiqat sualının ortaya qoyulması ilə bitməlidir.

***II mərhələ: tədqiqatın aparılması***

Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulları seçilir. Tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq üçün məqsədyönlü iş aparılır. Şagirdlərə müxtəlif çalışmalar verilir. Əgər bu zaman qrup işləri verirsinizsə, qrup tapşırıqlarının həcmi və səviyyəsi nəzərə alınmalıdır. Bəzən qrup bölgüsü aparılıb tədqiqat işi üçün iş vərəqləri paylanandan sonra məlum olur ki, iş vərəqlərindəki tapşırıqlar biri digərindən asan və çətinliyə görə fərqlənir. Bir qrup asan tapşırığı 5 dəqiqəyə həll edir, digər qrup isə 15 dəqiqə vaxt ayırsa da, işi bitirə bilmir. Bütün bunlar nəzərə alınıb iş səmərəli qurulmalıdır. Beləliklə, tədqiqat sualına cavab tapmaq üçün zəmin yaranar. Tədqiqat toplanmış faktlar əsasında təqdimatların hazırlanması ilə bitir. Tədqiqat müxtəlif formalarda: kollektiv, qruplarla, cüt şəklində və fərdi qaydada aparıla bilər.

***III mərhələ: məlumatın mübadiləsi***

Verilmiş problemə aid tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər informasiyanın təqdimatına başlayır, əldə etdikləri yeni informasiyaları digər iştirakçılarla bölüşürlər. Həmin təqdimatların əks olunduğu iş vərəqləri lövhədən asılır.

***IV mərhələ: məlumatın müzakirəsi***

Mövcud mərhələnin məqsədi yeni əldə edilmiş informasiyanı sistemləşdirmək və qrupların hazırladıqları təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdır. Bu mərhələdə müəllim köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsini keçirir. Məlumat, sxem, qrafik, cədvəl, təsnifat və s. formalarda təqdimatlar dinlənilir. Nəticədə tədqiqat sualına cavab aydınlaşır.

***V mərhələ: nəticə və ümumiləşdirmə***

Aparılan tədqiqatdan sonra nəticəyə gəlmək üçün müəllim şagirdlərin köməyi ilə yeni bilikləri, əldə edilmiş ideyanı tədqiqat sualı ilə və şagirdlərin ilkin fərziyyələri ilə müqayisə edərək ümumiləşdirir. Hamı tədqiqat sualına cavab verildiyinə əmin olur.

***VI mərhələ: yaradıcı tətbiqetmə və ya ev tapşırıqları***

Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini artırır. Bu məqsədlə şagirdlərə həyatla əlaqəli praktik tapşırıqlar verilir. Əgər yaradıcı tətbiqetməni dərhal icra etmək mümkün olmursa, o sonrakı dərslərdə həyata keçirilir.

Dərsdə alınmış bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi üçün ən geniş yayılmış sərbəst iş forması ev tapşırıqlarıdır.

***Refleksiya və qiymətləndirmə***

Refleksiya – təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə imkan verir. Qiymətləndirmə şagirdlərin təlimdəki nailiyyətlərinin dəyərləndirilməsi prosesidir. Qiymətləndirmə konkret meyarlar üzrə aparılmalıdır. Müəllim şagirdləri əvvəlcədən bu meyarlarla tanış etməlidir.

Perspektiv planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün hər bir müəllimin özünəməxsus fəaliyyət istiqamətidir. Bildiyimiz kimi, kurikulum islahatına görə müəllimlər illik planlaşdırmanı da tam sərbəst reallaşdırırlar. Əvvəldə də qeyd etdiyimiz kimi, «Ümumi tarix» fənn kurikulumunda nəzərdə tutulmuş məzmun standartları məhz hər bir məktəbin yerləşdiyi regiondan, onun infrastrukturundan, maddi-texniki bazasından və s. asılı olaraq müxtəlif cür reallaşdırıla bilər. Planlaşdırma aparılarkən yuxarıda qeyd olunanlarla yanaşı, şagirdlərin fərdi xüsusiyyətlərinin, öyrənmə tərzlərinin də nəzərə alınması olduqca vacib şərtdir. Eyni bir regionda, eyni bir məktəbdə, lakin ayrı-ayrı VII siniflərdə «Ümumi tarix» fənnindən dərs deyən müəllimlərin illik planlaşdırmaları müxtəlif ola bilər. Lakin bu planlaşdırmanı kor-koranə aparmaq qeyri-mümkündür. Bunun üçün aşağıdakı bacarıqlara malik olmaq çox vacibdir:

- Məzmun standartlarına əsasən dərslikdəki tədris vahidi və mövzular üzrə dəqiqləşmələrin aparılması üçün «Ümumi tarix» fənn proqramında (kurikulumunda) nəzərdə tutulan məzmun standartlarının dərslikdə hansı mövzularda reallaşdırıldığını və bu mövzuların hansı tədris vahidlərində birləşdirildiyini müəyyən etmənizdir. Bu, eyni zamanda dərsliklə tanışlıq xarakteri daşıyır. Həmçinin illik planlaşdırmanı düzgün apara bilməniz üçün demək olar ki, ilkin addımdır.
- Tədris vahidlərinin və mövzuların ardıcıllığının müəyyənləşdirilməsi mühüm bacarıqlardan biridir. Mövzuların ardıcıllığı dedikdə sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərdə tutulur. Bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə, asandan çətinə doğru getməkdir. Bunun üçün əvvəlcə dərslikdə verilən ardıcıllığa diqqət yetirməli, bu ardıcıllıq müəyyən səbəblərdən sizi qane etməzsə (tədris ilində baş verəcək mühüm hadisələr, fənlərarası inteqrasiya və s. baxımından), özünüz mövzuların ardıcıllığını müəyyənləşdirməlisiniz.

İnteqrasiya imkanlarının müəyyən edilməsi planlaşdırma aparmaq üçün müəllimə lazım olan bacarıqlardan biridir. «Ümumi tarix» özündə beş məzmun xəttini birləşdirdiyinə görə onun bir çox fənlərlə («Azərbaycan tarixi», «Ədəbiyyat», «Həyat bilgisi», «Coğrafiya» və s.) inteqrasiyası mümkündür. MMV-də təqdim olunmuş illik planlaşdırma cədvəlində «Ümumi tarix» məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir. Bu inteqrasiya imkanları bizim məzmun standartlarını reallaşdırmamıza şərait yaradır. Lakin vəsaitdəki illik planlaşdırma cədvəlində hər bir mövzu üzrə inteqrasiya verilməsinə baxmayaraq, sinifdəki şagirdlərin səviyyəsini, maraqlarını, həmçinin resursları nəzərə alaraq özünüz də inteqrasiya imkanları müəyyənləşdirə bilərsiniz. Bunun üçün:

– reallaşdıracağınız standartı həyata keçirmək üçün hansı fənnin köməyinə ehtiyac olduğunu özünüz üçün müəyyənləşdirin.
– seçdiyiniz fənnin məzmun standartlarını nəzərdən keçirin. Siz yalnız VII sinif məzmun standartları ilə inteqrasiya yarada bilərsiniz.

İnteqrasiya üçün «Ümumi tarix» fənni üzrə seçdiyiniz standarta müvafiq standartı müəyyənləşdirərək illik dərs planında qeyd etməniz vacibdir. Daha sonra müəyyənləşdirdiyiniz inteqrasiya imkanına müvafiq olaraq, istifadə edəcəyiniz resurslarda, şagirdlərə təqdim edəcəyiniz tapşırıqlarda bunu nəzərə almalısınız.

Əlavə resursların seçilməsi mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra aparılmalıdır.

Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması mühümdür. Tədris planına əsasən VII sinifdə «Ümumi tarix» fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərti ilə daha vacib, eyni zamanda şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz. Perspektiv planlaşdırma aşağıdakı cədvəl əsasında hazırlanmalıdır:

| Standart | Tədris vahidi | Mövzu | İnteqrasiya | Resurslar | Qiymətləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir. Hazırda kurikulumun tətbiqi ilə əlaqədar olaraq qiymətləndirmə ənənəvidən fərqlənir. Məktəbdaxili qiymətləndirmə diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun) qiymətləndirmələrdən ibarətdir.

Diaqnostik qiymətləndirmədən istifadə etməklə öz təlim strategiyanızı müəyyənləşdirə bilərsiniz. Bu qiymətləndirməni dərs ilinin, tədris vahidlərinin əvvəlindən reallaşdırmaq nəzərdə tutulur. Diaqnostik qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarını müəyyənləşdirmək, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə keçdikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, ona fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Diaqnostik qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə etmək olar:

| Üsullar | Vasitələr |
|---|---|
| Tapşırıqvermə | Çalışmalar |
| Müsahibə (şifahi yoxlama) | Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq) |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Söhbət | Şifahi söhbət |
| Müşahidə | Gündəlik müşahidə |

Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur. Yazılı qeydlər sinif və şagird portfoliosunda saxlanılır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır.

Formativ qiymətləndirmə zamanı qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək, onlara əlavə köməklik göstərir. Bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən

məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır.

Bir məzmun standartı dərslikdəki bir neçə mövzuda reallaşdığına görə həmin standartlardan çıxan qiymətləndirmə meyarları növbəti müvafiq dərslərdə də istifadə edilir. Qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyəti 4 səviyyə üzrə qruplaşdırılır.

Məsələn:

Standart: 5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini çətinliklə müəyyən edir. | Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəllimin köməyi ilə müəyyən edir. | Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir, lakin bəzi səhvlərə yol verir. | Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini asanlıqla müəyyən edir. |

Qiymətləndirmə meyarları:

***Müəyyənetmə***

Formativ qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

| Üsullar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

***Özünüqiymətləndirmə***

Bu qiymətləndirmə fərdi qiymətləndirmədir. Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

| Tapşırığı tam və düzgün yerinə yetirdim | Dərsdə diqqətli idim | Məntiqli yanaşmam var idi | Sual-cavabda aktiv idim | Əməkdaşlıq etdim | Etiket qaydalarına riayət etdim |
|---|---|---|---|---|---|
| | | | | | |

***Cütlərlə iş zamanı qiymətləndirmə***

Bu qiymətləndirmədən cütlərlə iş zamanı istifadə etmək olar. Dərsin sonunda cütlərə aşağıda göstərilən cədvəl paylanılır. Bu cədvəldən istifadə etməklə hər bir şagird həm özünün, həm də yoldaşının fəaliyyətini qiymətləndirə bilər.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıqetmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirəetmə | Ümumi rəyəgəlmə |
|---|---|---|---|---|---|
| İnci | | | | | |
| Uğur | | | | | |

***Qrup işlərinin qiymətləndirilməsi***

Qruplarla işin qiymətləndirilməsi üçün meyar cədvəli hazırlanır. Qrupların fəaliyyətini aşağıdakı meyarlara əsasən qiymətləndirmək olar.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tapşırığı düzgün yerinəyetirmə | | | | |
| Tərtibat | | | | |
| Təqdimetmə | | | | |
| Əməkdaşlıq | | | | |

Yekun (summativ) qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə həm il ərzində bəhs və ya bölmələrin mənimsənilməsinə, həm də tədris ilinin sonunda qiymətləndirmə standartlarına əsasən həyata keçirilir. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılması üçün yalnız test üsuluna üstünlük verilməməli, aşağıdakı üsul və vasitələrdən də istifadə olunmalıdır:

| Üsullar | Vasitələr |
|---|---|
| Yoxlama yazı işləri | Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli |
| Şifahi sorğu | Şifahi sorğu üzrə qeydiyyat vərəqi |
| Test | Test tapşırıqları |
| Tapşırıqvermə | Tapşırıq, çalışma və laboratoriya işləri |
| Yaradıcılıq | Rəsm, esse, təqdimat və s. |

Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün dərsdə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xananı diaqonalla 2 yerə ayırmalı və onun surətində «q» (qaib) yazıb, məxrəci isə boş saxlamalısınız. Növbəti 2 həftə ərzində kiçik summativ qiymətləndirmə aparılmalı, nəticə məxrəcdə qeyd edilməlidir.

Şagirdin yarımillik qiyməti kiçik summativ (yarımillik ərzində keçirilən) qiymətləndirmənin nəticələri 40%, böyük summativ (yarımillik sonunda keçirilən) qiymətləndirmənin nəticələri 60 % hesab olunmaqla aşağıdakı düstur əsasında çıxarılır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \ldots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

Burada, Y– şagirdin I və ya II yarımil üzrə qiymətini, $ksq_1$, $ksq_2$ ,..., $ksq_n$ – şagirdin müvafiq yarımil ərzində kiçik summativ qiymətləndirmələrinin nəticələrini, n – müvafiq yarımildə keçirilən kiçik summativ qiymətləndirmələrin sayını, BSQ isə I və II yarımildə keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir.

# İLLİK PLANLAŞDIRMA

Bu nümunə tövsiyə xarakterli olub sizə istiqamət vermək məqsədi daşıyır. Cədvəldə verilmiş tarix adlı xana boş buraxılmışdır. Həmin xananı öz dərs günlərinizə uyğunlaşdıraraq tarixləri qoymalısınız. Qeyd edək ki, resurslar sizin istəyiniz və imkanlarınızdan asılı olaraq dəyişə bilər.

| Sıra | Standart | Mövzu | İnteqrasiya | Resurslar | Qiymətləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| **Diaqnostik qiymətləndirmə** | | | | | | **1** | |
| **FEODALİZM ŞƏRQDƏN BAŞLADI** | | | | | | | |
| 1. | 2.1.2.; 3.1.1.; 4.1.2. | Xalqların böyük köçü | H-b. 2.1.1.; Az-t. 3.1.2.; 4.1.2.; C. 3.1.1. | Ağ Hun və Qərbi Hun dövlətlərinin xəritəsi, iş vərəqləri, paylayıcı material | Formativ | 2 | |
| 2. | 1.1.3.; 3.1.1. | Göytürk xaqanlığı və onun varisləri | Az-t. 3.1.2.; C. 3.1.1. | Göytürk, Oğuz və Uyğur xaqanlıqlarının xəritəsi, müasir siyasi xəritə, şəkillər, slayd | Formativ | 2 | |
| 3. | 1.1.2.; 2.1.2.; 3.1.2. | Avarlar, xəzərlər və bulqarlar | Az-t. 1.1.2. | İş vərəqləri, xəritə, illüstrasiya, paylayıcı material | Formativ | 1 | |
| **KSQ** | | | | | | **1** | |
| 4. | 2.1.1.; 2.1.2. | Böyük İpək yolunun başlandığı ölkə | İnf. 3.2.3.; C. 3.1.1.; Az-t. 2.1.2. | Dünyanın siyasi xəritəsi, Çin Orta əsrlərdə (xəritə) illüstrasiya və şəkillər | Formativ | 1 | |
| 5. | 1.1.3.; 2.1.1.; 3.1.1. | İran və Qafqaz | H-b. 2.1.1., 2.1.2.; Az-t. 3.1.2., 3.1.3. | Sasani dövlətinin xəritəsi, slaydlar, illüstrasiyalar, özünüqiymətləndirmə vərəqləri | Formativ | 1 | |
| 6. | 1.1.3.; 2.1.1.; 3.1.1. | Ərəb xilafəti | Az-t. 3.1.2.; İnf. 3.2.3.; T-i. 1.3.1. | Dünyanın siyasi xəritəsi, elektron vəsait, iş vərəqləri və s. | Formativ | 1 | |

| Sıra | Standart | Mövzu | İnteqrasiya | Resurslar | Qiymət-ləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| 7. | 1.1.2.; 2.1.2.; 3.1.2. | Xilafətin par-çalanması | İnf. 2.1.2.; Az-t. 3.1.3. | Babək filmindən epizod, Xilafətin parçalanmasından sonra yaranmış dövlətlərin xəri-təsi | Formativ | 1 | |
| 8. | 5.1.2.; 5.1.3. | Türk və Qaf-qaz xalqlarının xəzinəsi. İsla-mın  töhfələri | Az-t. 5.1.3.; Ə. 3.1.2. | Mədəniyyət nümunələrinin şəkilləri, dərslik, iş vərəqi, slayd | Formativ | 1 | |
| **KSQ** | | | | | | 1 | |
| 9. | 1.1.3.; 3.1.1.; 4.1.1. | Səlcuq imperatorluğu | Az-t. 4.1.1.; H-b. 2.1.1. | Səlcuq dövlətinin xəritəsi, Sultan Toğrulun şəkli, dərslik, filipçart və s. | Formativ | 1 | |
| 10. | 2.1.2.; 3.1.1. | Hindistan VI–XVI əsr-lərdə | H-b. 2.2.1.; Az-t. 3.1.2. | Dünyanın müasir siyasi xəritəsi, Dehli sultanlığı-nın və Moğol dövlətinini xəritə-ləri, paylama mate-rialı və s. | Formativ | 1 | |
| 11. | 2.1.2.; 3.1.1.; 4.1.1. | Çingiz xan və onun davamçı-ları | Az-d. 2.2.3.; Az-t. 4.1.1. | Dünyanın siyasi xəritəsi, Çingiz xanın şəkli, elek-tron vəsait və s. | Formativ | 1 | |
| **BSQ** | | | | | | **1** | |
| 12. | 3.1.1.; 4.1.2. | Osmanlı impe-ratorluğu XIII–XVI əsr-lərdə | Az-t. 4.1.2.; İnf. 3.2.3.; T-i. 1.3.1. F.t. 1.2.2. | Osmanlı imperi-yasının xəritəsi, illüstrasiyalar, şəkillər, dərslik və s. | Formativ | 1 | |

| Sıra | Standart | Mövzu | İnteqrasiya | Resurslar | Qiymət-ləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| 13. | 4.1.2. | Şərqin böyük fatehi – Əmir Teymur | İnf. 3.2.3.; T-t. 1.3.1.; Az-t. 4.1.2. | Teymuri imperiyasının xəritəsi, dünyanın siyasi xəritəsi, Teymurun şəkli, dərslik, slayd və s. | Formativ | 1 | |
| 14. | 5.1.1.; 5.1.2. | Şərqin nadir inciləri | Az-t. 5.1.2.; X-d. 2.1.3. | Mədəniyyət abidələrinin şəkilləri, elektron vəsait, paylama materialı, iş vərəqi və s. | Formativ | 1 | |
| **FEODALİZM AVROPADA** | | | | | | | |
| 15. | 3.1.1. | Frank imperiyası | H-b. 2.1.1.; Az-t. 3.1.2. | Xəritə, marker, dərslik, filipçart, şəkillər, elektron vəsait və s. | Diaqnostik, formativ | 1 | |
| 16. | 1.1.1.; 2.1.1.; 3.1.2. | Bizans. Slavyanlar | İnf. 2.1.2.; Az-t. 3.1.3.; C. 1.1.1. | Dünyanın siyasi xəritəsi, Bizans imperiyasının xəritəsi, dərslik, iş vərəqləri və s. | Formativ | 1 | |
| **KSQ** | | | | | | **1** | |
| 17. | 3.1.2.; 5.1.3. | «Dənizlər kraliçası» və digər şəhər-respublikalar | İnf. 2.1.2.; Az-t. 3.1.3., 5.1.3.; Ə.3.1.2. | Şəkillər, xəritə, paylama materialı, elektron vəsait, dərslik və s. | Formativ | 1 | |
| 18. | 1.1.1.; 1.1.3. | Xaç yürüşləri. Qranada əmirliyinin süqutu | Az-t. 1.1.1., 1.1.2.; İnf. 1.1.1.; C. 1.1.1. | Siyasi xəritə, şəkillər, iş vərəqi, filipçart, marker və s. | Formativ | 2 | |
| 19. | 2.1.2.; 3.1.1. | Yüzillik müharibə | H-b. 2.1.1., 2.1.2., 2.2.1.; Az-t. 3.1.1., 3.1.2., 3.1.3. | Xəritə, marker, dərslik, filipçart, şəkillər, elektron vəsait və s. | Formativ | 1 | |

| Sıra | Standart | Mövzu | İnteqrasiya | Resurslar | Qiymətləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| 20. | 1.1.1.; 2.1.1.; 3.1.2. | Dumanlı Albion orta əsrlərdə | İnf. 2.1.2.; Az-t. 3.1.3.; C. 1.1.1. | Xəritə, marker, dərslik, filipçart, şəkillər, elektron vəsait və s. | Formativ | 1 | |
| 21. | 1.1.2.; 3.1.1.; 4.1.1. | Kilsənin yolları necə ayrıldı? | Az-t. 1.1.2.; 4.1.1.; H-b. 2.1.1. | Siyasi xəritə, şəkillər, iş vərəqi, filipçart, marker və s. | Formativ | 1 | |
| **KSQ** | | | | | | **1** | |
| 22. | 1.1.2.; 2.1.2. | Avropalılar sərvət axtarışında | İnf. 3.2.3.; C. 3.1.1.; Az-t. 2.1.2. | Xəritə, marker, dərslik, filipçart, şəkillər, elektron vəsait və s. | Formativ | 1 | |
| 23. | 1.1.1.; 1.1.3. | Hollandiya Respublikası necə yarandı? | Az-t. 1.1.1.; C. 1.1.1. | Siyasi xəritə, şəkillər, iş vərəqi, filipçart, marker və s. | Formativ | 1 | |
| 24. | 5.1.1.; 5.1.3. | Avropa və Amerika xalqlarının mədəniyyəti | Az-t. 5.1.3.; Ə. 3.1.2.; X-d. 2.1.3. | İş vərəqləri, marker, dərslik, filipçart, şəkillər, elektron vəsait və s. | Formativ | 1 | |
| **BSQ** | | | | | | **1** | |
| **Cəmi:** | | | | | | **34** | |

## MÖVZULARIN REALLAŞDIRILMASI ÜÇÜN METODİK TÖVSİYƏLƏR

Sizə təqdim olunan mövzuların şərhi tövsiyə xarakterlidir. Mövzuların tədrisi zamanı sərbəstsiniz. İstədiyiniz standartı seçməklə şagirdlərdə bilik və bacarıqların formalaşmasına istiqamət yaradın. Dərslikdəki mövzularda verilmiş açar sözlər sizə motivasiyanın reallaşdırılmasında, eləcə də bu istiqamətdə araşdırmalar aparmaqda yardım edəcək.

## FEODALİZM ŞƏRQDƏN BAŞLADI

### MÖVZU 1. XALQLARIN BÖYÜK KÖÇÜ

***Məzmun standartı:***

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.
3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.
4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

***Təlim məqsədi:***

1. Xalqların böyük köçünü xəritəyə əsasən təhlil edir.
2. Ağ Hun və Qərbi Hun dövlətlərinin yaranması, idarəçilik formasını, siyasi və iqtisadi münasibətlərini şərh edir.
3. Atilla haqqında məlumat toplayaraq təqdimat hazırlayır.

***İnteqrasiya:***

H-b. 2.1.1.; Az-t. 3.1.2., 4.1.2.; C. 3.1.1.

Bu mövzu tədris ilinin ilk günlərinə təsadüf etdiyi üçün şagirdlərdə köhnə dərslə əlaqə yaratmaq, suallardan istifadə etmək yerinə düşər. Mətn həcmli və iki dövləti əhatə etdiyi üçün mövzunun iki saatda reallaşdırılması məqsədəuyğun olar.

A blokunda verilmiş motivasiya şagirdlərin fəallaşmasına imkan yaradar. Beyin həmləsi üsulunu tətbiq etməklə şagirdlərin köhnə biliklərinin üzə çıxarılması mümkündür. Həmçinin bu biliklərə əsaslanan şagird araşdıracağı yeni problemin nədən ibarət olmasını müəyyənləşdirər. Böyük Hun imperiyasının qoyduğu izlər haqqında məlumatlı olan şagirdlər bu dövrdən sonrakı prosesləri B blokundakı suallara cavab tapmaqla öyrənə biləcəklər. Tədqiqat sualı «Hun dövlətlərinin tarixdəki rolu nədən ibarətdir?» ola bilər. Tədqiqata

keçməmişdən öncə fasiləli oxu üsulundan istifadə etməklə şagirdləri mətnlə tanış edin. Bu zaman C blokunda əksini tapan mətnin hissələrini şagirdlər növbə ilə oxusunlar. İstifadə olunan yan sual və tapşırıqlar məqamında şagirdlərin müzakirəsinə verilsə, daha səmərəli olar. Aydın olmayan hissələr üzərində dayanmaqla müzakirə aparmaq tövsiyə olunur. E blokundakı sxemi şagirdlərin nəzərinə çatdıraraq, sxemdəki təsvir barədə onların münasibətini öyrənin. D blokundakı xəritə və şəkillər dərsin mənimsənilməsi üçün tutarlı köməkdir. Şagirdlərin xəritə üzərində işə cəlb olunması onlarda hunlar haqqında geniş təsəvvürün formalaşmasına şərait yaradacaqdır. F blokunda verilmiş mənbə şagirdlərin Atilla haqqında daha çox məlumat bilmələrinə səbəb olar.

Fasiləli oxu bitdikdən sonra tədqiqatın aparılmasına başlamaq olar. Bu zaman şagirdlərə iş vərəqləri paylanılır. İş vərəqləri hazırlayarkən B və G blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz. Mətndəki şəxsiyyətlərin Venn diaqramı vasitəsilə müqayisəsini aparmaq şagirdlərdə tənqidi təfəkkürün formalaşmasına yardım edəcək. Tədqiqatın aparılması üçün tapşırıqlar verərkən sinifdəki şagirdlərin bilik və bacarıqlarını nəzərə alın. Həmçinin qruplar bərabər bölünməli, şagirdlərin verilən vaxt müddətində tapşırığı yerinə yetirməsi bacarığı nəzərə alınmalıdır. Tədqiqat işi başa çatdıqdan sonra – mübadilə və müzakirə mərhələlərinin yekunu kimi şagirdlərin gəldikləri nəticələr şaxələndirmə şəklində verilə bilər.

Bu dərsə iki saat ayrıldığı üçün G blokunda 4-cü və 5-ci tapşırığı, yəni «Xalqların böyük köçü» haqqında və ya digər mövzuda təqdimat hazırlaya bilərsiniz. Növbəti dərs isə tapşırıqların təqdim olunmasına və müzakirəsinə həsr olunsa, daha münasib olar. Bu zaman problem doğuran məsələlərə də aydınlıq gətirilər.

**Qiymətləndirmə meyarları:** *təhliletmə, şərhetmə, təqdimetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| «Xalqların böyük köçü»nü xəritəyə əsasən təhlil edərkən çətinlik çəkir. | «Xalqların böyük köçü»nü xəritəyə əsasən suallar vasitəsilə təhlil edir. | Cüzi səhvlərə yol verməklə «Xalqların böyük köçü»nü xəritəyə əsasən təhlil edir. | «Xalqların böyük köçü»nü xəritəyə əsasən asanlıqla təhlil edir. |
| Ağ Hun və Qərbi Hun dövlətlərini şərh etməkdə çətinlik çəkir. | Ağ Hun və Qərbi Hun dövlətlərini sualların köməyi ilə şərh edir. | Ağ Hun və Qərbi Hun dövlətlərini müstəqil şərh edir, lakin səhvlərə yol verir. | Ağ Hun və Qərbi Hun dövlətlərini asanlıqla şərh edir. |
| Atilla haqqında məlumat toplayır, təqdimatın hazırlanmasında çətinlik çəkir. | Atilla haqqında məlumat toplayaraq müəllimin köməkliyi ilə təqdimat hazırlayır. | Atilla haqqında məlumat toplayaraq təqdimat hazırlayır. | Atilla haqqında sistemli şəkildə məlumat toplayaraq asanlıqla təqdimat hazırlayır. |

## MÖVZU 2. GÖYTÜRK XAQANLIĞI VƏ ONUN VARİSLƏRİ

***Məzmun standartı:***

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.
3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***Təlim məqsədi:***

1. Türk xaqanlıqlarının tarixini xronoloji qaydada sistemləşdirir.
2. Göytürk, Uyğur və Oğuz xaqanlıqlarını şərh edir.

***İnteqrasiya:***

Az-t. 3.1.2.; C. 3.1.1.

A blokunda verilmiş mətn motivasiya yaratmanıza kömək edəcək. Bu zaman şagirdlərin diqqətini türk anlayışına yönləndirin. Şaxələndirmə üsulundan istifadə edərək şagirdlərə suallarla müraciət edə, yadlarına ötən dərs öyrəndiklərini sala bilərsiniz. Bu, keçmiş dərslə əlaqə deməkdir. «Parçalanmış Qərbi Hun imperiyasının yerində hansı dövlətlər yarandı?» sualı şagirdlərin fərziyyələr söyləməsinə imkan verəcək. Növbəti sualınız: «Necə oldu ki, Göytürk, Uyğur və Oğuz xaqanlıqları yarandı?» ola bilər. Şagirdlərin fikirlərini ya lövhədə, ya da filipçartda qeyd edib şaxələndirmək olar.

Şagirdlərin araşdırma imkanı olsun deyə onları mətnlə tanış etməlisiniz. Bu zaman köməyinizə bir neçə üsul çata bilər. Tövsiyə olunan üsullardan biri insert üsuludur. Bu üsulun vasitəsilə C blokundakı mətni şagirdlərə oxudarkən müzakirə şəraiti yaratmanız dərsi maraqlı edəcəkdir. Bu zaman şagirdlərin düşünməsi üçün B blokundakı suallardan istifadə edin. Yeri gələrsə, tapşırıqlar verməyi də unutmayın. Məsələn, şagirdlərə fərdi olaraq tapşırmaq olar ki, Göytürk xaqanlığında feodal nərdivanını sxemləşdirsinlər. «*Göytürk dövləti nə üçün parçalandı?*» sualı ilə isə şagirdlərdə məntiqi və tənqidi təfəkkürü formalaşdırmış olarsınız.

Mətnin təhlili zamanı D blokuna aid xəritə və şəkillər üzrə iş də apara bilərsiniz. E blokuna aid illüstrasiya isə Göytürklərin qələbəsinin əyani vasitəsidir. Şagirdlərin öyrənmə tərzinə bələd olduğunuza görə yaxşı bilirsiniz ki, bu cür illüstrasiyalar, ümumiyyətlə, şəkil və xəritələr əyani öyrənmə tərzinə malik olan şagirdlər üçün çox əhəmiyyətlidir.

Tədqiqatın aparılmasını kollektiv və fərdi şəkildə təşkil edə bilərsiniz. Hər hansı iş formasını seçməyinizdən asılı olmayaraq, mətni şagirdlərə oxutmamış-

dan öncə tədqiqat sualını qoymanız tövsiyə olunur. Tədqiqat sualı belə ola bilər: «Göytürk, Uyğur və Oğuz xaqanlıqlarının türk xalqlarının tarixində izi nədən ibarətdir?»

Sonra şagirdlər, öncə qeyd etdiyimiz kimi, müzakirəli oxuya cəlb edilməlidir. Bu zaman kitabdakı mövzuya aid tapşırıqlar kollektiv və ya fərdi şəkildə yerinə yetirilməkdən ötrü tapşırıla bilər.

Bu mövzunun tədqiqi qruplarla işin təşkili üçün də səmərəli ola bilər. Şagirdlərə B və ya G blokundakı tapşırıqlardan verməniz məsləhətdir. Qrup işlərinin icrası üçün ayrılan vaxt bitdikdən sonra məlumatın mübadiləsi mərhələsi başlanır. Qrupların işlərini qrup liderləri təqdim etsələr daha yaxşı olar. Mübadilələrdən sonra müzakirənin təşkili vacibdir. Müzakirələrdən sonra isə nəticələrin çıxarılması mərhələsi olmalıdır. Nəticələrin çıxarılması dedikdə şagirdlərin məqsədəuyğun nəticəyə gəlməsindən danışılır. Yəni nəticəyə müəllim deyil, öyrəndikləri əsasında məhz şagirdlər gəlməlidirlər.

Dərs zamanı refleksiya etməyə çalışın. Refleksiya zamanı şagird öyrəndiklərini bir növ təkrar yada salır. E və G blokundakı tapşırıqlardan birindən istifadə etmək olar.

Qiymətləndirməni apararkən məqsədəuyğun olar ki, şagirdlərin *sistemləşdirmə və şərhetmə* bacarıqları əsas götürülsün. Qiymətləndirməni dərsin bütün mərhələlərində aparmaq olar.

**Qiymətləndirmə meyarları:** *sistemləşdirmə, şərhetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Türk xaqanlıqlarının tarixini xronoloji qaydada sistemləşdirməyi düzgün aparmır. | Türk xaqanlıqlarının tarixini xronoloji qaydada sistemləşdirərkən köməkdən istifadə edir. | Türk xaqanlıqlarının tarixini xronoloji qaydada sistemləşdirərkən bəzi səhvlərə yol verir. | Türk xaqanlıqlarının tarixini xronoloji qaydada asanlıqla sistemləşdirir. |
| Göytürk, Uyğur və Oğuz xaqanlıqlarının tarixini şərh etməkdə çətinlik çəkir. | Göytürk, Uyğur və Oğuz xaqanlıqlarının tarixini sualların köməyi ilə şərh edir. | Göytürk, Uyğur və Oğuz xaqanlıqlarının tarixini şərh edərkən bəzi səhvlərə yol verir. | Göytürk, Uyğur və Oğuz xaqanlıqlarının tarixini ətraflı şərh edir. |

## MÖVZU 3. AVARLAR, XƏZƏRLƏR VƏ BULQARLAR

***Məzmun standartı:***

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.
2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.
3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

***Təlim məqsədi:***

1. Türk xalqlarının tarixində baş vermiş faktların sinxronluğunu müəyyənləşdirir.
2. Qərbi Hun imperiyasının dağılmasından sonra türklərin siyasi həyatındakı məlumatları xəritə əsasında təhlil edir.
3. Bu dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı diaqram hazırlayır.

***İnteqrasiya:***

Az-t. 1.1.2.

Dərsi təşkil etmək üçün strategiyalarınızı düzgün müəyyənləşdirməlisiniz. Bu dərsin tədrisində müxtəlif iş formalarından istifadə etmək mümkündür. Lakin mövzu irihəcmli olduğu üçün sizə qruplarla iş üsulu tövsiyə olunur. Dərsdə Venn diaqramı, xronoloji cədvəl, müzakirə kimi üsullardan istifadə etmək olar. Resursları isə əvvəlcədən müəyyənləşdirməlisiniz.

A blokundan istifadə etməklə motivasiya qura bilərsiniz. Motivasiya zamanı bir neçə türk dövlətinin yaranması, inkişafı və süqutu prosesini təhlil etməyə çalışın. Dediyimiz kimi mövzu bir qədər həcmli və mürəkkəbdir. Söhbət dörd fərqli dövlətdən gedir. Buna görə də, ilk növbədə, çox qısa bir zamanda şagirdlərdə düzgün ilkin təsəvvür formalaşdırmalısınız. Onlar əvvəlcə anlamalıdırlar ki, bu dövlətlər fərqli olduqları qədər də bir-biri ilə bağlıdırlar. Həmin bağlar, bir neçə əsr əvvəl dağılmış Böyük Hun imperiyası və bu ərazilərdə yaşayan türksoylu xalqlardır. Motivasiya məntiqi olaraq tədqiqat sualını bu şəkildə formalaşdıracaq: Qərbi Hun imperiyası dağıldıqdan sonra Avropada hansı türk dövlətləri yarandı? Yaranan bu dövlətlərin sonrakı aqibəti necə oldu? Bu dövlətlər Avropanın müasir siyasi xəritəsində hər hansı bir dəyişikliklərə səbəb oldularmı?

Mətn geniş məzmunlu olduğundan tədqiqatı qruplarla aparmaq daha məqsədəuyğundur. Mətndə dörd dövlətdən danışılır. Hər qrupa bir dövlət haqqında tədqiqat aparmaq tapşırığı verin. Qarşıya qoyulmuş standartları nəzərə almaqla B blokundakı sual və tapşırıqlardan istifadə etmək də mümkündür. Bunun üçün qruplara hər bir dövlətin tarixini, ona aid xəritə (C və D bloku) və illüstrasiyaları (E bloku) əhatə edən materiallar paylamaq məqsədəuyğun olar.

Mübadilə zamanı qrup liderləri verilən tapşırıqların cavabını təqdim edirlər. Bu zaman şagirdlər hər dörd dövlət haqqında məlumatlanırlar. Müzakirə zamanı B və G blokunda təqdim olunan sual və tapşırıqların köməyi ilə dövlətləri Venn diaqramı vasitəsilə müqayisə etmək olar.

Nəticəyə gəlmək üçün dərsin məqsədinə imkan yaradan yönləndirici suallar verin. Həmçinin xəritədən istifadə etməklə bu dövlətlərin ərazisini Avropanın müasir xəritəsindəki ərazilərlə müqayisə etmək mümkündür. Belə olarsa, şagirdlər türk dövlətləri haqqında əyani görüntülərə əsaslanıb daha çox məlumat öyrənə biləcəklər.

Məqsədin tam reallaşması üçün ev tapşırığına ehtiyac var. Tapşırıqlar həm fərdi, həm də qrup şəklində verilə bilər. Nəzərə alsaq ki, «Ümumi tarix» fənni həftədə bir dəfə keçirilir, qruplar sərbəst şəkildə Avar, Xəzər, Avropa, Bulqar türk dövləti və İdil Bulqar türk dövləti haqqında təqdimatlar hazırlaya bilərlər.

Qiymətləndirmə dərs boyu və meyarlara əsasən müəyyənləşdiriləcək.

**Qiymətləndirmə meyarları:** *müəyyənləşdirmə, təhliletmə, diaqram hazırlama*

| I | II | III | IV |
|---|---|---|---|
| Müəyyənləşdirmədə çətinlik çəkir. | Müəyyənləşdirmə apararkən sualların köməyindən istifadə edir. | Müəyyənləşdirmədə bəzi səhvlərə yol verir. | Asanlıqla müəyyənləşdirir. |
| Təhlil etməkdə çətinlik çəkir. | Müəllimin köməkliyi ilə təhlil edir. | Təhlil etməyə çalışır. | Asanlıqla təhlil edir. |
| Bu dövlətlərin oxşar və fərqli cəhətlərini aşkar edə bilmir. | Bu dövlətlərin oxşar və fərqli cəhətlərini aşkar etməkdə çətinlik çəkir. | Bu dövlətlərin oxşar və fərqli cəhətlərini aşkar edib mətndəki məzmuna əsasən diaqram hazırlayır. | Bu dövlətlərin oxşar və fərqli cəhətlərini aşkar edib faktlara əsasən mühakimə yürütməklə diaqram hazırlayır. |

## MÖVZU 4. BÖYÜK İPƏK YOLUNUN BAŞLANDIĞI ÖLKƏ

***Məzmun standartı:***

2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.
2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

***Təlim məqsədi:***

1. Çində feodal münasibətlərinin yaranmasını və inkişafını onun coğrafi və siyasi mövqeyi ilə əlaqələndirir.
2. Çinin apardığı işğalları, həmçinin onun monqollar tərəfindən işğal olunmasını, mancur ağalığını xəritələrdəki məlumatlar əsasında təhlil edir.

***İnteqrasiya:***

İnf. 3.2.3.; C. 3.1.1.; Az-t. 2.1.2.

Bu mövzunun tədrisi üçün daha səmərəli təlim forması qruplarla işləməkdir. Bu təlim formasının tətbiqi üçün isə Venn diaqramı və müzakirə üsullarından istifadə etmək səmərə verər.

VI sinif «Ümumi tarix» dərsliyində Çinə kifayət qədər yer verildiyindən şagirdlər artıq bu ölkə haqqında məlumatlıdırlar. Beyin həmləsi üsulundan istifadə etməklə Çin haqqında onlardan bildiklərini soruşmaq olar. Çünki onlar Böyük Çin səddi, Böyük İpək yolu haqqında bilir, Konfutsini tanıyırlar. A blokuna nəzər yetirmək tövsiyə olunur. Məntiqi olaraq şagirdlərdə müəyyən suallar formalaşacaq ki, bu yolla tədqiqat sualını da seçmək mümkündür. Məsələn, Çinin taleyi necə oldu? Çinin sonrakı inkişaf xətti dünya tarixinə hansı yeniliklər gətirdi? Bu mənada, A blokunda qeyd olunan motivasiya sizə yardımçı ola bilər.

Tədqiqata başlamazdan öncə feodalizmin Çindən başladığı haqqında kiçik məlumat verin. C blokundan istifadə edə bilərsiniz. Bu mənada, tədqiqatı feodalizmin xüsusiyyətlərini araşdırmaqla aparmaq daha məqsədəuyğun olar. Çində feodalizm özünəməxsus xüsusiyyətlərə malik idi. Çində feodal münasibətlərinin xüsusiyyətlərini, onların inkişafını şagirdlər özləri aşkar etməlidirlər. Bunun üçün sinfi kiçik qruplara ayırmaq olar. Əvvəlcə C blokundan istifadə etməklə «Fasiləli oxu» üsulundan faydalana bilərsiniz. Bu zaman müəllim vaxtaşırı müəyyən məlumatlar verib, şagirdlərin diqqətini dərslikdəki D və E blo-

kunda olan xəritə, şəkil və illüstrasiyalara cəlb edə bilər. B və G blokunda qeyd olunan məqsədəmüvafiq tapşırıqlar isə qrup işini təşkil etməkdən ötrü köməkçi vasitələrdir. Mətndəki mövzuları material kimi paylayaraq təqdim etmək mümkündür.

Şagirdlər işlərini təqdim etdikdən sonra suallarla sinfə müraciət edə bilərsiniz: Dövlət nə üçün torpaqlarının artmasını istəyirdi? Bu məqsədlə Çin hansı əraziləri işğal etdi? Torpağın dövlətin mülkiyyəti elan olunması feodal münasibətlərinə nə kimi təsir göstərirdi? Necə oldu ki, feodallar dövlət torpaqlarını mənimsəməyə başladılar? Feodalların mənimsədikləri torpaqlar hansı mülkiyyətin yaranmasına gətirib çıxardı? və sair. Bu zaman F və E blokuna daxil olan illüstrasiyalardan istifadə etmək məsləhətdir.

Məqsədə istiqamətlənmiş sualların cavabı lövhədə qeydə alınır. B blokuna daxil olan suallardan da istifadə etmək olar. Şagirdlər sonda bu qeydləri bir daha oxumaqla nəticəyə nail olacaqlar.

G blokundakı yaradıcı tapşırığı ev tapşırığı kimi vermək mümkündür («Çində Böyük Kanal çəkilir» mövzusunda adlı esse yazın).

Qiymətləndirmə məqsədəuyğun meyarlara əsasən aparılır.

**Qiymətləndirmə meyarları:** *əlaqələndirmə, təhliletmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Əlaqələndirmədə çətinlik çəkir. | Əlaqələndirməni sualların köməyi ilə aparır. | Əlaqələndirmədə bəzi səhvlərə yol verir. | Asanlıqla əlaqələndirir. |
| Təhliletməni çətinliklə reallaşdırır. | Müəllimin köməyi ilə təhlil edir. | Təhlil edərkən nöqsanlara yol verir. | Asanlıqla təhlil edir. |

## MÖVZU 5. İRAN VƏ QAFQAZ

***Məzmun standartı:***

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.
2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.
3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***Təlim məqsədi:***

1. İran və Qafqazda orta əsrlərdə baş verən tarixi hadisələrin xronoloji cədvəlini hazırlayır.
2. Qafqazda feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların hayatında baş verən hadisələrlə əlaqələndirir.
3. Sasani dövlətinin, həmçinin Qafqazda digər dövlətlərin yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***İnteqrasiya:***

H-b. 2.1.1., 2.1.2.; Az-t. 3.1.2., 3.1.3.

İran dövləti haqqında VII sinif şagirdləri məlumatlıdırlar. Bu dövlətin qədim tarixini hələ VI sinif dərsliyində araşdırmışlar. Lakin III əsrin əvvəllərində İranda yeni bir dövlətin əsası qoyulur. Dərslikdəki müvafiq mətnin A blokunda bu haqda motivasiya xarakterli məlumat verilmişdir. Görəsən, bu yeni dövlət əvvəlkilərdən nə ilə fərqlənib? Onun dünya xalqlarının tarixində hansı rolu olub? Tədqiqat sualı da A blokunda məqsədəuyğun şəkildə verilmişdir: 400 il ərzində böyük coğrafi məkanı idarə etmiş Sasanilər dövlətinin tarixi inkişaf xətti nədən ibarət idi? Sasanilərdən sonra Qafqazın taleyi necə oldu?

Mətndə mövzuya uyğun, bloklara daxil olmuş kifayət qədər sual, tapşırıq, şəkil, illüstrasiya, xəritə verilmişdir. Tədqiqatı bu vasitələrin köməyi ilə təşkil etmək mümkündür. Müəllim mətni 4 hissəyə ayıra bilər: 1. Sasanilər dövlətinin yaranması və feodalizm; 2. Xalq ədalətli cəmiyyət istəyir; 3. Sasanilər dövlətinin zəifləməsi və süqutu; 4. Qafqazda feodalizm və xarici təcavüz. C və D blokundan istifadə etməklə paylama materialları və iş vərəqləri hazırlanmalıdır. Paylama materiallarında mətnin hissələri ayrı-ayrı qeyd olunarsa, daha səmərəli olar. İş vərəqlərində isə E və G bloklarındakı sual və tapşırıqlar əsasında hafizə, məntiqi, tənqidi və yaradıcı yönümlü tapşırıqlar verilə bilər, şagird evdə də yerinə yetirə bilər. Müəllim yaradıcılığına güvənib şagirdlərə evdə yerinə yetir-

məkdən ötrü yaradıcı tapşırıq verməkdə azaddır. Standartlara uyğun müzakirə, xronoloji cədvəl, şaxələndirmə kimi üsullardan istifadə etmək mümkündür.

Qruplar işlərini təqdim etdikdən sonra müəllim şagirdlərlə müzakirəyə başlayır: «Sasanilər dövlətinin tərkibinə hansı xalqların əraziləri daxil idi? Qafqazda hansı xalqlar yaşayırdı? Nə üçün Qafqaz yadelli dövlətlərin işğallarına məruz qaldı?» və sair suallar cavablandırılır. Həm Sasanilər dövlətinin tərkibində, həm də Qafqazda Azərbaycanın aparıcı mövqeyi xüsusi vurğulanmalıdır. B blokunda bu məqsədə xidmət edən suallara verilən cavablar qeydə alınmalı və ümumiləşdirmə aparılmalıdır. Beləliklə, Sasanilər dövlətinin zəifləməsi və süqutu səbəbləri göstərilir.

G blokundakı 2-ci sual ev tapşırığı kimi verilə bilər.

Qiymətləndirmə dərs boyu və meyarlara əsasən aparılır.

**Qiymətləndirmə meyarları:** *cədvəl hazırlama, əlaqələndirmə, şərhetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Cədvəl hazırlamada çətinlik çəkir. | İran və Qafqazda orta əsrlərdə baş verən tarixi hadisələrin xronoloji cədvəlini hazırlamağa çalışır. | İran və Qafqazda orta əsrlərdə baş verən tarixi hadisələrin xronoloji cədvəlini müəllimin köməyi ilə hazırlayır. | İran və Qafqazda orta əsrlərdə baş verən tarixi hadisələrin xronoloji cədvəlini hazırlayır. |
| Əlaqələndirmədə çətinlik çəkir. | Bu bölgədə feodal münasibətlərin yaranmasını və inkişafını dövlətlərin və xalqların həyatında baş verən hadisələrlə əlaqələndirməyə çalışır. | Bu bölgədə feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların həyatında baş verən hadisələrlə əlaqələndirir. | Bu bölgədə feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların həyatında baş verən hadisələrlə əlaqələndirir, mülahizələrini söyləyir, faktlar göstərir. |
| Şərh etməkdə çətinlik çəkir. | Şərh edərkən köməkdən istifadə edir. | Şərhetmədə səhvlərə yol verir. | Şərhetməni asanlıqla reallaşdırır. |

## MÖVZU 6. ƏRƏB XİLAFƏTİ

***Məzmun standartı:***

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.
2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.
3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***Təlim məqsədi:***

1. Ərəb xilafətinin formalaşması haqqında xronoloji sxem tərtib edir.
2. Ərəblərdə İslam dininin yaranması ilə dövlətin yaranmasının eyni zamanda baş verməsi səbəblərini feodal münasibətlərinin formalaşması ilə əlaqələndirir.
3. Ərəb xilafətinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***İnteqrasiya:***

Az-t. 3.1.2.; İnf. 3.2.3.; T-i. 1.3.1.

Azərbaycanda yaşayan əhalinin əksəriyyəti İslam dininə sitayiş edir. Bəs, görəsən, bir çox xalqların mənəvi həyatına nüfuz edən İslam necə yaranıb? Onun əsasını kim qoyub? İslam dünya dininə belə sürətlə necə çevrilə bilib? A blokunda verilən motivasiya şagirdlərin marağına səbəb ola bilər. Bununla belə, mövzunu daha da rəngarəng və maraqlı edən motivasiya şagirdlərdə tədqiqat sualını da formalaşdırar: Necə oldu ki, İslam dünyada aparıcı dinlərdən birinə çevrildi? İslamın yayılmasında hansı dövlətin rolu daha çox olub? İslamın yayıldığı ərazilər necə adlanır? Ərəb xilafətinin yaranmasında İslam vasitə idi, yoxsa səbəb?

Tədqiqat sualını cavablandırmaq üçün sinfi iki hissəyə ayırmaq daha məqsədəuyğundur. Qruplardan biri İslamın rolunu daha çox dəyərləndirir, ikincisi isə ərəb işğallarında İslamın vasitə rolunun olduğunu qeyd edir. Debata başlamazdan əvvəl C blokundakı mətnin müəyyən hissələri «Fasiləli oxu» üsulu ilə şagirdlərə çatdırılır. Proyektorla görüntülü məlumatlar versəniz dərs daha rəngarəng alınar. Əvvəlcə İslamın yarandığı məkan, onun yaranmasında iştirak edən xalq, ərəblərin sosial-iqtisadi vəziyyəti, Məhəmməd peyğəmbər haqqında məlumat verilir. Bu zaman bir neçə sual yaranır: Ərəblərdə icma münasibətləri

nə üçün uzun zaman mövcud olub? Ərəblərin həyatında ticarətin yeri nədən ibarət idi? Bu zaman B blokunun suallarından da istifadə etmək tövsiyə olunur.

Müzakirədən sonra yenidən «Fasiləli oxu» üsulu ilə C blokundakı Ərəb xilafətinin formalaşması haqqında məlumatlar dinlənilir. Müəllimin köməyi ilə şagirdlər ərəb işğallarının xronoloji cədvəlini tərtib edir, onları xəritədə göstərirlər. B blokundakı müvafiq suallar cavablandırılmalıdır. Məsələn, Sasanilər dövlətini işğal etməklə ərəblər nəyə nail oldular? Ərəb işğalları Avropada nə zaman dayandırıldı? D blokundakı xəritələrdən istifadə etmək məsləhətdir.

Debat davam etdirilərək Ərəb xilafətinin idarə olunması haqqında məlumat dinlənilir. Şagirdlər E blokundakı «Ərəb xilafətinin idarə olunması və mülkiyyət formaları» haqqında sxemi müzakirə edirlər: İslam dini xristianlıqdan nə ilə fərqlənirdi? Nə üçün insanlar İslam dinini qəbul edirdilər? O xalqlara nə vəd edirdi? G blokunda 1-ci suala cavab axtarılır. Mülahizələr dinlənilir və əsaslandırılır. Müzakirələr zamanı suallara verilən cavablar müəllim tərəfindən ümumiləşdirilir, şagirdlər isə nəticə çıxarır.

G blokundakı 2 tapşırıq evdə işləmək üçün verilə bilər. Şagirdlər əlavə mənbələrdən istifadə etməklə məqsəddə göstərildiyi kimi «Məhəmməd peyğəmbərin həyatı» haqqında təqdimat hazırlaya bilərlər.

Qiymətləndirmə dərs boyu və meyarlara əsasən aparılır.

**Qiymətləndirmə meyarları:** *xronoloji sxem tərtibetmə, əlaqələndirmə, şərhetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Xronoloji sxem tərtib etməkdə çətinlik çəkir. | Xronoloji sxem tərtib edərkən səhvlərə yol verir. | Müəllimin köməyi ilə xronoloji sxem tərtib edir. | Sərbəst şəkildə xronoloji sxem tərtib edir. |
| Əlaqələndirmə apararkən çətinlik çəkir. | Əlaqələndirməni müəllimin köməyi ilə edir. | Əlaqələndirmə apararkən bəzi səhvlər edir. | Asanlıqla əlaqələndirir. |
| Şərh etməkdə çətinlik çəkir. | Şərh edərkən müəllimin köməyindən istifadə edir. | Şərh etməyə çalışır. | Ətraflı şərh edir. |

## MÖVZU 7. XİLAFƏTİN PARÇALANMASI

***Məzmun standartı:***

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.
2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.
3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

***Təlim məqsədi:***

1. Ərəb xilafətinin parçalanması nəticəsində yaranmış dövlətləri sinxron müəyyənləşdirir.
2. Xilafətin parçalanması nəticəsində yaranan dövlətlərin həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.
3. Xilafətin parçalanması nəticəsində yaranmış dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

***İnteqrasiya:***

İnf. 2.1.2.; Az-t. 3.1.3.

A blokunda göstərildiyi kimi, Xilafətin dağılması nəticəsində bir sıra dövlətlər yaranıb. Bu dövlətlərin əksəriyyəti müasir dünyanın siyasi xəritəsində yer almış ölkələrin tarixində müəyyən rola malik olub. Mövzunun tədqiqat sualı belə olar: Xilafətin parçalanmasına səbəb nə idi? Onun ərazisində hansı dövlətlər yarandı?

Tədqiqat diskussiya şəklində aparılır. Şagirdlər Xilafətin ərazisində müstəqil dövlətlərin yaranma amillərini sadalamalı, iqta torpaq sahibliyinin imperiyanın parçalanmasındakı rolunu müəyyənləşdirməlidirlər. Siz D blokundakı xəritədən istifadə etməklə Xilafət ərazisində yaranmış dövlətlərin xronoloji cədvəlini hazırlayıb sinfə təqdim edə bilərsiniz. C blokundan istifadə etməklə şagirdlərin sadaladığı dövlətləri lövhədə yazın, şagirdlərdən bir neçəsi isə həmin dövlətləri xəritədə göstərsinlər. İşinizi rahatlaşdırmaq üçün G blokunda müəyyən tapşırıq, B blokunda isə suallar təqdim olunmuşdur. Məntiqi, tənqidi və təfəkküryönümlü tapşırıqlar seçin və suallar şəklində təqdim edin. Cavablar əsasında bu dövrdə yaranmış dövlətlərin şaxələndirməsini də tərtib etmək olar. Bu dövlətlərin oxşar və fərqli tərəfləri Venn diaqramı vasitəsilə müqayisə

olunur. E blokunda qeyd olunan illüstrasiya və şəkillərə əsasən isə həm bu dövlətlərin bir-biri, həm də Azərbaycan dövlətləri ilə mövcud olmuş əlaqələri araşdırılır. Lövhədə və ya İKT vasitəsilə qeydlər aparmaq məsləhətdir.

Mübadilə və müzakirə nəticənin əldə olunmasına xidmət edir. Siz yönləndirici suallarla sinfə müraciət edə bilərsiniz: Xilafət parçalandıqdan sonra hansı dövlətlər yarandı? Onlardan hansılar Azərbaycan ərazisində mövcud idi? Bu dövlətlərdən hansılar daha güclü idilər?

Siz lövhədə aparılan qeydləri ümumiləşdirərək yekun nəticəyə gəlməkdə şagirdlərə kömək edirsiniz. Şagirdlər qarşıya qoyulan məqsədə nail olduqlarını dərk etməlidirlər.

Ev tapşırığı kimi «Xilafətin parçalanması nəticəsində formalaşmış dövlətlərin xəritəsi»ni tərtib etməyi tapşıra bilərsiniz.

Qiymətləndirmə dərs boyu və meyarlara əsasən aparılır:

**Qiymətləndirmə meyarları:** *müəyyənləşdirmə, təhliletmə, cədvəl və diaqram hazırlama*

| I | II | III | IV |
|---|---|---|---|
| Müəyyənləşdirmədə çətinlik çəkir. | Müəyyənləşdirmədə nöqsanlara yol verir. | Müəyyənləşdirməni sualların köməyi ilə reallaşdırır. | Sərbəst şəkildə reallaşdırır. |
| Təhlil etməkdə çətinlik çəkir. | Təhliletməni müəllimin köməyi ilə aparır. | Təhliletmədə bəzi səhvlərə yol verir. | Asanlıqla təhlil edir. |
| Cədvəl və diaqramlar hazırlamaqda çətinlik çəkir. | Cədvəl və diaqramları müəllimin köməyi ilə hazırlayır. | Cədvəl və diaqramlar hazırlayır, lakin cüzi səhvlərə yol verir. | Cədvəl və diaqramlar hazırlayır, şaxələndirmə qurur. |

## MÖVZU 8. TÜRK VƏ QAFQAZ XALQLARININ XƏZİNƏSİ. İSLAMIN TÖHFƏLƏRİ

***Məzmun standartı:***

5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.
5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

***Təlim məqsədi:***

1. İslam mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.
2. Türk xalqlarının mədəniyyətinə dair materiallar toplayır.

***İnteqrasiya:***

Az-t. 5.1.3.; Ə. 3.1.2.

Bu mövzunun tədrisi üçün qabaqlayıcı tapşırığın verilməsi məqsədəuyğun olar. Mövzunun adı elan ediləndən sonra şagirdlərə tapşırılır ki, türk xalqlarının mədəniyyətinə dair materiallar toplasınlar.

Dərs beyin həmləsi üsulunu tətbiq etməklə başlanır. Bu zaman A blokundakı motivasiya sizin üçün vasitə ola bilər. Yaxud da dünya mədəniyyətinin müxtəlif nümunələrinin şəkillərindən ibarət slaydları şagirdlərə təqdim etmək olar. Bu zaman şagirdlərin üzərində sanki diaqnostik qiymətləndirmə aparmış olacaqsınız. Əgər onlar Türk xalqlarının mədəniyyətinə dair materiallar toplayıblarsa, o zaman fikir söyləyə biləcəklər. C blokundakı mətn haqqında məlumatlı olduqları üçün şagirdlərin diqqətini B blokuna aid sual və tapşırıqlara cəlb etmək lazımdır. Onları tədqiqata cəlb etməzdən əvvəl sualları müzakirəyə çıxarın. Şagirdlərin fikirlərini flipçartda, ya da lövhədə qeydə alın. D blokundakı şəkillər şagirdlərin maraqlarına səbəb olacaq. Onlara bu şəkillər haqqında suallar verin. Çalışın ki, araşdırdıqları materiallardan öyrəndiklərini söyləyə bilsinlər.

Bu mövzunun tədrisində debat üsulunu tətbiq edin. Debat zamanı belə bir sual verilə bilər: Türk xalqları İslam mədəniyyətini necə formalaşdırdı?

Debat zamanı sinfi 3 qrupa bölün. Birinci qrup «lehinə», digər qrup «əleyhinə» fikirlər söyləsinlər. Üçüncü qrup isə ekspert qismində çıxış etsin. Tərəflərin faktlar gətirməsi əsas şərtdir. Hər iki tərəf ekspertləri inandırmalıdır.

Bu mövzunun tədrisini digər bir formada sinfi 4 qrupa bölməklə də aparmaq olar. Bu zaman tədqiqat sualı fərqli qoyula bilər: Şərq mədəniyyəti dünyaya nə verdi? G blokunda olan tapşırıqlardan verə bilərsiniz. Şagirdlərə

işləmək üçün özlərinin topladıqları materiallardan da istifadə etməyi tapşırmaq olar. Onlar şəkillərdən, illüstrasiyalardan istifadə edərək işi daha zəngin edə bilərlər. Sinifdə kompüter olarsa, işin görüntülü təqdim edilməsi daha məqsədəuyğundur.

Məlumatların mübadiləsindən sonra qrup və fərdi qiymətləndirmə aparın. Nəticə və ümumiləşdirmələri şagirdlərlə birgə aparmağınız məsləhətdir.

Ev tapşırığı olaraq «İslam mədəniyyəti» adlı esse yazmağı, yaxud bu mövzunu testləşdirməyi tapşıra bilərsiniz. Əsas odur ki, şagirdlər dərsdə mövzunu mənimsəmiş olsunlar. Ev tapşırığı isə işi daha səmərəli etsin.

**Qiymətləndirmə meyarları:** *müəyyənetmə, materialtoplama*

| I | II | III | IV |
|---|---|---|---|
| İslam mədəniyyətinin dünya mədəniyyətinə təsirini çətinliklə müəyyən edir. | İslam mədəniyyətinin dünya mədəniyyətinə təsirini sualların köməyi ilə müəyyən edir. | İslam mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edərkən bəzi yanlışlıqlar edir. | İslam mədəniyyətinin dünya mədəniyyətinə təsirini faktlara əsasən müəyyən edir. |
| Türk xalqlarının mədəniyyətinə dair materiallar toplamaqda çətinlik çəkir. | Türk xalqlarının mədəniyyətinə dair materialları müəllimin köməyi ilə toplayır. | Türk xalqlarının mədəniyyətinə dair materiallar toplayarkən bəzi səhvlər edir. | Türk xalqlarının mədəniyyətinə dair materiallar toplayır. |

# MÖVZU 9. SƏLCUQ İMPERATORLUĞU

***Məzmun standartı:***

1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.
3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.
4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin rolunu izah edir.

***Təlim məqsədi:***

1. Səlcuq yürüşlərini xronoloji qaydada sistemləşdirir.
2. Səlcuq imperiyasının yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.
3. Tanınmış Səlcuq sultanlarının rolunu tarixi faktlara əsasən izah edir.

***İnteqrasiya:***

Az-t. 4.1.1.; H-b. 2.1.1.

Türklərin qədim dövlətçilik ənənəsini davam etdirən Səlcuqlar orta əsrlərdə ən böyük imperiyalardan birini yarada bilmişdilər. Onlar tarixi məkanın etnik və mədəni vəziyyətini dəyişdirməyə nail olmuşdular. Səlcuqlardan sonra Şərqdə türklərin minillik hakimiyyəti başlayır. İslamın dayaqları daha da möhkəmlənir. Bəs Səlcuqlar kim idi? Bu möhtəşəm imperiya necə yaranmışdır? Onun dağılmasından sonra nə baş verdi? A blokundakı məlumatlardan istifadə edərək motivasiyanı məqsədəuyğun şəkildə formalaşdıra bilərsiniz. Motivasiya şagirdlərdə məntiqi bir sual yaradacaq: Səlcuqların tarixdə rolu nədən ibarət olmuşdur? Bu sualla siz tədqiqat sualını da müəyyənləşdirə bilərsiniz.

Tədqiqatı aparmazdan öncə proyektorla Səlcuq sultanları haqqında məlumat verə bilərsiniz. Bu dərsin genişliyinə və məzmun etibarilə zənginliyinə görə ziqzaq üsuluna müraciət etməyiniz məsləhətdir. Məlumdur ki, bu üsulda sinif 4 bərabər qurupa bölünür. Üsulun tələblərinə uyğun olaraq, C blokundakı mətn 4 hissəyə ayrıla və paylama materiallarında qruplara təqdim edilə bilər: 1. Dəndənəkan döyüşü və onun əhəmiyyəti; 2. Qərbin və Şərqin hökmdarı; 3. «İslamın nuru»; 4. Süquta uğrayan imperiyanı heç nə xilas edə bilmədi. Qrup üzvləri nömrələnir və ekspertlər təyin olunur. Hər ekspertə qrupuna uyğun paylama materialı verilir və mənimsənilir. Vaxt bitdikdən sonra ekspertlər öz yerlərinə qayıdırlar və öyrəndiklərini qrupdakı yoldaşlarına başa salırlar. Bu

mərhələyə də müəyyən vaxt ayrılır. Daha sonra müəllim G blokundan istifadə etməklə hazırladığı iş vərəqlərini qruplara paylayır. Şagirdlər müzakirələr apararaq tapşırıqları cavablandırırlar. B blokundakı suallardan istifadə edə bilərsiniz: Səlcuqlar hansı soydan idilər? Dəndənəkan döyüşü Səlcuqlara hansı yolu açır? Nə üçün xəlifə Alp Arslana «İslamın nuru» titulunu verir? Səlcuq işğalları dünyanın siyasi simasında hansı dəyişikliklər edir? Səlcuq imperiyasının dağılmasının başlıca səbəbləri nə idi? Bu sualları cavablandırmaqla ümumiləşdirmə və nəticə əldə etmək mümkündür.

Yaradıcı tətbiqetməni ev tapşırığında ifadə edə bilərsiniz. F blokundan istifadə etməklə «Tanınmış Səlcuq imperatorları» və ya ümumiyyətlə, «Səlcuq imperiyası» haqqında təqdimatlar hazırlamaq olar. Ən yaxşı işləri resurs kimi saxlaya bilərsiniz.

**Qiymətləndirmə meyarları:** *sistemləşdirmə, şərhetmə, izahetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Səlcuq yürüşlərini xronoloji qaydada sistemləşdirməkdə çətinlik çəkir. | Səlcuq yürüşlərini yoldaşlarının köməyi ilə xronoloji qaydada sistemləşdirir. | Sistemləşdirərkən xırda qüsurlara yol verir. | Səlcuq yürüşlərini sərbəst şəkildə xronoloji qaydada sistemləşdirə bilir. |
| Səlcuq imperiyasının yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini müəyyənləşdirə bilmir və şərh etmir. | Səlcuq imperiyasının yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini çətinliklə müəyyənləşdirir və şərh edir. | Səlcuq imperiyasının yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini yoldaşlarının köməyi ilə müəyyənləşdirir və şərh edir. | Səlcuq imperiyasının yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi münasibətlərini müəyyənləşdirir və şərh edir. |
| Tanınmış Səlcuq sultanlarının rolunu tarixi faktlarla izahetmədə çətinlik çəkir. | Tanınmış Səlcuq sultanlarının rolunu tarixi faktlara əsasən izah etməyə çalışır. | Tanınmış Səlcuq sultanlarının rolunu tarixi faktlarla yoldaşlarının köməyi ilə aşkar edir və onlara əsasən izah edir. | Tanınmış Səlcuq sultanlarının rolunu sərbəst şəkildə tarixi faktlarla aşkar edir və onlara əsasən izah edir. |

# MÖVZU 10. HİNDİSTAN VI–XVI ƏSRLƏRDƏ

***Məzmun standartı:***

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.
3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***Təlim məqsədi:***

1. Moğol dövlətinin ərazisini xəritə əsasında təhlil edir.
2. Qupta imperiyası, Dehli sultanlığı və Moğol dövlətinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***İnteqrasiya:***

H-b. 2.2.1.; Az-t. 3.1.2.

Müəllim şagirdlərə A blokuna əsasən suallarla müraciət edir. Təbii ki, suallar nə qədər maraqlı olarsa, şagirdlərin diqqətini bir o qədər cəlb etmək mümkündür. Digər fənlərlə bağlılıq mövzunu daha da aktuallaşdırar. Məsələn, rəqəmlər harada yaranıb? Şahmat oyunu hansı xalqa məxsusdur? Asiyanın cənubunda yaranmış dövlətləri tanıyırsınızmı? və s. suallar verməklə şagirdlərdə söhbətin Hindistan haqqında olacağı təəssüratını yaratmaq əsas şərtdir. Onlar mövzunu bildikdən sonra şagirdlərə bu ölkənin qədim tarixi haqqında suallar da ünvanlaya bilərsiniz. Bu zaman tədqiqat sualını formalaşdıracaq məntiqi suallar da yarana bilər: Ərəb xilafətinin parçalanmasından sonra Şərqdə mövqeyini artıran türk dövlətlərinin hüdudları hara qədər uzanırdı? Hindistanda türklər dövlət yarada bilmişdilər? XII əsrdə Hindistan ərazisində müsəlman-türk dövlətinin yaranmasının səbəbi nə idi?

Tədqiqatı qruplarla aparmaq mümkündür. Şagirdləri üç qrupa bölün və onlara C və D bloklarındakı tapşırıqlara uyğun paylama materiallar təqdim edin. G blokundan istifadə etməklə məntiqi, tənqidi, təfəkküryönümlü tapşırıqlar olan iş vərəqləri paylayın. Məsələn, əgər siz Dehli sultanı Qütbəddin Aybək olsaydınız, əhalinin vəziyyətini yaxşılaşdırmaq üçün hansı işləri görərdiniz? Dehli sultanlığının Qupta imperiyasından fərqli cəhətləri nədə idi? Moğol dövləti ilə Dehli sultanlığının oxşar və fərqli tərəflərini aşkar edin və s.

İş üsulu kimi cədvəl, esse, Venn diaqramının tamamlanması metodlarından istifadə edə bilərsiniz.

Məlumatın mübadiləsi və müzakirəsi zamanı B blokundakı suallardan istifadə edin. Nəticələri əldə etməkdə E blokundakı şəkil və illüstrasiyalardan yararlanın. Hindistanda türk dövlətlərinin yaranması nəyə səbəb oldu? Tarixdə başqa hansı qadın hökmdarlar tanıyırsınız? və sair sualları cavablandırandan sonra nəticə çıxarın və ümumiləşdirmə aparın. Daha sonra yaradıcı bir ev tapşırığı verin. Məsələn, «Möcüzələr diyarı Hindistan» adlı təqdimat hazırlamaq olar.

**Qiymətləndirmə meyarları:** *təhliletmə, şərhetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Moğol dövlətinin ərazisini xəritəyə əsasən təhlil etməkdə çətinlik çəkir. | Xəritənin əsasında təhliletməni müəllimin köməyi ilə aparır. | Xəritə əsasında təhliletməni apararkən cüzi səhvlər edir. | Xəritə əsasında asanlıqla təhlil edir. |
| Şərhetmədə çətinlik çəkir. | Şərhetməni suallar əsasında edir. | Şərhetmədə bəzi səhvlərə yol verir. | Şərhetməni asanlıqla reallaşdırır. |

# MÖVZU 11. ÇİNGİZ XAN VƏ ONUN DAVAMÇILARI

***Məzmun standartı:***

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.
3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.
4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin rolunu izah edir.

***Təlim məqsədi:***

1. Monqol dövlətinin ərazisini xəritə əsasında təhlil edir.
2. Hülakü və Qızıl Ordu dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.
3. Çingiz xanın və Qazan xanın tarixdəki rolunu izah edir.

***İnteqrasiya:***

Az-d. 2.2.3.; Az-t. 4.1.1.

A blokundan istifadə etməklə motivasiyanı qurmaq olar. Müəllim anlayışların çıxarılması üsulundan istifadə etməklə motivasiya yarada bilər. Bu zaman şagirdlər bir-birindən maraqlı suallara cavab verməli olacaqlar: Necə oldu ki, dünyanın yarısını əhatə edən Monqol imperiyası yarandı? Bu imperiya tarixdə necə iz qoyub? Sualları cavablandırarkən tədqiqat sualınız da formalaşacaq: Monqolların tarixdəki rolu nədən ibarətdir?

C və D bloklarından istifadə etməklə şagirdlərə monqollar haqqında məlumat verin. Çünki mövzu onlar üçün yenidir. Tədqiqatı aparmaq üçün şagirdləri dörd qrupa bölmək tövsiyə olunur. C, D və F bloklarından istifadə etməklə onları tapşırıqlarına uyğun paylama materialları ilə təmin edin. Dərsi daha maraqlı və rəngarəng etmək üçün İnternetdəki monqollar haqqında materiallardan istifadə etmək olar. Məsələn, tapşırmaq olar ki, şagirdlər C blokundakı materiallardan və ya İnternetdən istifadə etməklə cədvəlləri tamamlasınlar.

Tapşırıqlar arasında müqayisə sualları da olmalıdır. Hər bir Monqol ulusu ayrıca imperiyanın yaranmasına səbəb olmuşdur. Bu mənada onları müqayisə etmək məqsədəuyğundur. Məsələn, mənbələrə əsaslanaraq Çingiz xan, Qazan xan və Batı xanın müsbət cəhətlərini xarakterizə etmək mümkündür. E blokundakı illüstrasiyalardan da istifadə etmək tövsiyə olunur.

Yaradıcı tapşırıq kimi şagirdlər C və D blokundan istifadə etməklə «Monqol imperiyalarını fərqləndirən xəritə»ni tamamlaya bilərlər.

**Məlumatın mübadiləsi və müzakirəsi zamanı** hər qrup işini təqdim edir və müzakirələr başlanır. Bir qrup digərinin işinə aid əlavə və tövsiyələrlə çıxış edə bilər. Siz şagirdlərin cavablarını ümumiləşdirməklə nəticənin əldə olunmasına çalışmalısınız. B blokundakı suallardan istifadə edin. «Monqol tarixi» çox geniş mövzu olduğundan onu ev tapşırığı verməklə şagirdlərə mövzunu daha dərindən mənimsətmək məsləhətdir. Məsələn, onlar müasir Monqolustanla bağlı materiallar toplayıb bu ölkəni Çingiz xanın yaratdığı dövlətlə müqayisə edə bilərlər.

**Qiymətləndirmə meyarları:** *təhliletmə, şərhetmə, izahetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Monqol dövlətinin ərazisini xəritə əsasında təhlil edərkən çətinlik çəkir. | Monqol dövlətinin ərazisini xəritə əsasında müəllimin köməyindən istifadə etməklə təhlil edir. | Monqol dövlətinin ərazisini xəritə əsasında təhlil edir. | Monqol dövlətinin ərazisini xəritə əsasında təhlil edir, mülahizələrini söyləyir. |
| Hülakü və Qızıl Ordu dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh etməkdə çətinlik çəkir. | Hülakü və Qızıl Ordu dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini araşdırır, köməkdən istifadə edir. | Hülakü və Qızıl Ordu dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir. | Hülakü və Qızıl Ordu dövlətlərinin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini asanlıqla şərh edir. |
| Çingiz xan və Qazan xanın rolunu izah etməkdə çətinlik çəkir. | Çingiz xan və Qazan xanın rolunu izah etməyə çalışır. | Çingiz xan və Qazan xanın rolunu izah edərkən nöqsanlara yol verir. | Çingiz xan və Qazan xanın rolunu izah edir, faktlarla əsaslandırır. |

## MÖVZU 12. OSMANLI İMPERATORLUĞU XIII–XVI ƏSRLƏRDƏ

***Məzmun standartı:***

3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.
4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

***Təlim məqsədi:***

1. Osmanlı dövlətinin yaranması, idarəçilik forması və siyasi vəziyyətini şərh edir.
2. Osmanlı imperiyasının tarixində mühüm rol oynamış şəxsiyyətlər barədə təqdimat hazırlayır.

***İnteqrasiya:***

Az-t. 4.1.2.; İnf. 3.2.3.; T-i. 1.3.1.; F.t. 1.2.2.

Bu mövzunun tədrisini A blokundakı motivasiya ilə başlamaq olar. Şagirdlərə onlara Fiziki tərbiyə fənnidən tanış olan «estafet» sözünü izah etməyi və onu mövzu ilə əlaqələndirməyi təklif edə bilərsiniz. Yaxud da özünüz hazırladığınız motivasiyanı onlara təqdim edə bilərsiniz. Motivasiyanın qoyuluşu zamanı beyin həmləsi, şaxələndirmə kimi üsullardan istifadə etmək olar. Şagirdlərə «Konstantinopol və İstanbulu nə birləşdirir?» sualını verib onların bildiklərini öyrənməyiniz məsləhətdir. Şagirdlərin fikirlərini lövhədə qeyd etməyi unutmayın. Bu onların diqqətinin artırılması, eləcə də fikirlərdə təkrara yol verilməməsi üçün səmərəlidir. Həmçinin əyani öyrənmə tərzinə malik olan şagirdlərin dərsi mənimsəməsi üçün daha məqsədəuyğundur. Unutmayın ki, bütün motivasiyalar məqsədinizin reallaşdırılmasına xidmət etməlidir. Bəzən çox maraqlı bir motivasiya şagirdlərə təqdim olunsa da, qarşıya qoyulmuş məqsədə xidmət etmir. Tövsiyə edirik ki, motivasiya məqsədinizə çatmaq üçün bir vasitə olsun. Görüntü xarakteri daşımasın.

Motivasiya həyata keçirildikdən sonra siz C blokundakı mətnlə şagirdləri tanış edə bilərsiniz. Fasiləli oxudan istifadə edərək, B blokundakı sual və tapşırıqlara, eləcə də D və E bloklarındakı xəritə, şəkil və sxemlərə əsasən müzakirələr aparmaqla şagirdlərin Osmanlı imperiyası haqqında məlumat almasına şərait yaradın. Yaxud da özünüz bu mövzuya aid qısa və aydın, əha-

təli bir slayd təqdim edə bilərsiniz. Slaydın təqdimatı zamanı mühazirə üsulundan da istifadə etmək olar. Bu iş bitdikdən sonra tədqiqat mərhələsinə başlaya bilərsiniz. Bu mərhələni qruplarla da aparmaq məsləhətdir. Şagirdlərə Osmanlı dövlətinin idarəçiliyi, hərbi yürüşləri və s. barədə şərhlər verməyə, həmçinin Fateh II Mehmet və digər Osmanlı hökmdarları haqqında təqdimat hazırlamağa şərait yaradın.

Bu dərsin reallaşdırılmasında başqa bir istiqamət götürüb müzakirələr xəritəsi üsulunu tətbiq edib şagirdləri cütlərdə də birləşdirə bilərsiniz. Bu üsul şagirdlərin tarixi proseslərə münasibətini aşkar etmək üçün çox əhəmiyyətlidir. Müzakirəni bütün siniflə də aparmaq olar. Şagirdlərin fikirləri ümumiləşdirilməli, nəticələr səslənərkən lövhədə qeydlər aparılmalıdır. G blokundakı sinifdə cavablandıra bilmədiyiniz tapşırıqlardan birini evə verə bilərsiniz. Esse yazmaq, təqdimat hazırlamaq kimi tapşırıq versəniz daha yaxşı seçim olar. Çünki şagird evə problem aparmamalı, həll olunmuş problemə sadəcə münasibət bildirmək üçün yaradıcı işləməlidir.

Siz sinfə daxil olarkən məqsədə uyğun olaraq meyar cədvəlini divardan assanız və dərsin gedişi zamanı bu cədvəldəki meyarlar önünə qeydlərinizi etsəniz daha yaxşı olar. Bu sizə dərs boyu şagirdlərinizi qiymətləndirmə imkanı yaradacaq. Şagirdlər qiymətləndirildiklərini hiss etdikdə dərsdə daha fəal olmağa çalışacaqlar. Bu, bir psixoloji faktdır.

**Qiymətləndirmə meyarları:** *şərhetmə, təqdimat hazırlama*

| I | II | III | IV |
|---|---|---|---|
| Şərhetmədə çətinlik çəkir. | Şərhetməni müəllimin köməyi ilə edir. | Şərh edərkən bəzi səhvlərə yol verir. | Sərbəst şəkildə şərh edir. |
| Təqdimat hazırlamaqda çətinlik çəkir. | Təqdimatı hazırlayarkən müstəqil olmur. | Təqdimat hazırlayır, lakin məlumatları sistemli təqdim etmir. | Məlumatlar toplayaraq təqdimatlar hazırlayır. |

## MÖVZU 13. ŞƏRQİN BÖYÜK FATEHİ – ƏMİR TEYMUR

***Məzmun standartı:***

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

***Təlim məqsədi:***

1. Əmir Teymurun dövlətin inkişafında oynadığı rolu haqqında məlumat toplayaraq təqdimat hazırlayır.

***İnteqrasiya:***

İnf. 3.2.3.; T-i. 1.3.1.; Az-t. 4.1.2.

Bu mövzuya başlayarkən şagirdlərin diqqətini A blokundakı motivasiyaya yönləndirin. Bu zaman motivasiyaya aid «*Sizcə, Əmir Teymuru da Çingiz xanın davamçısı hesab etmək olarmı?*» sualını şagirdlərə verməyiniz tövsiyə olunur. Suala cavab vermək üçün şagirdlərə bir neçə dəqiqə vaxt da verilsə, düzgün olar. Şagirdlərin verdiyi cavabların lövhədə, yaxud da flipçartda qeyd olunması məqsədəuyğundur. Siz motivasiyanın qoyulmasında başqa vasitələrdən də istifadə edə bilərsiniz. Məsələn, Teymura aid çəkilmiş tamaşa və filmdən bir epizod təqdim etmək olar. Yaxud da «Nəsimi» filmindən Əmir Teymurun görüntüsünü göstərə bilərsiniz. Bu mövzunu tədris edərkən «Azərbaycan tarixi» fənni ilə də inteqrasiya imkanlarınızı reallaşdırın. Cavablar alındıqdan sonra C blokuna aid olan hissə ilə, yəni mətnlə şagirdləri tanış edin. Bu zaman insert üsulundan istifadə etmək yerinə düşər. Bu üsulun tətbiqi mətnin müzakirəli oxunuşu ilə həyata keçirilir. İnsert üsulunu reallaşdırarkən B blokundakı sual və tapşırıqlar köməyinizə gələ bilər. Hər oxunan abzasın müzakirəsi aparılarsa, şagird üçün daha səmərəli olar.

Tədqiqatın aparılması üçün müəllim mütləq tədqiqat sualı qoymalıdır. Aparılan tədqiqat nəticəsində «Əmir Teymurun Teymurilər dövlətinin yaranması və inkişafında rolu nədən ibarətdir?» sualına cavab tapılmalıdır. Bunun üçün tədqiqata cəlb edilən şagirdlərə müəyyən tapşırıqlar verilməlidir. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və rəngarəng vasitələrə əl atmaq şagirdlərin marağına səbəb olar. Eyni zamanda vaxta qənaət etmiş olarsınız. Bu işdə rəngli stikerlər köməyinizə çata bilər. Mövzunun reallaşdırılması üçün şagirdlərə rəngli kartlardan birini seçmək təklif olunur. Daha yaxşı olar ki, mavi, qırmızı və yaşıl

rənglərdən istifadə edəsiniz. Qrupu 3 yerə bölməklə onlara araşdırmaq üçün tapşırıqlar vermək lazımdır. Sinifdə İnternet şəbəkəsi və kompüter varsa, qrupları İnternetdə axtarışa sövq etmək olar. Bu zaman D blokundakı xəritə və şəkillər şagirdləri istiqamətləndirə bilər. Əgər belə imkanınız yoxdursa, o zaman əlavə resurslar, paylayıcı materiallar köməyinizə çatar. Belə olarsa, araşdırma aparıb təqdimat hazırlamaq da mümkündür. Təqdimat elektron variantda, yəni slaydlar şəklində də ola bilər. Flipçartdan istifadə etməklə də şagirdlər öz bacarıqlarını təqdimat şəklində nümayiş etdirə bilərlər. Tapşırıqların verilməsi zamanı G blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz. Hazırlanmış cavablar təqdim olunduqdan sonra hər bir qrupun işi müzakirə edilməli və qiymətləndirmələr aparılmalıdır. Nəticələrin çıxarılmasında şagirdin iştirakı vacibdir.

G blokundakı 3-cü tapşırığı ev tapşırığı kimi verə bilərsiniz.

Qiymətləndirmə məqsədəuyğun meyar əsasında reallaşdırılmalıdır.

**Qiymətləndirmə meyarları:** *təqdimat hazırlama*

| I | II | III | IV |
|---|---|---|---|
| Əmir Teymur haqqında məlumat toplayıb təqdimat etməkdə çətinlik çəkir. | Əmir Teymur haqqında məlumat toplasa da, təqdimat hazırlayarkən müəllimin köməyindən istifadə edir. | Əmir Teymur haqqında məlumat toplasa da, təqdimat hazırlayarkən planlaşmada çətinlik çəkir. | Əmir Teymur haqqında ətraflı məlumat toplayaraq təqdimat hazırlayır. |

## MÖVZU 14. ŞƏRQİN NADİR İNCİLƏRİ

**_Məzmun standartı:_**

5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

**_Təlim məqsədi:_**

1. XI–XVI əsr Şərq və Avropa mədəniyyətinin xüsusiyyətlərini izah edir.
2. Şərq incilərinin mədəniyyətlərə təsirini müəyyən edir.

**_İnteqrasiya:_**

Az-t. 5.1.2.; X-d. 2.1.3.

A blokunda verilmiş mətn sizə motivasiyanın qoyulmasında kömək edə bilər. Şaxələndirmə üsulundan istifadə edərək şagirdlərə suallar verə bilərsiniz: Şərq inciləri deyəndə nə başa düşürsünüz? Şərq incilərinin adlarını sadalaya bilərsinizmi? Yönləndirici sualların köməyi ilə şagirdlərin fikirlərini ya lövhədə, ya da filipçartda qeyd edib şaxələndirmək olar.




Bu mövzunun tədrisi zamanı siz müxtəlif Şərq ölkələrinə aid mədəniyyət nümunələrinin şəkillərini, yaxud slaydlarını təqdim edə bilərsiniz. Bu zaman şagirdlərdən soruşmaq olar: Sizcə, Şərq ölkələrində ortaq cəhət hansıdır?

Şagirdlərin cavablarını soruşduqdan sonra onların fikirlərini B blokundakı suallara yönləndirmək olar. Bu zaman siz kollektiv iş tətbiq edə bilərsiniz. Fərziyyələr dinlənilib, lövhədə qeydə alınmalıdır. Sualların cavabını müzakirə edərkən «Ədəbiyyat» fənninə inteqrasiya imkanlarınızı reallaşdıra bilərsiniz. Müzakirələr tədqiqat sualının qoyulması ilə nəticələnməlidir. Çünki şagirdlər Şərqin incilərini, yəni Şərq mədəniyyətinə aid olanları müəyyən etmək üçün tədqiqat aparmalıdırlar. Buna görə də «*Şərq mədəniyyəti tarixdə hansı izləri qoyub?*» sualını tədqiqat sualı kimi qoymaq olar. Bu zaman şagirdlərə tapşırın ki, C blokundakı mətnlə tanış olsunlar. Sonra onlara B blokuna daxil olan sualları verin və diqqətlərini D blokundakı şəkillərə cəlb edin. Araşdırmanı cütlərlə də aparmaq olar. G blokundakı tapşırıqlar cütlər arasında bölünə bilər. G blokundakı sonuncu tapşırığı ev tapşırığı kimi verə bilərsiniz.

Qiymətləndirmə apararkən məqsədəuyğun olaraq şagirdlərin *müəyyənetmə* bacarığını əsas götürmək lazımdır.

**Qiymətləndirmə meyarları:** *izahetmə, müəyyənetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| İzahetmədə çətinlik çəkir. | İzahetməni sualların köməyi ilə reallaşdırır. | İzahetmə zamanı bəzi səvhlərə yol verir. | İzahetməni asanlıqla reallaşdırır. |
| Şərq incilərini müəyyənləşdirmədə çətinlik çəkir. | Şərq incilərinin mədəniyyətlərə təsirini müəyyənləşdirərkən sualların köməyindən istifadə edir. | Şərq incilərinin mədəniyyətlərə təsirini müəyyən edərkən cüzi səhvlərə yol verir. | Şərq incilərinin mədəniyyətlərə təsirini asanlıqla müəyyən edir. |

# FEODALİZM AVROPADA

## MÖVZU 15. FRANK İMPERİYASI

***Məzmun standartı:***

3.1.1. Feodal dövlətlərin yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***Təlim məqsədi:***

1. Frank dövlətinin yaranmasını, idarəçilik, iqtisadi və siyasi münasibətlərini şərh edir.

***İnteqrasiya:***

H-b. 2.1.1.; Az-t. 3.1.2.

Bu mövzunun tədrisi zamanı A blokundakı motivasiyadan istifadə edə bilərsiniz. Motivasiya üçün qoyulmuş sual şagirdlərin fəallaşması üçün şərait yaradacaq. Mövzunu insertdən istifadə etməklə şagirdlərə oxudun. Onların diqqətini B blokundakı sual və tapşırıqlara yönəldin. Şagirdlərin müzakirədə iştirakını təmin edin. Təbii ki, müzakirələr kollektiv formada aparılacaq. Mövzunun müzakirəli oxunuşundan sonra şagirdlərə B blokundakı tapşırığı verib, Qərbi Avropada məskunlaşan tayfaların şaxələndirmə sxemini lövhədə reallaşdırmalarını tapşırın. Şagirdləri şaxələnən budaqları doldurmağa cəlb edin. Onlar bu sxemi hazırlamaqla təsəvvürlərini daha da dolğunlaşdırmış olacaqlar. Şagirdlərin diqqətini D blokuna aid xəritə və şəkillərə də cəlb edin. Xəritədən istifadə etməklə «Frank dövlətinin ərazilərini müəyyənləşdirməyi» tapşırın. Onlara «Xlodviqin xristianlığı qəbul etməsinin əhəmiyyəti» mövzusunu izah etməyi də tapşıra bilərsiniz. Üsul və formaların seçilməsindən asılı olaraq siz tapşırıqları həm qruplarda, həm də cütlərdə vermək imkanına maliksiniz.

Tədqiqatın aparılması üçün müəllim mütləq tədqiqat sualı qoymalıdır. Aparılan tədqiqat nəticəsində «Frank imperiyası nəyə görə müasir Avropa dövlətlərinin atasıdır?» sualına cavab tapılmalıdır. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və rəngarəng vasitələrə əl atmaq şagirdlərin marağına səbəb olar. Eyni zamanda həm də vaxta qənaət etmiş olarsınız. Əlavə resursların, paylayıcı materialların köməyi ilə şagirdlərin araşdırma qabiliyyətlərini də üzə çıxara bilərsiniz.

Təqdimat elektron, yəni slaydlar şəklində də ola bilər. G blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz. Cavablar təqdim olunduqdan sonra hər bir qrupun işi müzakirə edilməli və qiymətləndirmələr aparılmalıdır. Nəticələrin çıxarılmasında şagirdlərin iştirakı vacibdir.

Müqayisə üçün şagirdlərin G blokuna daxil olan «Frank imperiyasının parçalanması ilə Ərəb xilafətinin parçalanmasındakı oxşar və fərqli cəhət»ləri aşkar etmələri əsas şərtdir. Bunun üçün müəllimlər Venn diaqramından istifadə etməklə şagirdləri kollektiv şəkildə bu tapşırığın həllinə cəlb etməlidirlər.

Dərsin sonunda refleksiya edin. Refleksiya zamanı şagirdlərin cavablarını lövhədə qeyd edin. Yeni öyrəndikləri anlayışları və faktları bir daha xatırlamalarına şərait yaradın. Xronoloji hesablamalar üçün müəyyən bacarıqlar formalaşdıran suallardan istifadə etməniz tövsiyə olunur.

Ev tapşırığı kimi şagirdlərə «Frank imperiyası» haqqında araşdırma aparıb təqdimat etməyi tapşırın. Yaxud da layihə hazırlamağı tapşırmaq olar.

**Qiymətləndirmə meyarları:** *şərhetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Şərhetmədə çətinlik çəkir. | Şərh edərkən sualların köməyindən istifadə edir. | Şərh edir, lakin cüzi qüsurlara yol verir. | Şərhetməni asanlıqla reallaşdırır. |

## MÖVZU 16. BİZANS. SLAVYANLAR

**_Məzmun standartı:_**

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.
2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.
3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**_Təlim məqsədi:_**

1. Bizans imperiyasının tarixində baş vermiş hadisələri davametmə müddətinə görə fərqləndirir.
2. Slavyanların Bizans imperiyası ərazisində yerləşdiyini onun geosiyasi mövqeyi ilə əlaqələndirir.
3. Həm slavyanlarda, həm də Bizans ərazisində feodal münasibətlərinin oxşar və fərqli cəhətlərini müqayisə edir və diaqramlar hazırlayır.

**_İnteqrasiya:_**

İnf. 2.1.2.; Az-t. 3.1.3.; C. 1.1.1.

A blokundan istifadə etməklə motivasiyanı qurmaq olar. Şagirdlər VI sinif «Ümumi tarix» dərsliyindən Bizans haqqında bir çox məlumatlara malikdirlər. Beyin həmləsindən istifadə etməklə Bizans haqqında bildiklərini soruşmaq məqsədəuyğun olar. D blokundakı xəritədən istifadə etməklə «Bizansın coğrafi mövqeyi» mövzusu ətrafında müzakirələr aparın. Şagirdlərdən xəritədə adı verilməyən su hövzələrinin hansı su hövzələri olmamasını soruşun. Bu boğazların ölkə üçün iqtisadi əhəmiyyəti məsələsinə toxunun. Nə üçün Bizans ərazisində şəhərlərin sayı çox idi? Bizansda ticarətin inkişafına hansı amillər təsir göstərirdi? Necə oldu ki, dünyanın ən uzunömürlü imperiyası süqut etdi? Tədqiqat bu suallar ətrafında aparıla bilər.

Şagirdləri 4 qrupa bölün. Hər bir qrupa paylama materialı verməklə mövzunun C blokundakı məzmunu ilə tanış edin. D blokundakı xəritələri də tapşırıqlara uyğun olaraq ayrıca paylama materialı kimi təqdim edə bilərsiniz. Qruplardan birinə G blokundakı 1-ci sualı, digərlərinə isə 2-ci sualı tapşırıq şəklində verin. Dördüncü qrup G blokundakı 4-cü suala cavab verməkdən ötrü şaxələndirmə sxemi qura bilər.

Mübadilə və müzakirə zamanı Venn diaqramı vasitəsilə slavyanlarda və Bizansda feodal münasibətlərinin formalaşmasının oxşar və fərqli tərəflərini araşdırın. B blokundakı suallardan istifadə etmək tövsiyə olunur. Slavyanları təsnif etməkdə E blokundakı sxemdən istifadə edin: Nə üçün Bizansda qüdrətli imperator hakimiyyəti yaranmışdır? Onun zəifləməsinə hansı amillər təsir göstərdi? Slavyanlar nə üçün üç qrupa bölünürlər? Slavyanlarda dövlətin yaranması nə vaxta təsadüf edir? – suallarına verilən cavabları ümumiləşdirin və nəticəni əldə etməkdə şagirdlərə yardımçı olun. Onlara xəritədəki «mübahisəli ərazilər» ifadəsini izah edin. Knyazlıqların yerləşdiyi ərazinin coğrafi mövqeyini müasir xəritənin köməyi ilə müqayisəli tədqiq etməyi, dəniz və əsas çayların adlarını söyləməyi təklif edin.

Ev tapşırığı təfəkkürün yaradıcı tərəflərini əhatə etməlidir. Bu mənada «Bizans imperiyasının dağılması labüd idi?» adlı esse tapşıra bilərsiniz. Qiymətləndirmə meyarlara əsasən bütün dərs boyu aparılır.

**Qiymətləndirmə meyarları:** *fərqləndirmə, əlaqələndirmə, diaqram hazırlama*

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirmə aparmaqda çətinlik çəkir. | Fərqləndirmə apararkən müəllimin köməyindən istifadə edir. | Fərqləndirmə aparır, lakin bəzi səhvlərə yol verir. | Asanlıqla fərqləndirir. |
| Əlaqələndirmədə çətinlik çəkir. | Əlaqələndirməni müstəqil apara bilmir. | Qismən əlaqələndirmə aparır. | Dəyişiklikləri asanlıqla əlaqələndirir. |
| Oxşar və fərqli cəhətləri müqayisə etsə də, diaqram tərtib etmir. | Oxşar və fərqli cəhətlərə dair diaqram hazırlamaqda çətinlik çəkir. | Oxşar və fərqli cəhətlərə dair diaqram hazırlamağa çalışır. | Oxşar və fərqli tərəfləri sərbəst şəkildə müqayisə edir və diaqram hazırlayır. |

## MÖVZU 17. «DƏNİZLƏR KRALİÇASI» VƏ DİGƏR ŞƏHƏR-RESPUBLİKALAR

***Məzmun standartı:***

3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.
5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

***Təlim məqsədi:***

1. İtaliya və İspaniyanın fərqli və oxşar cəhətlərinə dair Venn diaqramı hazırlayır.
2. Avropada şəhərlərin yaranmasına, inkişafına və mədəniyyətinə dair materiallar toplayır.

***İnteqrasiya:***

İnf. 2.1.2.; Az-t. 3.1.3., 5.1.3.; Ə. 3.1.2.

Bu mətnin tədrisi üçün qabaqlayıcı tapşırıqdan istifadə etmək olar. Öncədən şagirdlərə deyə bilərsiniz ki, onlar bu mövzu ilə tanış olsunlar. Həmçinin onlara tapşıra bilərsiniz ki, hər kəs Avropanın nəzərdə tutulan dövrünü araşdırıb materiallar toplasın. Belə olarsa, dərs zamanı şagirdlər hazırlıqlı olacaqlar. Amma onlar sizin bu dərsin tədrisi zamanı qarşınıza qoyduğunuz məqsəddən xəbərsizdilər.

A blokunda verilmiş motivasiyaya uyğun şagirdlərə birbaşa suallar verib onları fəallaşdıra bilərsiniz. Yaxud da hazırladığınız slayd vasitəsilə motivasiya yarada bilərsiniz. Bu mövzunun tədrisini kollektiv və fərdi şəkildə reallaşdırmaq olar. Şagirdlər kollektiv şəkildə İspaniyanın və İtaliyanın fərqli və oxşar cəhətlərini müəyyənləşdirsinlər. Onlardan biri Venn diaqramını lövhədə, yaxud da flipçartda qura, digəri isə onun içini kollektivin köməyi ilə doldura bilər. Əsas odur ki, şagirdlər müqayisələr aparmaqla oxşar və fərqli cəhətləri müəyyən edə bilsinlər.

Şagirdlərə B və ya G blokundakı tapşırıqları fərdi tədqiqat aparmaq üçün vermək olar. Bu zaman onların öncədən apardıqları araşdırmaların nəticələrini də çox qısa şəkildə iş vərəqində yazmaları məsləhətdir. Fərdi işlərin yoxlanılması uzun çəkməsin deyə belə bir üsul köməyinizə gələr; öncədən tədqiqat sualına cavab verən bir material hazırlayın. Şagirdlər işlərini bitirdikdən sonra bu materialı lövhədən asın. Sadalanan hər hansı hissə onların qeydlərində varsa, tapşırın ki, «+» işarəsi qoysunlar. Bu prosesdən sonra hansı məsələyə

toxunulmayıbsa,  B blokundakı sualların köməyi ilə müzakirələr apararaq nəticəyə birgə gəlin.

Bu mövzunun reallaşdırılmasında Sokrat dialoqundan və qərarlar ağacı üsulundan da istifadə edə bilərsiniz. Təbii ki, bütün iş veriləcək tədqiqat sualı üzərində qurularaq məqsədə xidmət etməlidir. Tədqiqat sualı «Avropada şəhərlərin yaranmasına səbəb nə idi?» ola bilər.

G blokundakı suallardan biri şagirdlərə yaradıcı iş kimi verilə bilər. Yaxud da ev tapşırığı kimi onlara topladıqları materialları slayd şəklində hazırlamağı tapşıra bilərsiniz.

Qiymətləndirməni qrup qiymətləndirmə meyarları ilə yanaşı, standarta uyğun qiymətləndirmə meyarı olan formativ qiymətləndirmə əsasında da aparmaq olar. Bu zaman özünüqiymətləndirmə vərəqləri də tətbiq edilməlidir.

***Qiymətləndirmə meyarları:*** *Venn diaqramı hazırlama, material toplama*

| I | II | III | IV |
|---|---|---|---|
| Venn diaqramı hazırlamaqda çətinlik çəkir. | Venn diaqramı hazırlayarkən səhvlərə yol verir. | Venn diaqramı hazırlayarkən bəzi qüsurlara yol verir. | Asanlıqla Venn diaqramı hazırlayır. |
| Material toplamaqda çətinlik çəkir. | Material toplayarkən sistemsiz iş görür. | Müəllimin köməyindən istifadə etməklə material toplayır. | Materialı sistemli şəkildə toplayır. |

# MÖVZU 18. XAÇ YÜRÜŞLƏRİ. QRANADA ƏMİRLİYİNİN SÜQUTU

***Məzmun standartı:***

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.
1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

***Təlim məqsədi:***

1. Xaç yürüşlərinin baş verdiyi dövrləri fərqləndirir.
2. Xaç yürüşlərinin xronologiyasını sistemləşdirir.

***İnteqrasiya:***

Az-t. 1.1.1., 1.1.2.; İnf. 1.1.1.; C. 1.1.1.

A blokundakı sual motivasiya üçün başlanğıc ola bilər. «Azərbaycan tarixi» fənnindən «Azərbaycan Səlcuq imperiyasının tərkibində» mövzusunu şagirdlərin yadlarına sala bilərsiniz. O zaman onlar səlibçilər anlayışı ilə tanış olmuşdular. Buna görə «Xaç yürüşləri nədir?» sualına cavab verənlər olacaq. Şagirdlərin fərziyyələrini dinlədikcə, lövhədə qeydlər edin. C blokundan istifadə etməklə mətnlə tanış olun. Bu zaman B blokuna aid sual və tapşırıqlardan istifadə etməyi unutmayın. D və E bloklarındakı şəkil şagirdlərin diqqətinə çatdırılsa, daha yaxşı olar. Hətta onların təsəvvürlərinin formalaşmasına kömək etmək məqsədilə B blokuna aid tapşırıqlar da verə bilərsiniz. Bu çox qısa bir müddət üçün verilmiş tapşırıq olmalıdır ki, digər araşdırmalara da vaxt qalsın.

Tədqiqat sualı: *Xaç yürüşlərinin tarixdəki izi nədən ibarətdir?* Bu sualı cavablandırmaq məqsədilə tədqiqat apararkən G blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz.

Tədqiqatın aparılması zamanı müzakirə xəritələri üsulunu seçməyiniz məsləhətdir. Bu zaman cütlərlə iş formasından istifadə edin. Bununla siz şagirdlərdə mövzuya dair problemləri üzə çıxarmaq və ziddiyyətli suallar qoymaq bacarığı formalaşdıracaqsınız. Şagirdlərin hər birinin mövqeyinin müəyyənləşdirilməsi sizin qiymətləndirmə aparmanıza kömək ola bilər. Uyğun mövqedə olan şagirdlərin cütlərdə birləşdirilməsi, onlara «lehinə» və «əleyhinə» siyahısı tərtib etməyi tapşırmanız tövsiyə olunur.

Bu mövzunun fasiləli oxu üsulundan istifadə etməklə tədrisi də məqsədəuyğundur. Kollektiv və fərdi iş formalarını tətbiq etməklə şagirdlərdə dövrün

hadisələrini fərqləndirmə bacarağı ilə yanaşı, hadisələrin xronoloji sistemləşdirilməsini də formalaşdıra bilərsiniz. Bu zaman şagirdlərə Xaç yürüşlərinin başvermə dövrlərini cədvəl hazırlamaqla sistemləşdirməyi tapşırmaq olar. Məsələn:

| **Xaç yürüşləri** | |
|---|---|
| Sayı | Tarixi |
| I | |
| II | |
| III | |
| IV | |

Tədqiqatın aparılması bitdikdən sonra müzakirə üsulunu tətbiq edin. Müzakirədən sonra nəticəni şagirdlərin özlərinin vurğulamasına çalışın. Refleksiya mərhələsində xronoloji hadisələri yada salın. G blokundakı 4-cü tapşırığı evə vermək məqsədəmüvafiq olar.

**Qiymətləndirmə meyarları:** *fərqləndirmə, sistemləşdirmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Xaç yürüşlərinin baş verdiyi dövrləri fərqləndirərkən səhvlər edir. | Xaç yürüşlərinin baş verdiyi dövrləri suallar vasitəsilə fərqləndirir. | Xaç yürüşlərinin baş verdiyi dövrləri fərqləndirmədə qismən çətinlik çəkir. | Xaç yürüşlərinin baş verdiyi dövrləri asanlıqla fərqləndirir. |
| Xaç yürüşlərinin xronologiyasını sistemləşdirməkdə çətinlik çəkir. | Xaç yürüşlərinin xronologiyasını sistemləşdirərkən köməkdən istifadə edir. | Xaç yürüşlərinin xronologiyasını sistemləşdirərkən bəzi səhvlərə yol verir. | Xaç yürüşlərinin xronologiyasını asanlıqla sistemləşdirir. |

# MÖVZU 19. YÜZİLLİK MÜHARİBƏ

***Məzmun standartı:***

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.
3.1.1. Feodal dövlətlərin yaranması, idarəçilik formaları və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***Təlim məqsədi:***

1. Yüzillik müharibə zamanı baş vermiş dəyişiklikləri xəritə əsasında təhlil edir.
2. Fransa dövlətinin idarəçilik formasını, sosial-iqtisadi və siyasi münasibətlərini şərh edir.

***İnteqrasiya:***

H-b. 2.1.1., 2.1.2., 2.2.1.; Az-t. 3.1.1., 3.1.2., 3.1.3.

Bu dərsin tədrisi zamanı A blokundakı hissə motivasiya mərhələsi üçün istifadə oluna bilər. Xatırlatmalar edib şagirdlərin köhnə dərslərdə öyrəndiklərini yadlarına salın. Frank dövləti barədə öyrəndiklərini yadlarına salmaq üçün açar sözlərdən istifadə edə bilərsiniz. Bu sözlər onlara yardımçı olar. Sonra şagirdlərə A blokuna aid sual verməklə müzakirəni təşkil edin. Bu mövzunun tədrisində mühazirə üsulundan faydalanmaq məsləhətdir. Müəllim «Fransa və Yüzillik müharibə» mövzusunda danışaraq şagirdlərin təfəkkürünü B blokuna aid suallarla inkişaf etdirir. C blokuna aid olan hissənin çatdırılması üçün ziqzaq üsulu köməyinizə çata bilər. Tez bir zamanda mətni öyrənən şagirdlər tədqiqatın aparılması mərhələsinə keçməlidirlər. Bu zaman «Fransanın feodal dövləti kimi tarixdə rolu nədən ibarətdir?» sualı tədqiqat üçün münasibdir. B və G blokundakı tapşırıqlardan istifadə etməklə qruplara iş verə bilərsiniz. D blokundakı şəkil və xəritəni də unutmayın. Şagirdlərin diqqətini şəkil və xəritəyə cəlb etmək üçün suallar da verin. Şagirdlər «Həyat bilgisi» fənnindən idarəçilik formaları haqqında məlumatlıdırlar. Onlara suallar verməklə idarəçilik haqqında bildiklərini söyləməyə imkan yaradın. Həmçinin müasir Fransanın idarəçilik forması haqqında da suallar verə bilərsiniz. Vaxtdan səmərəli istifadə etsəniz tədqiqatın aparılması, mübadilə və müzakirədən sonra karusel üsulundan səmərəli istifadə etmək imkanınız da olar. Bu üsulu tətbiq edərkən Yüzillik müharibə və başqa problemlər barədə şagirdlərin fikrini öyrənə bilərsiniz. Təbii

ki, bu mövzunun tədrisi üçün qeyd olunmuş bütün üsullar şagirdlərinizin bilik və bacarıq  səviyyəsinə görə tətbiq olunmalıdır. Yazılanlar yalnız tövsiyədir.

Bütün hallarda şagirdlərin bilik və bacarıqlarını üzə çıxarmaq üçün düzgün, yönləndirici suallardan istifadə etməniz zəruridir. Bəzən səhv qoyulmuş sual şagirdin səhv nəticəyə gəlməsinə, yaxud da tapşırığın icrasını səhv istiqamətə aparıb çıxarmasına səbəb ola bilər. Əgər dərs keçdiyiniz sinif otağında İKT resurs təminatınız varsa, siz bu dərsi fərqli də qura bilərsiniz. Məsələn, motivasiyanı «Janna d`Ark» filmindən epizodla başlamaq olar. Tədqiqatın aparılmasını İnternet və kompüter vasitəsilə həyata keçirmək daha çox səmərə verər. İşin araşdırılmasında axtarış sistemləri şagirdlərin ən yaxın köməkçisi ola bilər. Bu zaman şagirdlərə tədqiqatlarını reallaşdırmaq üçün əla imkan yaranar. Verilən tapşırıqları sinfi qrupa bölməklə, yaxud da kollektiv şəkildə apara bilərsiniz. Təbii ki, bütün qeyd olunanlar tövsiyədir, sizin məktəbinizin və sinfinizin imkanları nəzərə alınmalıdır.

**Qiymətləndirmə meyarları:** *təhliletmə, şərhetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Yüzillik müharibə zamanı baş vermiş dəyişiklikləri xəritədə göstərməkdə çətinlik çəkir. | Yüzillik müharibə zamanı baş vermiş dəyişiklikləri xəritədə göstərsə də, təhlil edə bilmir. | Yüzillik müharibə zamanı baş vermiş dəyişiklikləri xəritə əsasında təhlil edərkən səhvlərə yol verir. | Yüzillik müharibə zamanı baş vermiş dəyişiklikləri xəritə əsasında təhlil edir. |
| Fransa dövlətinin idarəçilik formasını, sosial-iqtisadi və siyasi münasibətlərini şərh etməkdə çətinlik çəkir. | Fransa dövlətinin idarəçilik formasını, sosial-iqtisadi və siyasi münasibətlərini müəllimin köməyi ilə şərh edir. | Fransa dövlətinin idarəçilik formasını, sosial-iqtisadi və siyasi münasibətlərini qismən şərh edir. | Fransa dövlətinin idarəçilik formasını, sosial-iqtisadi və siyasi münasibətlərini asanlıqla şərh edir. |

## MÖVZU 20. DUMANLI ALBİON ORTA ƏSRLƏRDƏ

**_Məzmun standartı:_**

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.
2.1.1. Feodal münasibətlərinin yaranmasını və inkişafını dövlətlərin və xalqların geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir.
3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

**_Təlim məqsədi:_**

1. İngiltərənin tarixində baş verən hadisələri davametmə müddətinə görə fərqləndirir.
2. İngiltərədə feodal münasibətlərinin yaranmasını və inkişafını baş verən dəyişikliklərlə əlaqələndirir.
3. İngiltərə ilə Fransanın oxşar və fərqli cəhətlərinə dair cədvəl və Venn diaqramı hazırlayır.

**_İnteqrasiya:_**

İnf. 2.1.2.; Az-t. 3.1.3.; C. 1.1.1.

«İngiltərə» şagirdlər üçün çox maraqlı bir mövzudur. İngiltərənin dünya ölkələri sırasında xüsusi nüfuza malik olması, ingilis dilinin dünyada aparıcı dil kimi tanınması bu dərsin motivasiyasını maraq doğuracaq dərəcədə təşkil etməkdə müəllim üçün geniş imkanlar açacaq. Necə oldu ki, İngiltərə güclü dəniz dövlətinə çevrildi? İngilis dilinin belə geniş yayılmasında hansı tarixi əsaslar var? Suallarını verməklə, həmçinin dərslikdəki, mətnin A blokundakı hissədən motivasiya qurmaqla mövzunu şagirdlərə dərindən mənimsətmək olar. Motivasiya tədqiqat sualının təşkilinə xidmət etdiyindən, məntiqi ardıcıllığı yönləndirici sualların köməyi ilə əldə etmək mümkündür. Məsələn, belə bir sual vermək olar: Orta əsr İngiltərəsinin tarixi proseslərə nə kimi təsiri olmuşdur?

Tədqiqatı təşkil etmək üçün müxtəlif metodlardan yararlana bilərsiniz. C blokundakı mətn sadə olduğundan «Fasiləli oxu» üsuluna müraciət etməyiniz məsləhətdir. Eyni zamanda İngiltərə tarixinə dair əvvəlcədən hazırlanmış təqdimat və ya sənədli film də nümayiş etdirilsə, daha səmərəli nəticə üçün D və E bloklarındakı illüstrasiya və mənbələrdən, B blokundakı suallardan istifadə etmək də tövsiyə olunur.

Bu dərsi müxtəlif iş formaları ilə təşkil etmək olar. Cütlərlə iş forması – əvvəlcə cütlərə hafizə sualları ilə müraciət edin. Məsələn, Normand işğalı İngiltərədə hansı dəyişikliklərə səbəb oldu? Şagirdlərə «cümlələri tamamlayın» və ya «cədvəli tamamlayın» kimi tapşırıqları əhatə edən iş vərəqləri paylayın. Bir qədər sonra müzakirə üsuluna müraciət etməklə şagirdlər həmin dəyişikliklərin nədən ibarət olduğunu söyləyəcəklər. İkinci tapşırıq məntiqi sualla ifadə oluna bilər. Məsələn, İngiltərədə parlament Fransa Baş Ştatlarından nə ilə fərqlənirdi? Şagirdlər Venn diaqramı tərtib etsinlər. Daha sonra onlara tənqidi sualla ifadə olunmuş tapşırıq verilsin. Bu zaman G blokundakı tapşırıqlara müraciət edə biərsiniz. Mübadilə dərs boyunca aparılacaq. Müzakirə üsulundan istifadə etməklə isə hər tapşırığın nəticəsini cütlərdən öyrənə bilərsiniz. Bu zaman kompüter və proyektor köməyinizə gələr. Düzgün cavabları qeyd edib nəticə şəklində nümayiş etdirmək mümkündür.

Yaradıcı tətbiqetməni evə tapşırmaq məsləhətdir. Şagirdlər İngiltərə haqqında bukletlər hazırlaya bilərlər. C blokundakı mətn yarımbaşlıqlarını bukletlərin mövzusu etmək olar.

**Qiymətləndirmə meyarları:** *fərqləndirmə, əlaqələndirmə, cədvəl və diaqram hazırlama*

| I | II | III | IV |
|---|---|---|---|
| Hadisələri davametmə müddətinə görə fərqləndirməkdə çətinlik çəkir. | Hadisələri davametmə müddətinə görə fərqləndirməyə çalışır. | Hadisələri davametmə müddətinə görə müəllimin köməyi ilə fərqləndirir. | Hadisələri davametmə müddətinə görə fərqləndirir. |
| Əlaqələndirməni aparmağa çalışır. | Əlaqələndirmədə çətinlik çəkir. | Əlaqələndirmə apararkən səhvlərə yol verir. | Baş verən dəyişiklikləri asanlıqla əlaqələndirir. |
| Oxşar və fərqli cəhətlərə cədvəl və Venn diaqramı hazırlamaqda çətinlik çəkir. | Oxşar və fərqli cəhətlərə cədvəl və Venn diaqramı hazırlayır, lakin müstəqil işləyə bilmir. | Oxşar və fərqli cəhətlərə aid cədvəl və Venn diaqramı hazırlayarkən səhvlər edir. | Oxşar və fərqli cəhətlərə aid cədvəl və Venn diaqramı hazırlayır. |

## MÖVZU 21. KİLSƏNİN YOLLARI NECƏ AYRILDI

***Məzmun standartı:***

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.
3.1.1. Feodal dövlətlərin yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.
4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin rolunu izah edir.

***Təlim məqsədi:***

1. Avropa ölkələrində katolik kilsəsinə qarşı mübarizənin faktlar göstərməklə sinxronluğunu müəyyənləşdirir.
2. Almaniyada baş verən sosial-iqtisadi və siyasi münasibətləri şərh edir.
3. Martin Lüterin, Tomas Münserin, Jan Kalvinin tarixi rollarını izah edir.

***İnteqrasiya:***

Az-t. 1.1.2., 4.1.1.; H-b. 2.1.1.

A və F bloklarından istifadə etməklə motivasiyanı təşkil edə bilərsiniz. Beyin həmləsi üsulunun köməyi ilə şagirdlərdən Almaniya haqqında bildiklərini soruşun. Ola bilsin ki, onların bu barədə məlumatı çox olsun. Bəs onda daha nə öyrənmək istəyəcəklər? Buna görə BİBÖ cədvəli tərtib edin, şagirdlərin cavablarını və suallarını cədvəlin müvafiq xanalarına yazın. Ümumi olan hər hansı bir sual tətqiqat sualı ola bilər. Məsələn, Almaniya digər Avropa ölkələrindən nə ilə fərqlənir? Orta əsr Almaniyasının tarixdə rolu nədən ibarət olmuşdur? və s.

Tədqiqatı təşkil etmək üçün sinfi 4 qrupa bölün. Hər bir qrupa C blokunda yer almış şəxslərin adlarını verin. Bu özü də bilik alma prosesinin bir hissəsinə çevriləcək. Qruplara iş vərəqləri paylayın. İş vərəqlərində illüstrasiyalardan istifadə edə bilərsiniz. Bu zaman şaxələndirmə və cədvəli tamamlayan kimi üsullardan geniş istifadə etmək mümkündür. Məsələn, Martin Lüter katolik kilsəsini tənqid edərkən hansı arqumentlər gətirirdi? Tomas Münserin başçılığı ilə baş verən kəndli üsyanı zamanı nələr baş vermişdi? Jan Kalvin katolik kilsəsinə qarşı hansı tədbirlər görürdü? Katolik kilsəsi protestantlara qarşı mübarizədə nə etdi? O hansı ölkələrdə qələbə çala bildi? və s. kimi suallar tapşırıq tərtib etməkdə bu üsullara müraciət etməyə imkan verir. Bu zaman iş vərəqlərindən də istifadə etmək olar.

Qruplar öz işlərini lövhədə nümayiş etdirdikdən sonra B blokundakı suallardan istifadə etsəniz ümumiləşdirmənin və nəticələrin əldə olunmasına asanlıqla nail ola bilərsiniz. Bunun üçün BİBÖ cədvəlinin «öyrəndim» hissəsinə qrupların ümumiləşdirilmiş cavablarını qeyd edin. Nəticələr məhz «öyrəndim» hissəsində yer alan məlumatlar olacaq.

Yaradıcı tətbiqetmə kimi İnternetdən əlavə məlumatların toplanması ilə bağlı tapşırıq verin. Məsələn, hazırda dünyada protestant kilsəsinin üstünlüyü olan nə qədər ölkə var? Bu ölkələr hansılardır? Bu ölkələrin digərlərindən fərqi nədir? İnternetdə bu suallara cavab olaraq istənilən qədər məlumat var.

**Qiymətləndirmə meyarları:** *müəyyənləşdirmə, şərhetmə, izahetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Sinxronluğu müəyyənləşdirməkdə çətinlik çəkir. | Sinxronluğu kömək vasitəsilə müəyyənləşdirir. | Sinxronluğu çətinliklə müəyyənləşdirir. | Sinxronluğu sərbəst şəkildə müəyyənləşdirir. |
| Sosial-iqtisadi və siyasi münasibətləri şərh etməkdə çətinlik çəkir. | Sosial-iqtisadi və siyasi münasibətləri şərh etməyə çalışır. | Sosial-iqtisadi və siyasi münasibətləri şərh edərkən müəllimin köməyindən istifadə edir. | Sosial-iqtisadi və siyasi münasibətləri şərh edir. |
| Şəxsiyyətlərin tarixi rollarını izah etməkdə çətinlik çəkir. | Şəxsiyyətlərin tarixi rollarını müəllimin köməyi ilə izah edir. | Şəxsiyyətlərin tarixi rollarını sərbəst izah etməyə çalışır. | Şəxsiyyətlərin tarixi rollarını sərbəst izah edir. |

# MÖVZU 22. AVROPALILAR SƏRVƏT AXTARIŞINDA

***Məzmun standartı:***

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.
2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

***Təlim məqsədi:***

1. Böyük coğrafi kəşflərin aparılması dövrünü faktlarla sinxronlaşdırır.
2. Yeni kəşf olunmuş əraziləri xəritəyə əsasən təhlil edir.

***İnteqrasiya:***

İnf. 3.2.3.; C. 3.1.1.; Az-t. 2.1.2.

Bu mövzunu başlayarkən şagirdlərin diqqətini A blokundakı hissəyə cəlb etmək, yaxud da onlara «Böyük coğrafi kəşflər» mövzusunda elektron vəsait təqdim etmək olar. Onlara B blokuna uyğun və ya özünüz hazırladığınız suallar da verə bilərsiniz. Bu zaman verilən cavabları lövhədə qeyd edin. Sonra C blokuna daxil olan mətni şagirdlərə təqdim edin. Əvvəlcə mətni özünüz oxuyun sonra şagirdlər davam etdirsinlər. Mətni oxuyarkən müzakirələr aparmağı unutmayın. Müzakirələr B blokundakı suallar əsasında aparıla bilər. Yaxud situasiyadan asılı olaraq sualları başqa suallarla da əvəz etmək mümkündür. Ola bilər ki, B blokundan suallar şagirdlərə çox asan və ya çox çətin gəlsin. Siz bir fasilitator (bələdçi) kimi onlara dəstək olub istiqamət verməlisiniz. Mövzuya aid şəkil və xəritə üzərində, eləcə də mənbə ilə işləməyi şagirdlərə həvalə edin. Bu zaman  D və E bloklarına aid materiallar şagirdlər üçün yetərli olmazsa, əlavə resursdan istifadə etmək imkanınız da var. Əsas odur ki, «Böyük coğrafi kəşflər» mövzusu vasitəsilə şagirdlərdə xəritədə işləmə bacarığı formalaşdıra biləsiniz.

Tədqiqatın aparılması üçün «Böyük coğrafi kəşflərin tarixi əhəmiyyəti nədən ibarətdir?» sualını vermək olar. Bu mövzunun araşdırılması zamanı təqdimatlar üsulunu tətbiq etmək – sinfi qruplara bölmək lazımdır. Qruplara G blokundakı tapşırıqları verib təqdimat hazırlamaq üçün müəyyən vaxt ayırın. Qruplar işi hazırladıqdan sonra təqdimatların həyata keçirilməsi mərhələsi başlayır. Unutmayın ki, qiymətləndirmə aparmaq dərsin hər mərhələsində vacibdir. Bu baxımdan qrup qiymətləndirmə meyarları hazırlayıb divardan asın. Hər bir qrupun işi qiymətləndirilməlidir. Qiymətləndirməni şagirdlərlə birgə

aparmağınız tövsiyə olunur. Qrup qiymətləndirmə meyarları ilə fərdi qiymətləndirmə meyarları arasında oxşarlıq olsa da, fərqlilik də var. Bu baxımdan fərdi qiymətləndirmə meyarını məqsədəuyğun müəyyənləşdirin. Şagirdlərinizin hansı bilik və bacarığa malik olmalarını məktəbli kitabçasına qeyd etməyi unutmayın.

Çalışın məqsədəuyğun olaraq şagirdlərdə xəritədən istifadə etməklə təhlillər aparmaq bacarığı formalaşdırasınız.

G blokunda olan sonuncu tapşırığı, yaxud «Böyük coğrafi kəşflər» haqqında esse yazmağı evə tapşırıq verə bilərsiniz. Yaxud da şagirdlərə bu mövzu ilə əlaqədar növbəti dərs üçün debata hazırlaşmağı tapşırın. Əgər bu mövzuya 2 saat ayırsanız, debatı növbəti dərsdə həyata keçirmək mümkün olar. Yaxud da şagirdlərə qruplar və ya cütlər şəklində ev tapşırığı verməklə birgə əməkdaşlıq və işgörmə bacarıqlarını formalaşdıra bilərsiniz.

**Qiymətləndirmə meyarları:** *müəyyənetmə, təhliletmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Müəyyən etməkdə çətinlik çəkir. | Müəyyənetməni müəllimin köməyi ilə reallaşdırır. | Müəyyənetməni reallaşdırarkən bəzi səhvlər edir. | Asanlıqla müəyyən edir. |
| Təhlili etməyə cəhd göstərir. | Təhliletməni sualların köməyi ilə reallaşdırır. | Təhlil edərkən cüzi səhvlər edir. | Təhliletməni sərbəst həyata keçirir. |

## MÖVZU 23. HOLLANDİYA RESPUBLİKASI NECƏ YARANDI

**Məzmun standartı:**

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.
1.1.3. Tarixi faktları xronoloji qaydada sistemləşdirir.

**Təlim məqsədi:**

1. Niderland burjua inqilabının baş verdiyi dövrü fərqləndirir.
2. Niderland burjua inqilabını xronoloji qaydada sistemləşdirir.

**İnteqrasiya:**

Az-t. 1.1.1.; C. 1.1.1.

A blokuna uyğun şagirdlərdə motivasiya yaratmaq mümkündür. Bu zaman beyin həmləsi üsulunu tətbiq etmək olar. Bu dərsin tədrisi prosesində yeni anlayışlarla rastlaşan şagirdlərə izahlar vermək lazım gələcək. Bunun üçün tezarusdan, yəni yeni anlayışların izah üsulundan istifadə etmək olar. Ağ vərəqə yazılan yeni anlayışlar dərsin gedişində də aydınlaşa bilər. C blokuna aid olan hissələrlə tanış olduqda və B blokundakı sualları verməklə də şagirdlərin dərsdəki fəallığını artırmaq olar. Şagirdlər mətni oxduqda onlara aydın olmayan məqamlar üzərində dayanılıb müzakirələr aparıla bilər.

Tədqiqatı aparmaq, şagirdləri işə cəlb etmək üçün təbii ki, tədqiqat sualı vermək lazımdır: *Niderland burjua inqilabının əhəmiyyəti və rolu nədən ibarətdir?*

Tədqiqatın aparılması üçün qruplara iş vərəqləri hazırlanarkən mətndəki araşdırmaya ehtiyac olan hissələri qeyd etmək və ya G blokunda verilmiş tapşırıqlardan istifadə etmək tövsiyə olunur.

Qeyd edək ki, dərslikdə verilən tapşırıq və sualları 45 dəqiqə ərzində reallaşdırmaya da bilərsiniz. Əgər vaxt baxımından çətinliklə üzləşsəniz, daha vacib məsələlərə yer ayırın. Həmçinin sualları fərdiləşdirib verərkən güclü və zəif şagird arasındakı fərqi nəzərə alın. Zəif şagirdə asan, güclü şagirdə çətin suallar verməklə onların bilik və bacarıqlarını düzgün qiymətləndirməlisiniz. Bu o demək deyil ki, zəif şagirdə daim asan suallar verməlisiniz. Təbii ki, onun bacarığını formalaşdırmaq üçün bir qədər ağır sual və tapşırıqlar da verilməlidir ki, təfəkkürü inkişaf etsin.

Tapşırığın icrasından sonra verilən cavablar qiymətləndirilməlidir. Şagirdlərdə öz qrup işləri ilə yanaşı, digər qrupların işinə də maraq yaransın deyə on-

ları müzakirələrə cəlb etmək lazımdır. Sual doğuran məqamlar onlar üçün aydınlaşdırılmalıdır.

Mövzunun nəticəyəgəlmə mərhələsini cədvəlləşdirməklə reallaşdırın. Niderlandda baş verən hadisələrin illərini şagirdlər cədvəlin bir tərəfində, hadisələr haqqında məlumatları isə digər tərəfində qeyd etsinlər. Məsələn:

| **Hadisənin baş verdiyi il** | **Baş vermiş hadisə** |
|---|---|
| 1566 | |
| 1572 | |
| 1576 | |
| 1579 | |
| 1609 | |

F blokuna aid olan hissə şagirdlər üçün maraqlı ola bilər.

**Qiymətləndirmə meyarları:** *fərqləndirmə, sistemləşdirmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Niderland burjua inqilabının baş verdiyi dövrü fərqləndirməkdə çətinlik çəkir. | Niderland burjua inqilabının baş verdiyi dövrü fərqləndirməkdə kömədən istifadə edir. | Niderland burjua inqilabının baş verdiyi dövrü fərqləndirərkən bəzi səhvlərə yol verir. | Niderland burjua inqilabının baş verdiyi dövrü asanlıqla fərqləndirir. |
| Niderland burjua inqilabını sistemləşdirməkdə çətinlik çəkir. | Niderland burjua inqilabını sistemləşdirərkən ciddi səhvlərə yol verir. | Niderland burjua inqilabını faktlar əsasında sistemləşdirərkən bəzi qüsurlara yol verir. | Niderland burjua inqilabını faktlar əsasında asanlıqla sistemləşdirir. |

# MÖVZU 24. AVROPA VƏ AMERİKA XALQLARININ MƏDƏNİYYƏTİ

**Məzmun standartı:**

5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

**Təlim məqsədi:**

1. Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.
2. Avropa mədəniyyəti barədə məlumat toplayır.

**İnteqrasiya:**

Az-t. 5.1.3.; Ə. 3.1.2.; X-d. 2.1.3.

Bu mövzunun tədrisi üçün BİBÖ üsulunu tətbiq edin. Siz BİBÖ cədvəlini öncədən lövhəyə asın. Təbii ki, dərs motivasiya ilə başlanmalıdır. Əvvəlcə A blokundakı mateialla şagirdləri tanış edin. Yaxud da öncədən hazırladığınız sualları şagirdlərinizə verin. Şagirdlərdən Avropa mədəniyyəti ilə bağlı bildiklərini soruşub BİBÖ cədvəlinin «bilirəm» hissəsinə qeyd edin. Yaxud da onlar bildiklərini rəngli kağızlara yazıb, cədvəlin «bilirəm» hissəsinə yapışdırsınlar. Sonra isə öyrənmək istədikləri məsələləri qeyd etsinlər. «Öyrəndim» mərhələsi, təbii ki, dərsin sonunda doldurulacaq.

Şagirdlər C blokundakı materialla tanış olandan sonra onlara növbə ilə mətni oxutdurun. Xahiş edə bilərsiniz ki, hər hansı hissəni ucadan və anlaşıqlı oxusunlar. Sonra şagirdlərdən mətndəki hadisəyə münasibət bildirmələrini xahiş edin. Daha sonra onların diqqətini B blokundakı suallara cəlb etməklə fəallaşmalarına şərait yaradın. Onlara keçdikləri dərslərlə əlaqə yaratmağa kömək edin. Diqqətlərini D blokuna aid olan şəkillərə cəlb etmək üçün onlara suallar verin.

Tədqiqat üçün «*Avropa mədəniyyəti dünyaya nələr bəxş edib?*» sualını vermək olar. Bu tədqiqatın aparılması üçün B və G bloklarındakı tapşırıqlardan istifadə edilə bilər. «Avropa mədəniyyəti» barədə materiallar toplayan şagirdlərə həmin materialları sistemli şəkildə izah etmək üçün onları ya cütlərdə, ya da qruplarda birləşdirin. Onlar qoyulan tapşırığa uyğun materialları izah edib qeydlər aparsınlar. Məsələn, qruplardan birinin işi «Avropada memarlığın inkişafını izah et» ola bilər. Qrup üzvləri dərslikdəki material və özlərinin topladıqları materiallar əsasında izahlar hazırlaya bilərlər. Məlumatların mübadilə

və müzakirə mərhələsini reallaşdırdıqdan sonra qərarlar ağacı üsulunu tətbiq etməklə nəticəyə gələ bilərsiniz.

Yekun nəticəyə gəldikdən sonra şagirdlərə maraqlı gələn istiqamətlər barədə ev tapşırığı vermək, yaxud «Avropa mədəniyyəti» haqqında esse yazmağı tapşırmaq olar.

Digər dərslərin tədrisində olduğu kimi qiymətləndirmə məqsədəuyğun, müəyyən edilmiş meyara əsasən aparılmalıdır.

**Qiymətləndirmə meyarları:** *izahetmə, məlumat toplama*

| I | II | III | IV |
|---|---|---|---|
| Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah etməkdə çətinlik çəkir. | Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edərkən suallardan istifadə edir. | Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edərkən bəzən çətinlik çəkir. | Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini faktlarla izah edir. |
| Avropa mədəniyyəti barədə məlumat toplamaqda çətinlik çəkir. | Avropa mədəniyyəti barədə məlumat toplayarkən yoldaşlarının köməyindən istifadə edir. | Avropa mədəniyyəti barədə bəzi məlumatları toplayır. | Avropa mədəniyyəti barədə lazımlı məlumat toplayır. |

## DƏRS NÜMUNƏLƏRİ

### ƏRƏB XİLAFƏTİ

***Standartlar:***

2.1.2. Dövlətlərin və xalqların həyatında məkan baxımından baş verən dəyişiklikləri xəritələrdəki məlumatlar əsasında təhlil edir.

3.1.1. Feodal dövlətlərin yaranmasını, idarəçilik formalarını və sosial-iqtisadi, siyasi münasibətlərini şərh edir.

***Məqsəd:***

Ərəb dövlətində baş vermiş dəyişiklikləri xəritələr vastəsilə təhlil edir.

Ərəb dövlətinin yaranmasını, idarəçilik formasını və sosial-siyasi münasibətlərini şərh edir.

***Təlim forması***: kollektiv və qruplarla iş

***Təlim üsulu:*** beyin həmləsi, müzakirə, Venn

***İnteqrasiya:*** Az-t. 2.1.2.; C. 3.2.1.; H-b. 2.1.2.

***Resurslar:*** xəritə, şəkillər, dərslik, flipçart, marker, iş vərəqi, paylayıcı material və s.

***Dərsin mərhələləri:*** Motivasiya



1) Bu illüstrasiya haqqında nə deyə bilərsiniz? 2) Bu insanların həyat tərzini necə təsəvvür edirsiniz? 3) Şəkillər hansı xalqın həyatını əks etdirir? 4) Ərəblər öz dövlətini necə yaratdı?

*Şagirdlər öz fərziyyələrini irəli sürürlər.*

***Tədqiqat sualı:*** Ərəb xilafətinin tarixdəki rolu nədən ibarətdir?

Bu suala cavab axtarmaq üçün qruplarla iş aparılır. Onlara tapşırıqlar verilir.

***I qrup*** – «Nicat yolu» deyəndə nə başa düşürsünüz? Ərəblərin həyatını təsvir edib, fikrinizi əsaslandırın.

***I qrup*** – Ərəb işğalları və onun nəticələri haqqında fikirlərinizi söyləyin. Xəritənin köməyindən istifadə edin.

***III qrup*** – Ərəb xilafətində dövlət idarəçilik forması necə idi? Cədvəl qurun.

***IV qrup*** – Xilafətin süqutunun səbəblərini, xürrəmilər hərəkatının, üsyanların rolunu müəyyən edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş vaxt ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər.

***Məlumatın müzakirəsi***: Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Nəticə və ümumiləşdirmə***: Nəticədə şagirdlər ərəb xalqının köçəri tayfa halında yaşadığını, İslam dininin meydana gəlməsi ilə ərəb dövlətinin yarandığını və Xilafətə çevrilməsi haqqında öyrəndilər. Ərəb işğalları zamanı qonşu dövlətlərin siyasi vəziyyəti və Xilafətin idarə forması ilə tanış oldular. Xilafətin zəifləməsində üsyanların rolunun da olmasını bildilər.

***Yaradıcı tətbiqetmə***: Venn diaqramında Qərbi Hun dövləti ilə Ərəb dövlətini müqayisə edin.

***Ev tapşırığı***: Məhəmməd peyğəmbər haqqında məlumat toplamaq və slaydlar hazırlamaq.

***Refleksiya və qiymətləndirmə***: Şagirdlər təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə fərdi şəkildə qiymətləndirilir. Məsələn: Biz nəticəyə necə gəlib çıxdıq? Məqsədimizə necə nail olduq? Nə üçün ərəblər dəvəni səhra gəmisi adlandırırdılar? Ərəblərin hərbi uğurlarının səbəbləri nə idi? Ərəblərin Avropaya yürüşlərinin qarşısı nə vaxt alındı? Ərəb xilafəti nə üçün zəiflədi? Xəritədə Ərəbistan yarımadasını və Ərəb xilafətinin ərazisini göstərin.

**Qiymətləndirmə meyarları:** *təhliletmə; şərhetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Təhliletmədə çətinlik çəkir. | Təhlil edərkən müəllimin köməyindən istifadə edir. | Təhliletməni reallaşdırır, lakin bəzi səhvlərə yol verir. | Təhliletməni asanlıqla həyata keçirir. |
| Şərhetmədə çətinlik çəkir. | Şərh zamanı müəllimin köməyindən istifadə edir. | Şərh edir, lakin fikrini çatdırarkən çətinlik çəkir. | Sərbəst şəkildə şərh edir. |

# TÜRK VƏ QAFQAZ XALQLARININ XƏZİNƏSİ. İSLAMIN TÖHFƏLƏRİ

***Standartlar:***

5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

***Məqsəd:***

Türk və Qafqaz xalqlarının, eləcə də İslam mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir.

***Təlim forması***: kollektiv və qruplarla iş

***Təlim üsulu:*** beyin həmləsi, müzakirə

***İnteqrasiya:*** Az-t. 5.1.2.; H-b. 3.3.1.; İnf. 3.2.2.; Ə. 3.1.2.

***Resurslar:*** xəritə, şəkillər, dərslik, flipçart, marker, iş vərəqi, paylayıcı material və s.

***Dərsin mərhələləri:*** Motivasiya:

Bu dərsə başlayarkən aşağıdakı şəkillərdən və slaydlardan istifadə edə bilərsiniz. Şagirdlərin diqqətini məqsədə yönləndirmək üçün suallar da vermək olar. Məsələn, şəkildəki bu illüstrasiyalar hansı mədəniyyətə aiddir? Mədəniyyət deyəndə nə başa düşürsünüz?



*Şagirdlər öz fərziyyələrini irəli sürürlər. Onların söylədikləri fikirləri flipçartda, yaxud da lövhədə qeyd edin. Fərziyyələri düzgün istiqamətləndirməklə şagirdləri tədqiqat sualına cəlb etmək olar.*

***Tədqiqat sualı:*** Şərq mədəniyyəti dünya mədəniyyətinə necə təsir göstərmişdir?

Bu sualı cavablandırmaq üçün qruplarla iş aparılır. Qrup bölgüsünü apardıqdan sonra şagirdlərə aşağıdakı tapşırıqları verə bilərsiniz.

***I qrup*** – «Orxon–Yenisey abidələri»nin tarixi əhəmiyyətini izah edin.

***II qrup*** – Şərq mədəniyyətində böyük rol oynamış şəxslərin dünya mədəniyyətinə təsirini müəyyən edin.

***III qrup*** – İslam mədəniyyətinin inkişafı deyəndə nə başa düşürsünüz? Fikirlərinizi qeyd edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş vaxt ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər.

***Məlumatın müzakirəsi***: Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar meyar əsasında qiymətləndirilir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Nəticə və ümumiləşdirmə***: Nəticədə şagirdlər Türk xalqlarına məxsus ən mühüm yazılı mənbənin Orxon–Yenisey abidəsi olduğunu bildilər. Bu abidənin V–VIII əsrlərə aid olduğunu və əhəmiyyətini öyrəndilər. Ərəb mədəniyyətinin necə formalaşmasını, eləcə də Şərq mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələri müəyyənləşdirdilər.

***Ev tapşırığı***: «İslam mədəniyyəti» adlı təqdimat hazırlayın.

***Refleksiya və qiymətləndirmə***: Şagirdlər təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə fərdi şəkildə qiymətləndirilir. Nəticəyə necə gəlib çıxdıq? Məqsədimizə necə nail olduq?

İslam mədəniyyətinin formalaşmasında türk xalqlarının rolu nədən ibarətdir? İslam mədəniyyəti dedikdə nə başa düşürsünüz? Astronomiyanın inkişafı nəyə səbəb oldu?

***Qiymətləndirmə meyarları:*** *müəyyənetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Müəyyənləşdirmədə çətinlik çəkir. | Müəllimin köməyindən istifadə etməklə müəyyən edir. | Müəyyənləşdirərkən bəzi səhvlərə yol verir. | Asanlıqla müəyyən edir. |

***Qeyd:*** *Qiymətləndirmə apararkən şagirdlərin bilik və bacarıq səviyyələrinə görə onları fərqləndirə bilərsiniz. Sizə təqdim edilən cədvəldə 4 səviyyə üçün qiymətləndirmə təqribi xarakter daşıyır. Bu say sinifdə 3 və ya 5 də ola bilər. Başqa sözlə desək, qiymətləndirmə apararkən şagirdlərinizin məqsədəuyğun seçdiyiniz meyara necə cavab vermələrini nəzərə almanız məsləhətdir.*

## «ÜMUMİ TARİX»
## FƏNN KURİKULUMUNUN MƏZMUNU

Tarix bəşər cəmiyyətinin meydana gəlməsi və inkişaf pilləsini ən qədim zamanlardan bu günümüzə qədər izləyən elmdir. Tarix öyrənməklə biz bugünkü dövrü başa düşməyə, təsəvvür etməyə və düzgün qiymətləndirməyə istiqamətlənirik. Tarix fənni şagirdlərə keçmiş və müasir dövr problemlərini tədqiq etmək, cəmiyyətin inkişafının xüsusiyyətlərini dərk etmək, sosial-siyasi, iqtisadi və mədəni proseslərin bir-birilə qarşılıqlı təsirini öyrənmək imkanı yaradır. Tarix dərslərində şagirdlər insan cəmiyyətinin meydana gəlməsini, onun zaman və ətraf aləmlə əlaqədə inkişafını və s. qarşılıqlı əlaqələri öyrənirlər.

Tarix fənni şagirdlərə cəmiyyətdəki proseslərə fəal münasibət bəsləməyi, özündə zaman hissini formalaşdırmağı, öz dövrünü və özünü daima dəyişən dünya ilə əlaqələndirməyi, hadisələrə münasibət bildirməyi öyrədir.

Tarix şagirdlərdə insanlara, maddi və mənəvi mədəniyyətin inkişafı sahəsində onların işinə hörmət hissini tərbiyə etmək, ictimai inkişafın müxtəlif problemləri ilə əlaqədar tədqiqat aparmaq və onların həlli yollarını tapmaq, əməkdaşlıq etmək, tənqidi düşünmək, hadisə və təzahürlərin inkişafının nəticələrini proqnozlaşdırmaq, düşdüyü şəraitdən baş açmaq və düzgün qərarlar qəbul etmək və b. bacarıqlar formalaşdırmağa imkan verir.

Müasir dövr məktəblidən başqalarının fikirlərinə hörmətlə yanaşmağı, sosial mühitdən asılı olmayaraq, insanların düşdüyü vəziyyəti başa düşməyi, onlara həssas yanaşmağı, kollektivlə əməkdaşlıq etməyi, ətrafındakı situasiyanı düzgün təhlil edərək uğur qazanmağı tələb edir. Qeyd edilən bacarıq və vərdişlərin aşılanmasında tarix fənni xüsusi rol oynayır.

Digər fənlər kimi, tarix fənninin də məqsədləri var və həmin məqsədlər ümumtəhsil məktəblərinin qarşısına qoyulmuş məqsədlərdən irəli gəlir. Məqsədlər real olmalı, həyatın tələb etdiyi zəruri bacarıq və vərdişlərin formalaşmasına, şagirdlərin şəxsi maraqlarının təmin olunmasına istiqamətlənməlidir.

Bu gün təhsildə aparılan ən zəruri islahatlardan biri kurikulumun tətbiqidir ki, bu da fənn kurikulumlarında öz əksini tapmaqdadır. Hazırda fənn kurikulumlarının üzərində günün tələblərinə cavab versin deyə daha mükəmməl işlənilməkdədir.

Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumunun tərkib hissəsindən biri də «Ümumi tarix» fənninin kurikulumudur. O, Milli Kurikulumda nəzərdə tutulan funksiyaların reallaşdırılmasına xidmət edir. Milli Kurikulumun hazırlanmasının ümumi prinsipləri «Ümumi tarix» fənnində də gözlənilməlidir.

Nəzərdə tutulan «Ümumi tarix» fənn kurikulumu bu fənnin ümumi təlim nəticələrinin əldə edilməsini təmin edəcək planlaşdırmanı, öyrənmə nəzəriyyə-

sini, idarəetməni əhatə etməlidir. Kurikulumda fənnin məzmunu nəticəyönümlü yanaşma əsasında müəyyənləşdirilməlidir. Bu o deməkdir ki, hər təhsil pilləsi üzrə ümumi təlim nəticələrinin nəzərə alınması əsasında həmin pillə üçün xarakterik olan, bu pillə üçün nəzərdə tutulan bilik və bacarıqların formalaşmasına xidmət edən məzmun müəyyənləşdirilməlidir. Kurikulum tərtib olunarkən şagirdlərin qabiliyyətlərinin əhatə olunmasına cəhd göstərilməli, diqqətçəkən məqamlara toxunulmalıdır. Bu, kurikulumda öz ifadəsini ümumi təlim nəticələri, sinif üzrə təlim nəticələri və bunların yerinə yetirilməsini təmin edən alt standartlar, habelə şagird nailiyyətlərini əks etdirən standartlar sistemində tapmalıdır.

«Ümumi tarix» fənni kurikulumu hazırlanarkən təhsil mütəxəssisləri, şagirdlər, müəllimlər, valideynlər, dərslik və metodik vəsaitlərin tərtibi nəzərə alınmalıdır.

Müasir dövr məktəb məzunlarından aşağıdakı təfəkkür bacarıq və vərdişlər tələb edir:

Ümumiləşdirmə, məntiqi əməliyyatlar vasitəsilə reallaşdırılan təhlil;

Yaradıcı fəaliyyət təcrübəsi, tarixi faktların təhlilinə müxtəlif mövqelərdən yanaşmaq və qiymətləndirmək;

Əsas tarixi fakt və hadisələrin, onlar arasındakı səbəb-nəticə əlaqələrinin açılması;

Tarixi faktlarda ictimai inkişafın ümumi qanunauyğunluğunun əlamətlərini görmək, hər bir tarixi faktda mövcud olan inkişaf tendensiyasının aydınlaşdırılması və proqnozlar verilməsi.

Məktəblilərin ən qədim dövrlərdən müasir dövrə kimi bəşəriyyətin keçdiyi tarixi yol haqqında biliklərin əsaslarına yiyələnməsi;

Vətənin tarixi keçmişinə, bu gününə, gələcəyinə məhəbbət və nikbinlik hissi yaratmaq, dünya sivilizasiyasının nailiyyətlərinə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşmaq, münasibət bəsləmək keyfiyyətləri aşılamaq;

Tarixi biliklərin əsaslarına yiyələnmək, müstəqil surətdə bilik və bacarıqlar qazanmaq və müasir həyat hadisələrinin təhlili, qiymətləndirilməsi və proqnozlaşdırılmasında onları tətbiq etmək, gündəlik fəaliyyətində tarixi təfəkkür, bacarıq və vərdişlərindən faydalanmasına nail olmaq.

Bütün tədrisin sonunda şagird aşağıdakılara yiyələnməlidir:

Tarixdə il hesabından istifadə edərək xronologiya ilə işləməli, tarixi faktların məkan əlaqələrini müəyyənləşdirməli, tarixi fakt və prosesləri təsnif, təsvir və təhlil etməli, tarixi hadisə və proseslərin başlıca və mühüm cəhətlərini ayıraraq, tarixi hadisə və prosesləri müqayisə edərək, onların oxşar və fərqli cəhətlərini müəyyən etməlidir. Xalqların və dövlətlərin siyasi, sosial-iqtisadi həyatında baş verən dəyişiklikləri tarixi məkanla əlaqədə təhlil etməli, müxtəlif mənbələr əsasında tarixi faktlarla bağlı məlumat toplayaraq sistemləşdirməli, onların təhlili və müqayisəsi əsasında nəticələr çıxarmalıdır.

Dünya tarixinin hadisə və təzahürlərini Azərbaycan tarixinin eyni dövrləri ilə əlaqələndirərək təhlillər aparmalı, tarixi proseslər, təzahür və hadisələr

arasında səbəb-nəticə əlaqələrini müəyyən etməli, insan əməyinə, vətəndaşların hüquq və azadlıqlarına, ətraf aləmə münasibətdə Şərq və Qərb sivilizasiyaları arasındakı fərqi müəyyənləşdirməli, Qərb və Şərq sivilizasiyalarının qarşılıqlı təsirinin ayrılıqda onların hər biri, ümumilikdə dünya sivilizasiyası üçün nəticələrini proqnozlaşdırmağı bacarmalıdır.

«Ümumi tarix» fənninin məzmunu onun məzmun xətləri əsasında qurulur. Məzmun xətləri fənn üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasının istiqamətlərini müəyyən edir. Dünya ölkələrinin təcrübələrindən çıxış edərək «Ümumi tarix» fənni üzrə təhsil pilləsi üçün aşağıdakı məzmun xətlərini müəyyən etmək olar.

- Tarixi zaman
- Tarixi məkan
- Dövlət
- Şəxsiyyət
- Mədəniyyət

«Ümumi tarix» fənninin məzmununun siniflər üzrə dəyişməsi ilə əlaqədar olaraq hər sinifdə şagirdin fəaliyyətinin səviyyəsi məzmun xətlərinin standartlarına uyğun olaraq davamlı inkişaf etdirilməli, hər bir sonrakı sinifdə şagird əvvəlkinə nisbətən daha mürəkkəb zehni, əməli, kommunikativ fəaliyyətləri icra etməli, yəni şagirdlərin fəaliyyətinə verilən tələblər sinifdən-sinfə mürəkkəbləşdirilməlidir.

**1. Tarixi zaman:** Hər bir tarixi fakt müəyyən bir zamanın məhsuludur. Tarixi zaman daima dəyişir. Bu dəyişiklikləri müşahidə edən şagird özündə zaman hissi formalaşdırmalıdır. Bu isə şagirdə öz dövrünü və özünü daima dəyişən zamanla əlaqələndirməyi öyrədir. İnsanı, yaşadığı ətraf mühiti, başqa hadisə və təzahürləri tarixi zamanla sıx, qarşılıqlı əlaqədə götürmədən düzgün tarixi biliyə malik olmaq mümkün deyil. Buna görə də şagirdlərdə tarixi zamanla bağlı aşağıdakı bacarıqların formalaşdırılması zəruri hesab edilir.

**2. Tarixi məkan:** Tarixin əsas predmeti insandır. İnsanın bütün həyatı ətraf mühitlə bağlıdır. Onun əməyi, inkişafı bu mühitdən asılıdır və əsasən, bu mühitlə müəyyən olunur. Buna görə də insanın tarixini onun yaşadığı, fəaliyyət göstərdiyi məkandan ayrılıqda öyrənmək, başa düşmək mümkün deyil.

Tarixi məkan hər bir xalqın, dövlətin, cəmiyyətin başqaları ilə əlaqələrinə və bu əlaqələrdən maddi-mənəvi sərvətlər yaratmaq üçün faydalanmalarına müxtəlif dərəcədə təsir göstərmişdir. Tarixi məkanın bu təsirini nəzərə almadan dövlətlərin, xalqların və cəmiyyətlərin inkişaf səviyyəsindəki fərqləri başa düşmək mümkün deyil.

**3. Dövlət:** Tarixin predmeti olan insanın daxil olduğu ən mürəkkəb və nisbətən sabit qurum dövlət olmuşdur. İbtidai icma cəmiyyətinin dağılmasından müasir dövrə kimi mövcud olan cəmiyyətlərdə siyasi quruluş etibarilə bir-birindən fərqlənən dövlətlər olmuş, bu dövlətlərdə insanın siyasi vəziyyətində müxtəlif dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərə müxtəlif amillər təsir

göstərmişdir. İnsan–dövlət münasibətləri bir sıra inkişaf mərhələlərindən keçmişdir. Bu mərhələlərdə dövlət insana münasibətdə müxtəlif vəzifələri yerinə yetirməli olmuşdur. Qərb və Şərq sivilizasiyalarında da insan–dövlət münasibətləri eyni xarakterli olmamışdır. Nəhayət, vətəndaş cəmiyyətində, hüquqi dövlətdə insan–dövlət münasibətləri müəyyən xüsusiyyətlərə malikdir.

**4. Şəxsiyyət:** Tarixi şəxsiyyətlərin fəaliyyəti tarixi hadisələrin gedişinə müəyyən təsir göstərir. Onların fəaliyyətinin təhlil edilməsi və qiymətləndirilməsi tarixi inkişaf prosesində görkəmli şəxsiyyətlərin rolunu müəyyənləşdirməyə imkan verir. Bu mənada şagirdlərin tarixi inkişafın müxtəlif mərhələlərində görkəmli şəxsiyyətlərin rolunu başa düşmələri üçün onlara dünya tarixi ilə bağlı şəxsiyyətlərin fəaliyyətini qiymətləndirməyə imkan verən bacarıqlara yiyələnməsi zəruridir.

**5. Mədəniyyət**: İnsanın maddi həyatı ilə yanaşı, mənəvi həyatı da formalaşır, maddi həyatının mürəkkəbləşməsi ilə yanaşı, mənəvi həyatı da zənginləşməkdə davam edir. İnsanda zəngin mənəvi bir dünya formalaşır. İnsanların mənəvi aləmlərində yaratdıqları sərvətlər bəşər mədəniyyətinin bugünkü nailiyyətlərinə gətirib çıxarıb. İnsanların mənəvi həyatının əsaslarını, inkişafının səciyyəvi cəhətlərini açmadan, yaradıcılıq nailiyyətlərini təhlil etmədən və qiymətləndirmədən Ümumdünya mədəniyyətinin bugünkü səviyyəsini başa düşmək və dəyərləndirmək çətindir.

Müxtəlif xalqlar və sivilizasiyalar arasındakı əlaqələrin öyrənilməsi bu əlaqələrin xarakterini, onun siyasi, iqtisadi, mədəni əsaslarını açmağa kömək edir. Məsələnin qoyuluşu belə bir nəticəyə gəlməyə imkan verir ki, xalqlar, dövlətlər ayrılıqda, təcrid edilmiş vəziyyətdə yaşaya bilməzlər, cəmiyyətlərin inkişafı zərurəti onların beynəlxalq əlaqələrini zərurətə çevirir.

Mədəniyyətlərarası münasibətlərin öyrənilməsi müxtəlif dövrlərdə müxtəlif xalqların və dövlətlərin mədəniyyətlərarası münasibətlərə təsirini aşkara çıxarmağa, qarşılıqlı əlaqə və təsirin dünyanın sonrakı inkişafına təsirini müəyyənləşdirməyə, ərazi dəyişikliklərini izləməyə, müxtəlif hərbi-siyasi blokların yaranmasını və onların fəaliyyətlərinin səbəb-nəticə əlaqələrini başa düşməyə kömək edir.

Ümumiyyətlə, «Ümumi tarix» fənn kurikulumu bu fənnin məqsəd və vəzifələrini, onun əhəmiyyətinin əsaslandırılmasını, fənnin özünəməxsus cəhətlərini, əsas və orta təhsil pillələri üzrə ümumi təlim nəticələrini, fənn üzrə məzmun xətlərini və onların əsaslandırılmasını, hər bir sinif üzrə ümumi təlim nəticələrini (əsas məzmun standartlarını), alt standartları, fəndaxili və fənlərarası inteqrasiyanı, təlim strategiyalarını, qiymətləndirmə nümunələrini əhatə edən sənəd olmalıdır.

## TARİX DƏRSLƏRİNDƏ ƏYANİLİK

Kurikulum spiralvari bilik və bacarıqları formalaşdırmaq məqsədi daşıyır. Bütün siniflər üzrə təfəkkürün inkişafı üçün imkanlar nəzərə alınmış, hər bir standart təlim nəticələrinin əldə edilməsindən ötrü tərtib edilmişdir. İnkişafyönümlülük prinsipini əsas götürən tarix fənn kurikulumu şagirdlərin şəxsiyyət kimi formalaşaraq cəmiyyətə verilməsini gərəkli bilir. Şagirdlər tarix dərsi vasitəsilə bir çox bilik və bacarıqlara malik olurlar. Bunun üçün müxtəlif vasitələr vardır. Bunlardan biri də əyani təlim metodlarıdır.

Tarix dərslərinin tədrisin əyanilik prinsipini nəzərə alan müəllim şagirdlərin müzakirələrdən, nəticələrdən, sübutlardan düzgün istifadə etmələrinə şərait yaratmalıdır. Bu zaman müəllimin köməyinə ən çox əyani vəsaitlər gəlir. Şagirdləri müxtəlif iş formalarına cəlb etməklə onlarda araşdırma bacarığı formalaşdırmaq lazımdır. VII sinifdə tarix fənninin tədrisi zamanı əyanilikdən istifadə edilməsi zəruri və əhəmiyyətlidir. Yuxarı siniflərdə də onun rolu böyükdür, yalnız əyaniliyin növləri və istifadə edilməsi yolları dəyişilir. Bu zaman konkret tarixi hadisələrin, tarixi faktların müxtəlifliyi əks olunur. Eləcə də əyanilik şagirdin dərketmə fəaliyyətini asanlaşdırır, qavramasını və tarixi hadisələri müşahidə etməsini reallaşdırır. Əyaniliyin yaratdığı obraz uzun müddət yadda qalır. Əyanilik mənimsəmənin keyfiyyətini yüksəldir, təfəkkürün formalaşmasına kömək edir.

Tarix dərslərində əyanilik müxtəlifliyinə görə fərqlənir. Onun aşağıdakı növləri var:

***Əşya və obraz əyaniliyi:*** Tarixi əşya və hadisələrin təsvirlərini, yəni tarixi şəkilləri, illüstrasiyaları, tarixi xadimlərin portretlərini və s. bu növə aid etmək olar. Bu növə aid olan əyani vasitələrin standartlarını dərslərinizdə reallaşdırmaq imkanına malik olacaqsınız.

***Obrazlı nitq əyaniliyi:*** Bu vasitədən ya dərslikdəki mətn oxunarkən, ya müəllimin mühazirəsi dinlənilərkən, yaxud da təqdimatlar hazırlanarkən daha çox istifadə olunur. Təəssürat əmələ gətirən çox ifadəli, mənalı təsvir vasitəsi olan dil bu növün reallaşdırılmasında əsasdır. Bu zaman şagirdlərdə şifahi nitq bacarıqları da formalaşmış olur. Standartlar bu növün də inkişafını nəzərdə tutmuşdur. Məsələn: 5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

***Şərti təsviri əyanilik:*** Tarixin tədrisində sxemlər, xəritələr, cədvəllər, diaqramlar, qrafiklər bu növə aiddir. Bu əyanilik növünün rolu əlaqələri, asılılıqları, münasibətləri göstərməkdir. Əgər diqqət yetirsəniz görərsiniz ki, məhz bu növün vasitəsilə şagirdlərdə bir çox standartlara uyğun bilik və bacarıqlar formalaşdırmaq daha önəmlidir. Məsələn: 3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

***Dinamik əyanilik:*** Çox zaman prosesi, hadisəni hərəkətdə, inkişafda göstərmək lazım gəlir. İdrakı keyfiyyət dəyişikliklərinə yönəltmək, şagirdlərin

müşahidəsini inkişafın ayrı-ayrı pillələri, mərhələləri üzrə cəmləşdirmək vacibdir.

Tarix fənninin tədrisində əyani vasitələri tətbiq edərkən şagirdləri həddən artıq yükləməyin. Şagirdə lazım olan və onun qavramasına kömək edəcək qədər materiallardan istifadə edin. Həddən artıq yükləmə tədris materialının başa düşülüb mənimsənilməsində çətinlik yarada bilər. Bunun nəticəsində şagirdlərin müstəqillik və fəallığı aşağı düşər.

Həmçinin dərsin qurulması zamanı əyani vasitələrdən düzgün və aydın məqsəd üçün istifadə edin. Lazımi vaxtda müəyyən əyani vasitələrdən istifadə daha səmərli olar. Məsələn, motivasiya mərhələsindən öncə gətirdiyiniz əyani vəsaitlərin üzərini örtülü saxlayın. Bu şagirdlər üçün maraqlı olacaq. Əyani vəsaitlər lazımi məqamda təqdim edilərsə, bu zaman onlarda idrak fəallığı yaranar, dərs daha yaxşı yadlarında qalar. Eyni zamanda əyanilikdən istifadə edərkən şagirdlərin yaşı nəzərə alınmalıdır.

Müxtəlif əyani vasitələrdən istifadəyə görə bu təlimi çox vaxt əyani təlim də adlandırırlar. Kurikulum islahatı əyaniliyə üstünlük verir və şagirdlərin inkişafı üçün əyani təlimdən istifadəni dəstəkləyir. Əyaniliyi tətbiq etməklə biz təlimdə son dərəcə mühüm olan bir cəhəti – idrakın əsas mərhələsi olan canlı müşahidə cəhətini inkişaf etdirmiş oluruq.

Tarix fənninin əşya əyaniliyi də köməyinizə çatacaq. Təbii ki, bu zaman tarixi keçmişin özünü dərsə gətirmək çətindir. Bu işdə muzey ekspozisiyalarından istifadə işin səmərəli təşkili üçün ən tutarlı vasitədir. Muzey eksponatlarının köməyi ilə şagirdlər həm öz tarixi biliklərini möhkəmləndirəcək, həm də yeni bir bacarıq – maddi mənbə ilə işləmək bacarıqlarını formalaşdırmış olacaqlar.

Son vaxtlar məktəblərin əksəriyyətində ölkəşünaslıq muzeyləri təşkil edilmişdir. Bu da tarix dərslərində əşya əyaniliyindən istifadə üçün ən yaxşı bazadır. Lakin hətta ən zəngin tarix guşəsinin, yaxud yerli ölkəşünaslıq muzeyinin olmasına baxmayaraq, əyanilik üçün canlı ekskursiyalar ən yaxşı vasitədir. Düzdür, hər bir dərsin ekskursiyalar təşkil etməklə tədrisi mümkün deyil. Amma ekskursiya üçün də müəyyən vaxt ayırmanız zəruridir.

Təsviri əyanilik vasitəsi olaraq şəxsiyyətlərin, tarixi abidələrin şəkillərindən istifadə edə bilərsiniz. Tarixə dair tədris xəritələri, illüstrasiyalar, karikaturalar, bədii və tədris filmləri, sənədli filmlər, maketlər və s. əyanilik üçün səmərə verən vasitələrdir.

Məktəbdə istifadə edilən təsviri əyanilik vasitələri içərisində aşağıdakılar fərqləndirilir:

a) sənəd xarakterli təsvirlər – sənədli fotoşəkillər, sənədli kinofilmlərin, əşyavi abidələrin, əmək alətlərinin və mədəniyyət abidələrinin bizə gəlib çatdığı şəkildə təsvir edilməsi;
b) arxitektura abidələrinin, əmək alətlərinin, məişət əşyalarının və bunların komplekslərinin elmi cəhətdən əsaslandırılmış surətdə yenidən qurulması;

c) rəssamın və ya illüstratorun yaradıcılıq təxəyyülü ilə tarixi məlumatlara əsasən yaradılmış bədii kompozisiyalar; buraya tarixi rəsm əsərləri, simvollar, tədris şəkilləri və dərslikdəki illüstrasiyalar daxildir.

Buna aşağıdakılar misaldır:















Digər bir əyanilik növü şərti əyanilikdir. Bu əyanilik növü tarixi hadisələri şərti işarələrin dili ilə ifadə edir. Buraya xəritələr, sxematik planlar, sxemlər, diaqramlar, demoqrafik göstəricilər, qrafiklər daxildir.

***Hunların köç etməsinin əsas səbəbləri***




***Xilafət dövründə torpaq mülkiyyəti formaları***







Qərbi Hun imperatorluğunun ərazisi
İmperatorluğun mərkəzi hissəsi
Hunların Qərbi və Şərqi Roma imperiyalarına yürüşləri
Döyüş yerləri
BALTİK DƏNİZİ
SLAVYANLAR
SARMATLAR
ANQLAR
BURQUNDLAR
QƏRBİ HUN (AVROPA) İMPERATORLUĞU
İdil
Ağ hunlar
Katalaun çölü
SAKSLAR
QALLİYA
PANNONİYA
ALANLAR
Don
OSTQOTLAR
XƏZƏR DƏNİZİ
ALBANİYA DÖVLƏTİ
VESTQOTLAR
Tuna
QƏRBİ ROMA
QARA DƏNİZ
Roma
FRAKİYA
Konstantinopol
ARALIQ DƏNİZİ
BİZANS
ANADOLU
SASANİLƏR DÖVLƏTİ


XII əsrin əvvəllərində Fransa kralının hakimiyyətində olan ərazilər
XIV əsrin əvvəllərində kralın hakimiyyəti altında birləşdirilən ərazilər
İri feodal hakimlikləri
İngiltərənin Fransadakı mülkləri
1188-ci ilədək
XIV əsrin əvvəlində
Uincester
Qastinqs
Portsmut
La-Manş boğazı
Ruan
NORMANDİYA
PARİS
Brest
BRETAN
Orlean
Sena
Dijon
Anje
Nant
Luara
BURQUNDİYA
Puatye
Burbon
Biskay körfəzi
AKVİTANİYA
Luara
Rona
Lion
Bordos
Qaronna
QASKON
LANQEDOK
(TULUZA QRAFLIĞI)
Rona
Tuluza
Marsel
Ebro
KASTİLİYA KRALLIĞI
NAVARRA KRALLIĞI
ARAQON KRALLIĞI
ARALIQ DƏNİZİ

Daxili, predmet, təsviri və şərti əyanilik – tarixi əyanilik təliminin bu dörd əsas metodu əyanilik təliminə xas olan ümumi əlamətlərə malikdirsə də, onlardan hər birinin xüsusi psixoloji qavrayış qanunauyğunluqları, tarixi biliklər alınmasının spesifik üsulları və yolları vardır.

Tarixin əyani təlimi sözlə qırılmaz bağlıdır, iki siqnal sisteminin vəhdətinə əsaslanır. «Söz» ümumiləşdirmədir, lakin sözün funksiyası bununla bitmir. Söz, eyni zamanda obrazdır, o, insanın şüurunda obraz yaratmağa qadirdir. Sözün köməyi ilə biz şagirdlərin təsəvvürünü keçmiş haqqında konkretləşdirmək imkanı əldə edirik.

Ən əsası odur ki, əşya əyaniliyi və təsviri əyanilik vasitələrinin köməyi ilə biz şagirdlərdə tarixi keçmişin parlaq və dəqiq müşahidə obrazlarını yaradırıq. Əgər şagirdlər gəmilərin modellərini, onların təsvirlərini heç zaman görməyiblərsə, ən ətraflı məlumat da onlarda, məsələn, karavellalar haqqında yalnız sönük və dəqiq olmayan təsəvvür yaradacaq. Bunsuz isə o dövrdəki dəniz vuruşmasının mənzərəsini təsəvvür etmək olmaz. Əyani vasitələr şagirdlərin tarixi təsəvvürlərini dəqiqləşdirməyə və konkretləşdirməyə kömək edir. Tarix fənni tədrisinin təcrübəsi göstərir ki, əyani vəsaitdən istifadə vaxta xeyli qənaət edir. Çox zaman sadə bir sxem, diaqram və ya başqa bir vəsait elə suala çox asan cavab verməyə imkan yaradır ki, həmin cavabın izahı xeyli vaxt və səy tələb edərdi. Təkcə keçmişin konkret obrazları deyil, eyni zamanda ayrıca ideyalar da əyani vasitələrin köməyi ilə şagirdlərin xatirində asanlıqla möhkəmlənir. Emosional təsir qüvvəsinə malik olan əyani predmetlər və təsvirlər də tarix fənninin tədrisində böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Əyani materiallar sistemi, əsasən, tarixi faktları ümumiləşdirmənin müvafiq dərəcələri qaydasında yerləşdirilmiş aşağıdakı material növlərindən ibarətdir:

1. Tarixi keçmişin maddi abidələri, arxeoloji qazıntı materialları, məktəb muzeyinin eksponatları və s.









2. Sənəd xarakteri daşıyan təsvirlər və illüstrasiyalar, müasirlərin rəsmləri, sənədli fotoşəkillər, fotoportretlər və sənədli kinofilmlər.
3. Tarixi rəsm əsərləri, görkəmli şəxsiyyətlərin portretləri, bədii kinofilmlər.











4. Tədris şəkilləri və dərslikdəki illüstrasiyalar.
5. Karikaturalar və simvolik təsvirlər (gerb, bayraq).















6. Sxematik planlar və tarixi xəritələr.
7. Diaqramlar, qrafiklər, sxemlər.

Müşahidələr nəticəsində məlum olmuşdur ki, aşağı siniflərdə daxili əyaniliyin tətbiq edilməsi nəticəsində şagirdlərin təsəvvüründə onlar üçün yeni olan tarixi hadisələr, obrazlar və müasir həyatdan çox uzaq olan keçmişin mənzərələri yaranır. Yuxarı siniflərdə isə daxili əyanilik metodunun bir qədər başqa əhəmiyyəti vardır. Burada müəllim şagirdlərin bədii ədəbiyyatdan, illüstrasiyalı nəşrlərdən, kinofilmlərdən və televiziya verilişlərindən əldə etdikləri, tarixi yerlərə, muzeylərə getmələri nəticəsində öyrəndikləri təsəvvürlər dairəsinə arxalanmaq imkanı əldə edir.

VII sinif şagirdi keçmişin abidələrini müşahidə edərkən dövrün koloritini, qədim incəsənət abidələrinin gözəlliyini daha dərindən qiymətləndirməyə qadirdir.

Tarix dərsindəki təsviri əyanilik vasitələri içərisində tarixi mövzularda şəkillər mühüm yer tutur. Tarixi mövzulu şəkillər süjet xəttinə görə bir-birindən fərqlənirlər. Məsələn:

1. Hadisələri təsvir edən şəkillər: bu şəkillərdə mühüm hadisələr, hərbi-tarixi keçmişin, ictimai həyatın təkraredilməz faktları əks etdirilmişdir.

Şəkildəki tarixi hadisə, bir qayda olaraq, müəllimdən mövzunu çox aydın nağıl etməyi tələb edir.

2. Tipik şəkillər: bu şəkillərdə öyrənilən dövr üçün tipik olan tarixi hadisə əks olunur.

Tipik şəkillər çox zaman şagirdlərlə geniş müsahibə üçün zəngin material verir. Tipik şəkillər iqtisadiyyat, ictimai münasibətlər, məişət məsələlərinin öyrənilməsində əhəmiyyətli yer tutur.

3. Xüsusi qrup şəkillər: bu şəkillərdə qədim şəhərlərin, tikililərin, memarlıq abidələrinin və ansambllarının təsviri verilir. Məsələn: «Ayasofiya» abidəsi və s.









4. Tarixi portretlər – məktəb üçün nəşr olunmuş bu şəkillər içərisində portretlər azlıq təşkil etmir. Məsələn: Atilla, Böyük Karl və s.

Tarixi şəkillərin 4 növə bölünməsi şərtidir. Tarixi mövzuların tədrisi zamanı rəssamlıq əsərlərindən istifadə etmək də faydalı olar. Amma şəkil seçərkən müəyyən tələblərə əməl olunmalıdır.

Tarixi şəkillərdən aşağı siniflərdə geniş istifadə olunur. Yuxarı siniflərdə isə rəssamların bərpa əsasında yaratdıqları şəkillər, heykəllər və s. şagirdləri daha çox maraqlandırır. Onlar müasir rəssamların çəkdikləri şəkillərlə də maraqlanırlar. Şəkillər nümayiş etdirilərkən əsas didaktik qaydalar gözlənilməlidir. Şəkil lazım olduqda göstərilməlidir ki, dərs zamanı şagirdlərin fikri tez-tez yayınmasın. Unutmaq olmaz ki, şəkil sadəcə göstərilmək üçün deyil, şərhlər aparmaq üçün də istifadə olunmalıdır.







# TARİX TƏLİMİNDƏ TEXNİKİ VASİTƏLƏRDƏN İSTİFADƏ

Texniki vasitələrdən məharətlə və məqsədəuyğun şəkildə, yəni pedaqoji cəhətdən əsaslandırılmış halda istifadə edilməsi, təlimin çox təsirli həyata keçirilməsinə kömək edir. Texniki vasitələrin tətbiq edilməsi tarix müəlliminə tədris prosesinin təşkilini yaxşılaşdırmağa, dərsdə vaxtdan daha səmərəli istifadə etməyə imkan verir. Bu həm də tədris materialının şagirdlər tərəfindən daha yaxşı qavranılmasını təmin edir. Buna görə də tarix kabinetlərini təşkil edərkən onun imkan daxilində texniki vasitələrlə təchiz olunmasına nail olmaq lazımdır.

I. Hər bir məktəbdə təlimi təşkil etmək üçün tam sərfəli, ən sadə texniki qurğular olmalıdır:

Bu qurğular:

a) xəritələri və tədris şəkillərini asmaq üçün sadə quruluşlu mütəhərrik ağac dayaq;

b) bir yerdən başqa yerə aparıla bilən sinif yazı taxtası

c) qatlama sinif divar taxtası və s.-dən ibarətdir.

II. İkinci qrup texniki vəsaitlərə səs təkrar edən aparatlar, qrammofon və maqnitofon yazısı, radio verilişləri aiddir.

III. Üçüncü qrup texniki təlim vasitələrinə müxtəlif cihazlar daxildir. Tarix dərslərində epidoskop, diapozitivlər, diafilmlər və tədris filmləri tətbiq etmək çox səmərə verir. Bu vasitələrdən istifadə etmək üçün işıq əyaniliyi təmin olunmalıdır.

Tarix dərslərində işıq əyaniliyini ardıcıl tətbiq etmək üçün məktəbdə kino-kabinetin və ya müvafiq avadanlığın olması vacibdir:

a) sinfi tez qaranlıqlaşdırmağa və işıqlandırmağa imkan verən avadanlıq;

b) məktəblilərin iş yerlərini işıqlandıran və qaranlıq şəraitdə yazmağa, ekrana baxıb şəkillər çəkməyə, dərsliklə işləməyə imkan verən xüsusi elektrik lampaları.

Müəllimin sərəncamında nadir fotoşəkil, sənədin əsli, qədim qravür, kitabda maraqlı illüstrasiya olduğu hallarda epidoskopdan istifadə etmək sərfəlidir.

**Tədris kinofilmlərinə baxış təşkili.** Diafilmlər həm təkrar dərslərində, həm də yeni materialın öyrənilməsində tətbiq olunur.Tədris kinofilmləri – tarixi əyani təlim etmək vasitələrindən biri olmaqla, xüsusi təsirliliyi, mənalılığı, daha geniş diapazonu və təəssürat gücü ilə fərqlənir. Kino şifahi şərhin vasitələri ilə deyil, əyani şəkildə, tam hərəkətdə hadisələrin canlı təsvirini verir. Tarixi təlim etməyin digər əyani vəsaitlərindən fərqli olaraq, kino tarixi hadisələri inkişafda, hadisənin gərginliyi ilə dolu dramatik səhnələrdə göstərməyə imkan verir.

Əyani materialı dərsdə təqdim etməyə imkan verən kino bilik verməyin sərfəli metodlarından biridir. Lakin kinonun üstünlükləri tarix təlimində onu universal əyani vəsait kimi tanımağa hələ hüquq vermir. Pedaqoji planda ciddi əhəmiyyəti olan bir sıra mənfi cəhətlər onun tətbiq edilməsini məhdudlaşdırır. Bu nöqsanların bir hissəsi kinonun spesifik təbiəti ilə əlaqədardır, çox hissəsinə isə film yaradılarkən yol verilmiş səhvlər səbəb olur. Söz yox ki, filmə baxarkən şagirdlərdə mətnin heç olmazsa bir hissəsini oxumaq arzusu meydana çıxır.

Dərsdə tədris kinofilmlərindən istifadə etməzdən əvvəl, müəllim özü ona baxır, kadrların təsviri ilə tanış olur. Dərsdə tədris filminə baxılması əyləncə deyil, müəllimin təşkil etdiyi tədris işidir.

Tarix tədrisi təcrübəsində tədris filmlərindən istifadə olunmasının üç əsas üsulu müəyyən edilmişdir:

a) qısametrajlı tədris filmlərindən (3–10 dəqiqədən çox olmamaqla) istifadə olunan dərs;

b) kinodərs;

c) dərsdən kənar vaxtda filmə baxılması.

Lakin heç bir, hətta çox uğurlu tədris filmi mövzunun və ya ayrıca bir dərsin məzmununu tamamilə izah etməkdə və mənimsənilməsini təmin etməkdə, müəllimin işini və onun rəhbər rolunu əvəz edə bilməz.

Çoxmetrajlı tədris filmlərinə gəldikdə, tarix dərsində onların tətbiq edilməsi çox məhduddur və kinodərs formasında həyata keçirilir. Uzun müddət (20–25 dəqiqə) göstərilən kino başlıca olaraq giriş dərsi kimi özünü doğruldur.

Televiziya verilişləri də tarixin tədrisində mühüm yer tutur. Hazırda tarixə dair televiziya verilişləri təşkil etməyin iki üsulu mövcuddur.

Birinci üsul – tədris vaxtından kənar verilişlərdir ki, bu verilişlərə məktəblilərin evdə baxması nəzərdə tutulur.

İkinci üsul – «müstəqil televiziya təlimidir». Sinifdə, tarix dərsində baxmaq üçün səhər saatlarındakı xüsusi tədris televiziya verilişləridir.

Üçüncü metod kimi, müstəsna olaraq, şagirdlərin tarixə dair televiktorinalarda, disputlarda, tarixi mövzuda verilişlərdə iştirakı nəzərdə tutulur.

## TEST NÜMUNƏLƏRİ

**1. Uyğun olmayan bəndi göstərin:**

A) Ərəblərin ən böyük ticarət şəhəri Məkkə hesab olunurdu
B) Səhrada yaşıllıq və su olan yer vahə adlanır
C) Səhra adamı «bədəvi» adlanır
D) İlk Ərəb dövləti 632-ci ildə qurulmuşdu

**2. Böyük Moğol imperatorluğu və Min sülaləsinə aid ortaq cəhət:**

A) Torpaq üzərində dövlət mülkiyyətinin olması
B) Monqol yürüşlərinə məruz qalmaları
C) Əhalinin siyahıya alınması
D) Osmanlı dövləti ilə ticarət əlaqələrinin saxlanılması

**3. Qızıl Ordu dövlətinə aid deyil:**

A) İmtiyazlı şəxslər «tarxan» adlanırdı
B) XIII əsrdə meydana gəlmişdi
C) Rus torpaqlarını öz hakimiyyəti altında saxlayırdı
D) XIV əsrdə tamamilə süqut etmişdi

**4. Qızıl Ordu dövləti və Teymur imperatorluğuna aid oxşar cəhət:**

A) Hindistana yürüş
B) Şeybanilərlə mübarizə
C) XVI əsrin əvvəllərində süqut etmələri
D) Hülakülər dövlətinə yürüş

**5. Türk feodal dövlətləri hansılardır?**

A) Oğuz, Səlcuqlar, Qaraxanlılar, Qəznəvi, Bulqar
B) Əfqan, Samanilər, Qaraxanlılar, Qəznəvi, Bulqar
C) Abxaz, Samanilər, Qaraxanlılar, Qəznəvi, Bulqar
D) Frank, Samanilər, Qaraxanlılar, Qəznəvi, Bulqar

**6. Türk feodal dövlətləri hansı ərazilərdə yerləşib?**

A) Şərqi Afrika, Qərbi Avropa, Mərkəzi Asiya
B) Qərbi Afrika, Qərbi Avropa, Mərkəzi Asiya
C) Ön Asiya, Mərkəzi Asiya, Xəzərətrafı
D) Qərbi Avropa, Mərkəzi Asiya, Xəzərətrafı

**7. Səlcuqlar dövründə meydana gəlmiş torpaq mülkiyyəti formalarından biri idi:**

A) uc B) incu C) iqta D) soyurqal

**8. Səlcuq imperiyasının süqutunun səbəbləri:**

1. Ara müharibələr
2. Monqol hücumları
3. Canişinlərin rolunun zəifləməsi
4. Əyalət hakimlərinin müstəqilləşməsi
5. Bizansın hücumları

A) 1, 4 B) 2, 3 C) 3, 5 D) 3, 4

**9. Osmanlıların Konstantinopolu işğalının nəticələri haqqında fikirlərinizi bildirin.**

______________________________________________

______________________________________________

______________________________________________

**10. Bulqar dövlətinin türk dövləti olmasını faktlarla sübut edin.**

______________________________________________

______________________________________________

______________________________________________

**11 . Qərbi Avropada ilk səlib yürüşünə kimlər başlayıb?**

A) sənətkarlar
B) rahiblər
C) kəndlilər
D) feodallar

**12. Xlodviqin hakimiyyətinə aid olanları seçin:**

1. Ölkəni vilayətlərə böldü
2. Suasson döyüşündə qələbə çaldı
3. Qanun toplusu yaratdı
4. Ölkəni 3 oğlu arasında böldü

A) 2, 3 B) 1, 3 C) 3, 4 D) 1, 4

**13. Kimlərə təhkimli kəndli deyilir?**

A) Feodaldan asılı olan kəndliyə
B) Azad olan kəndliyə

C) Emalatxanada olan kəndliyə
D) Müstəqil olan kəndliyə

**14. Rus torpaqlarının Moskva ətrafında birləşməsi hansı amillərlə bağlı idi? Əsaslandırın.**

______________________________________________
______________________________________________
______________________________________________

**15. Niderland burjua inqilabının inqilab olmasını sübut edin.**

______________________________________________
______________________________________________
______________________________________________

**16. «Karolinq oyanışı»nın başa çatması nəylə bağlı olmuşdur?**

A) Ara müharibələrlə
B) Natural təsərrüfatla
C) Frank imperiyasının tənəzzülü ilə
D) «Xalqların böyük köçü» ilə

**17. Bizansı Qərbi Avropadan fərqləndirən xüsusiyyətlərdən biri deyil:**

A) Quldarlıq quruluşunun daha uzun müddət davam etməsi
B) Feodalizmə birbaşa ibtidai icmadan keçməsi
C) «Xalqların böyük köçü»nə məruz qalması
D) Vahid dövlətin yaranması

# «ÜMUMİ TARİX» FƏNNİ ÜZRƏ RESURSLAR

*Xəritələr və atlaslar*

«Böyük İpək yolu»
«Ərəblər VII–IX əsrlərdə»
«Frank imperiyasının parçalanması»
«Frank krallığının yaranması»
«Göytürk imperiyası»
«Qaraxanlılar dövləti»
«Qərbi Hun imperiyası»
«Qəznəvilər dövləti»
«Roma imperiyası və xalqların böyük köçü»
«Slavyanların üç qolu»
«Şərqi Avropa IX əsrdə»
«Avropada reformasiya»
«Xaç yürüşləri»
«Böyük Səlcuq imperiyası»
«Böyük Moğol imperiyası»
«Monqol imperiyası»
«Yüzillik müharibə»
«Monqol istilaları XIII əsrdə»
«Teymurilər dövləti»
«Osmanlı imperiyası»
«Hindistan XI–XVI əsrlərdə»
«Çin XI–XVI əsrlərdə»
«Böyük coğrafi kəşflər»
«Niderland burjua inqilabı»

***Sxemlər, cədvəllər, diaqramlar, şəkillər***

«VI əsrdə franklarda dövlət quruluşu» – sxem
«Atilla» – portret
«Feodal nərdivanı» – sxemi

«Xristian kilsəsinin təşkili» – sxemi
«Mahmud Qəznəvi» – portret
«Katalaun döyüşü» – sxem
«Suasson döyüşü» – sxem
«Alp Arslan» – portret
«Azenkur döyüşü» – sxem
«Buz döyüşü» – sxem
«Çingiz xan» – portret
«Cakonda» – portret
«Dəndənəkan döyüşü» – sxem
«Teymurləng» – portret
«Fateh II Mehmet» – portret
«İldırım Bəyazid» – portret
«Osman Qazi» – portret
«Süleyman Qanuni» – portret
«Kosova döyüşü» – sxem
«Kressi döyüşü» – sxem
«Kulikova döyüşü» – sxem
«Malazgird döyüşü» – sxem
«Oğuz boyları» – sxem
«XV əsrdə Fransada mərkəzləşdirilmiş dövlət» – sxem

***Audiovizual vasitələr, kinofilmlər:***

«Atilla» bədii filmi
«Məhəmməd peyğəmbər» bədii filmi
«Janna d'Ark» bədii filmi
«Nəsimi» bədii filmi
«Borodino» bədii filmi
«Boleyn nəslindən daha birisi» bədii filmi
«Monqol» bədii filmi
«Cəsur ürək» bədii filmi
«Ordu» bədii filmi
«Yelizaveta» bədii filmi

«Qızıl əsr» bədii filmi
«İvan Qroznı» bədii filmi
«Knyaz Bladimir» cizgi filmi
«Mariya Şotlandiyanın kraliçası» bədii filmi
«Robin Qud» bədii filmi
«Aleksandr Nevski» bədii filmi
«Codxa və Akbar» bədii filmi

***İnternetdən istifadə üçün***

1. WWW.history.az
2. WWW.history.ru
3. http://www.urokiistorii.ru
4. http://www.uroki.net
5. http://teachers.net/lessonplans/subjects/history
6. http://az.wikipedia.org/wiki/Portal:Tarix

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Təhsil Sahəsində İslahat Proqramı. Bakı, 1999.
2. Azərbaycan Respublikasının «Təhsil haqqında» qanunu. «Azərbaycan müəllimi» qəzeti. 8 sentyabr 2009.
3. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). Bakı, 2006.
4. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə konsepsiyası (layihə). «Azərbaycan müəllimi» qəzeti. 29 iyul 2006.
5. Açıq Cəmiyyət İnstitutu – Yardım fondu. «Təhsil siyasəti». Kitabı nəşrə hazırlayan Afət Dadaşov. Bakı, 2005.
6. **Abbasov Ə.** Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. «Kurikulum jurnalı», №1.
7. **Bəhrəmova S.** Ümumi tarix fənn kurikulumunun məqsədləri. «Təhsil problemləri» qəzeti. 1–7 iyul 2010.
8. Dərslik necə olmalıdır? Açıq Cəmiyyət İnstitutu. Bakı, 2003.
9. **Əhmədov A.** Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru. «Kurikulum jurnalı», 2008, №1.
10. **Əliyeva M.** və b. Müəllim hazırlığının və orta təhsilin perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Bakı, 2005.
11. **Hüseynov R., Bəhrəmova S.** Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində Ümumi tarix fənninin tədrisinin perspektivləri. TPİ-nin «Elmi əsərləri». 2010, №4.
12. **Hüseynov R., Bəhrəmova S.** Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisinin perspektivləri. Bakı PKİ və YHİ-nin əsərlərinə verilmişdir. 2010, №2.
13. **Hüseynov R., Mehdiyeva N.** Tarix fənnindən şagirdlərin bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi prinsipləri və metodları. «Tarix, insan və cəmiyyət» elmi-metodik jurnalı. Bakı, 2009, №1–2.
14. **Kərimov F.** və b. İnteqrativ kurikulum: mahiyyət və nümunələr. Bakı, «Adiloğlu», 2005.
15. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı, 2011.
16. **Qocayev Ə.** Tarixi şəxsiyyətlər. Bakı, 2008.

17. **Qəndilov R.T.** və b. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti (X–XI siniflər). Bakı, 2006.
18. **Mərdanov M.C.** Azərbaycan təhsili inkişaf yollarında (Müəllimlərin XIII qurultayına hesabat məruzəsi). Bakı, 2008.
19. **Məlikov R., İbrahimov N.** Məktəblinin tarix lüğəti. Bakı, 2004.
20. **Məlikov R., Nəcəfli T.** Tarixin interaktiv təlimi. Bakı, 2002.
21. **Mehrabov A.** Təhsilin yeni məzmununun bəzi konturları. «Kurikulum jurnalı», №1.
22. **Topçiyeva S.Ə.** və b. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti (V–XI siniflər). Bakı, 2006.
23. Ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün tarix proqramları. Bakı, 2000.
24. «Ümumi tarix fənn kurikulumunun strukturu». Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun «Elmi əsərləri». №4, 2009.
25. Ümumi təhsilin fənn standartları (I–XI siniflər). Bakı, 2012.
26. **Veysova Z.** Fəal təlim metodları. Bakı, 2007.
27. «Ümumi tarix fənn kurikulumunun məqsədləri». «Təhsil problemləri» qəzeti. Noyabr, 2009.

BURAXILIŞ MƏLUMATI

**ÜMUMİ TARİX 7**

*Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün*
*Ümumi tarix fənni üzrə dərsliyin*

**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Sevil Şivəxan qızı Bəhrəmova**
**Leyla Əhliman qızı Hüseynova**
**Həcər Kamaləddin qızı Əlişova**

Redaktor **Gülər Mehdiyeva**
Bədii və texniki redaktor **Abdulla Ələkbərov**
Dizaynerlər **Səbinə Məmmədova,**
**Təhmasib Mehdiyev**
Korrektorlar **Natəvan İsmayılova,**
**Ülkər Tağıyeva**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
2018-122

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 8,3. Fiziki çap vərəqi 8,0. Formatı 70x100 $^1/_{16}$.
Səhifə sayı 128. Ofset kağızı. Məktəb qarnituru. Ofset çapı.
Tiraj 6245. Pulsuz. Bakı—2018.

**«Aspoliqraf LTD» MMC**

Bakı, AZ 1052, F.Xoyski küç., 149

PULSUZ